AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

VƏTƏNDAŞLIQ HÜQUQU: BEYNƏLXALQ HÜQUQ NORMALARI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİ

İxtisas: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"

Elm sahəsi: Hüquq

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş

DİSSERTASİYA

İddiaçı: _____ **Əsmər Aqil qızı Pənahova**
(imza)

Elmi rəhbər: _____ **h.e.d., prof. Əmir İbrahim oğlu Əliyev**
(imza)

Bakı – 2021

MÜNDƏRİCAT

GİRİŞ.....3
I FƏSİL. VƏTƏNDAŞLIQ HÜQUQUNUN MAHİYYƏTİ VƏ HÜQUQİ TƏBİƏTİ.....14
1.1. Vətəndaşlıq hüququnun formalaşması, mahiyyəti və spesifik xüsusiyyətləri.....14
1.2. Vətəndaşlıq hüququnun müəyyən edilməsinə dair nəzəri-hüquqi yanaşmalar....25
1.3. Vətəndaşlıq hüququnun tənzimlənməsinin beynəlxalq hüquqi əsasları.....34
II FƏSİL. QLOBALLAŞMA ŞƏRAİTİNDƏ VƏTƏNDAŞLIQ HÜQUQUNUN AKTUAL PROBLEMLƏRİ.....46
2.1. İkili və çoxvətəndaşlıq problemi.....46
2.2. Vətəndaşlığı olmayan şəxslərin hüquqi müdafiəsi problemi.....56
2.3. Vətəndaşların diplomatik müdafiə hüququnun təmin edilməsi.....66
2.4. Avropa İttifaqında vətəndaşlıq problemlərinin hüquqi tənzimlənməsi.....77
III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA VƏTƏNDAŞLIQ HÜQUQUNUN İNKİŞAF PROBLEMLƏRİ.....89
3.1. Azərbaycan Respublikasının hüquq sistemində vətəndaşlıq hüququnun formalaşması və əsas xüsusiyyətləri.....89
3.2. Azərbaycan Respublikasının qanunvericiliyində vətəndaşlıq hüququnun inkişaf problemləri.....98
3.3. Azərbaycan Respublikasında vətəndaşlıq hüququnun inkişafına beynəlxalq hüquq normalarının təsiri.....106
NƏTİCƏ.....116
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.....122

GİRİŞ

Mövzunun aktuallığı. İnsanların müəyyən dövlətdə hüquq və azadlıqlarının həcmi, əsas etibarilə onda bu dövlətin vətəndaşlığının olub-olmamasından da asılıdır, bir qayda olaraq, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə müqayisədə dövlətin öz vətəndaşları daha çox hüquq və azadlıqlar əldə edir. Vətəndaşların hüquqi statusu bütün hallarda dövlətin ərazisində yaşayan qeyri-vətəndaşların (əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin) hüquqi statusundan fərqlənir. Mühüm beynəlxalq sənədlərdə də bu kimi hallar aydın şəkildə təsbit edilmişdir.

Bütövlükdə, beynəlxalq hüquq və insan hüquqları vətəndaşlıq məsələlərinin tənzimlənməsində və vətəndaşlıq hüququnun formalaşmasında mühüm rol oynayır. Eyni zamanda, burada insan hüquqlarının real təminat sistemlərinin qurulması və daha da inkişafı ön plana çəkilməlidir [7, 12; 31, 90]. Milli təminat sistemlərinin formalaşması və inkişafında isə beynəlxalq təşkilatların və beynəlxalq müqavilələrin rolu əvəzsizdir. Xüsusən də vətəndaşlıq hüququnun məzmunu, vətəndaşlığın əldə edilməsi və itirilməsi, vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu, diplomatik müdafiə və s. kimi məsələlərdə beynəlxalq hüququn təsiri ciddi şəkildə özünü göstərir. Daha sonra, vətəndaşlıq hüququ konstitusiya (dövlət) hüququnun və insan hüquqlarının fundamental sahəsi olmaqda davam edir, çünki "vətəndaşlıq" dövlətlə fərd arasında qarşılıqlı münasibətlərin mərkəzi və əsas həlqəsini təşkil edir. Ümumiyyətlə, vətəndaşlıqla bağlı məsələlərin tənzimlənməsi dövlətin hüquq sisteminin inkişafında, vətəndaş cəmiyyətinin inkişafı və rolunun artırılmasında, dövlətin siyasi-hüquqi sisteminin təkmilləşməsində də mühüm əhəmiyyət kəsb edir.

Beynəlxalq hüquqda vətəndaşlıq məsələləri ilə bağlı tədqiqat aparan əksər alimlərin (Paul Veis, Alfred M.Boll, Rut Donner və s.) fikrincə, vətəndaşlıq, bu və ya digər şəxsin dövlətin hüquqi və siyasi sisteminin bütün elementləri ilə müəyyən edilməsinə imkan verən xüsusi əlaqəsidir [103; 56]. Son dövrlər beynəlxalq cəmiyyətdə vətəndaşlıq institutunun inkişafı istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Nəticədə "qlobal vətəndaşlıq" adlı fenomenin yaradılmasına cəhdlər göstərilir, hətta bu sahədə müəyyən ilkin şərtlər müşahidə olunur [76; 32-34].

Müxtəlif dövlətlərin vətəndaşlıq məsələlərini nizama salan milli qanunvericilikləri arasında ziddiyyətlər vətəndaşlıq hüququnun problemli sahələrinin meydana çıxmasına səbəbdir, əsasən də bu problemlər dövlətlərin hüquq varisliyi, vətəndaşsızlıq, ikili və çox vətəndaşlıq, vətəndaşların diplomatik müdafiəsi ilə əlaqədar məsələlərin hüquqi tənzimlənməsi zamanı daha çox meydana çıxır. Müxtəlif dövlətlərin milli qanunvericilikləri isə bu problemləri effektiv həll etməyə qadir deyildir, buna görə də, dövlətlər beynəlxalq hüquqi mexanizmlərə müraciət edirlər, məsələn, bu sahədə beynəlxalq müqavilələrin qəbul edilməsinə təşəbbüs göstərirlər. Bu cəhətdən vətəndaşlıq məsələləri üzrə beynəlxalq razılaşmaların tətbiqinin nəzəri əsaslandırılması, həmçinin Azərbaycan Respublikasının (AR) hüquq sistemində vətəndaşlıq məsələləri üzrə beynəlxalq müqavilələrin praktiki tətbiqinin müxtəlif aspektlərinin tədqiqi kifayət qədər aktual məsələdir.

Vətəndaşlığın beynəlxalq hüquqi tənzimetmə tələb edən bir çox vacib məsələləri hal-hazırda məcəllələşdirmə prosesindədir. Məsələn, Diplomatik müdafiə məsələlərinə dair 2006-cı il tarixli Maddələr Layihəsini bu zaman qeyd etmək olar. Bu səbəbdən vətəndaşlıq hüququnun qeyd edilən problemlərinin hüquqi tənzimlənməsi üzrə nəzəri-praktik tədqiqatların aparılması, yeni konsepsiya və layihələrin işlənib-hazırlanması xüsusi aktuallıq kəsb edir.

Beynəlxalq hüquq vətəndaşlıq məsələlərinin bütün istiqamətlərinə təsir edir: onun məzmununa (fərdin və dövlətin hüquq və vəzifələrinə), dövlətlərarası əlaqələr sferasında vətəndaşlığa bilavasitə aidiyyəti olan məsələlərə (diplomatik müdafiə, ölkədən çıxarılma), vətəndaşlığın əldə edilməsinə, itirilməsinə və s.

Son dövrlər dövlətimizin həyatında baş vermiş müxtəlif müsbət dəyişikliklər AR vətəndaşlığı institutunun bir çox istiqamətlərində öz əksini tapmışdır. AR Konstitusiyası vətəndaşlığı ölkənin konstitusiya quruluşunun ayrılmaz elementi kimi tanıyır. Konstitusion hüquqi əsaslar vətəndaşlıq institutuna möhkəm, mütərəqqi inkişafı əldə etməyə imkan verən bünövrədir. 30 sentyabr 1998-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" AR Qanunu vətəndaşlıq hüququnun təkmilləşdirilməsi yolunda əhəmiyyətli addım oldu, hansı ki, vətəndaşlığın əldə edilməsi və itirilməsi əsaslarının dəqiq şəkildə müəyyən edilməsini təmin etdi. Lakin, hüquq

tətbiqi təcrübəsinin analizi göstərir ki, dövlətin və şəxsiyyətin münasibətlərinin hüquqi tənzimlənməsinin təminatında effektiv həll tələb edən məsələlər hələ də qalmaqdadır, xüsusilə də, vətəndaşlığın əldə edilməsinin sadələşdirilmiş qaydası, ikili vətəndaşlıq, vətəndaşlıqdan imtina, diplomatik müdafiə və s. məsələlər.

Kompleks elmi tədqiqatın aparılması zərurəti həm də o məsələdə özünü göstərir ki, vətəndaşlıq haqqında qanunvericiliyi reallaşdıran dövlət orqanları öz fəaliyyətində nadir hallarda beynəlxalq müqavilələrə müraciət edirlər. Əslində milli qanunvericiliklə yanaşı beynəlxalq hüququn normalarının tətbiqi qeyri-adi hal olmalı deyildir. Baxmayaraq ki, AR-də beynəlxalq hüquq normalarından istifadə təcrübəsi genişlənir, onunla razılaşmaq lazımdır ki, hüquq tətbiqi orqanları beynəlxalq müqavilələrin müddəalarını nəzərə almadan, yəni milli qanunvericilik əsasında məsələlərə baxmağa meyllidirlər. Belə bir neqativ praktikanın formalaşmasının bir sıra obyektiv səbəbləri vardır. Obyektiv səbəblər arasında ilk növbədə onu qeyd etmək lazımdır ki, Respublikamız vətəndaşlıq məsələlərinə dair daha geniş beynəlxalq hüquqi aktlara tərəfdar çıxmamışdır. Eyni zamanda, mövcud, yəni təsdiq edilən beynəlxalq hüquqi aktların tətbiqi məsələləri də ətraflı şəkildə izah edilməmişdir.

Beləliklə, AR-də vətəndaşlıq hüququnun hərtərəfli tədqiqi zərurəti, bu sahədə qəbul edilmiş beynəlxalq hüquq normalarının milli qanunvericiliyə implementasiyası, vətəndaşlıq məsələləri üzrə qüvvədə olan qanunvericilik aktlarında ziddiyyətlərin üzə çıxarılması, vətəndaşlıq hüququnun sonrakı inkişafı üzrə təkliflərin irəli sürülməsi və s. seçilmiş tədqiqat işinin aktuallığını göstərən vacib məsələlərdəndir.

Mövzunun elmi işlənmə dərəcəsi. Dissertasiya işində bu və ona yaxın sahələrdə tədqiqatlar aparan bir sıra yerli hüquqşünas alimlərin – Ə.İ.Əliyev, Ə.İ.Əsgərov, Ə.Q.Məmmədov, L.H.Hüseynov, R.F.Məmmədov, Ş.İ.Əliyev, T.İ.Hüseynov, Z.A.Əsgərov, A.İ.Mustafayeva, E.T.Süleymanova, İ.M.Rəhimov, M.N.Əliyev, R.R.İsmayılov, V.N.Ağayeva, S.S.Əliyev və b.; əcnəbi alimlərin, ilk növbədə, rus ailmlərin - M.M.Avakov, A.B.Aksenov, Y.A.Ataniyazova, A.V.Belov, Y.R.Boyare, T.A.Vasilyeva, A.M.Mitskeviç, İ.V.Raçkov, V.V.Svinarev, E.S.Smirnova, V.Y.Boytsov, N.V.Vitruk, L.D.Voyevodin, V.M.Hessen, A.A.Golovko, V.V.Kalinin, S.S.Kişkin, S.A.Komarov, R.İ.Kulik, O.E.Kutafin, V.F.Mironov, E.A.Nexay, V.V.Polyanski,

V.M.Safronov, V.Shevtsov və b.; Qərbi Avropa və Amerikan alimlərin - P.Magnet, A.Kesbi, T.Ş.Abebe, D.Akavi, P.Veys, L.Hettis, L.Oppenheym, A.Ferdross, T.Hammar, U.Q.Hill, LD.Fridman, A.Şayo, İ.izenzee, P.Kirhoff, P.Kloze, S.Kastles, A.Davidson, N.Stokes- DuPass, R.Fruja, A.Osler, H.Starki, P.Tambakaki, J.Demaine, H.Entvistl, S.Panser, L.Nauta, A.Misşe, S.Veissbrot, P.J.Spiro, E.Rhoda və b. tədqiqatlarından müqayisəli şəkildə istifadə edilmişdir.

Azərbaycan hüquq ədəbiyyatında bu istiqamətdə bir sıra xüsusi tədqiqatlara da rast gəlinir. Lakin həmin tədqiqatlar sırf vətəndaşlıq haqqında milli qanunvericiliyin konstitusiya hüququ nöqteyi-nəzərindən[31], daha sonra vətəndaşlıq məsələlərinin beynəlxalq hüquq normaları ilə qarşılıqlı əlaqələrinin [8] və vətəndaşlıqla bağlı hər hansı bir problemin [1] geniş təhlilinə həsr edilmişdir. Hazırki tədqiqatda isə problem tamamilə başqa istiqamətdən, daha dəqiq desək yeni tendensiyalardan yanaşılmaqla, məhz mühüm insan hüququ kimi vətəndaşlıq hüququ prizmasından təhlil edilmişdir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyektini vətəndaşlıq hüququnun tənzimlənməsi üzrə beynəlxalq və dövlətdaxili hüquqi sferada meydana çıxan ictimai münasibətlər təşkil edir. Tədqiqatın predmetini vətəndaşlıq hüququ sahəsində beynəlxalq hüquqi aktlar, beynəlxalq təşkilatların qərar və qətnamələri, beynəlxalq məhkəmə orqanlarının qərarları, adət normaları, müxtəlif dövlətlərinin qanunvericiliyi və AR qanunvericiliyində təsbit olunan hüquq normaları təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi beynəlxalq hüquq nəzəriyyəsi və təcrübəsində vətəndaşlıq hüququnun beynəlxalq hüquqi tənzimlənmə-sinin ən aktual və mübahisəli məsələlərinin sistemli və hərtərəfli öyrənilməsindən, nəzəriyyənin sonrakı inkişafına və dövlətlərarası əməkdaşlığın bu sahəsində beynəlxalq hüquq təcrübələrinə yönəlmiş nəzəri müddəaların və praktik tövsiyələrin formalaşdırıl-masından, o cümlədən qeyd edilən məsələlərin AR praktikasında təhlilindən ibarətdir. Eyni zamanda, dissertasiya tədqiqatının məqsədi AR-də vətəndaşlıq hüququnun hüquqi əsaslarının öyrənilməsindən, vətəndaşlıq məsələlərinin nizama salınması üzrə mövcud hüquqi mexanizmlərin effektivliyinin qiymətləndirilməsi və bu yolla vətəndaşlıq hüququnun sonrakı inkişafı ilə bağlı münasibətləri nizama salan qanunvericiliyin təkmilləşdirilməsinə yönəlmiş praktik tövsiyələrin hazırlanmasından ibarətdir.

Qeyd edilən məqsədlərə nail olmaq üçün tədqiqatda aşağıdakı **vəzifələr** müəyyən edilmişdir:

- vətəndaşlıq hüququnun formalaşmasının tarixi və sosial şərtlərinin və vətəndaşlıq anlayışının müəyyən edilməsinin əsaslandırılması;
- vətəndaşlıq hüququnun məzmununun açılması və ümumi xarakteristikasının verilməsi;
- vətəndaşlığın müxtəlif məsələlərini nizama salan beynəlxalq hüquq normaları ilə vətəndaşlıq hüququnun siyasi-hüquqi təbiətinin təhlil edilməsi;
- Aİ vətəndaşlığının əsas xüsusiyyətlərinin təhlil edilməsi və onların yeni konseptual xüsusiyyətlərinin göstərilməsi;
- beynəlxalq hüququn tənzimetmə obyekti olan vətəndaşlığın ən kəskin və tez-tez rast gəlinən problemlərinin aşkar edilməsi;
- ikili vətəndaşlıq fenomeninin yaranma səbəblərinin müəyyən edilməsi, müsbət və mənfi xüsusiyyətlərinin qiymətləndirilməsi;
- vətəndaşlığı olmayan şəxslərin müdafiəsi ilə bağlı problemlərin təhlili;
- vətəndaşların diplomatik müdafiə hüququnun təmin edilməsi ilə bağlı nəzəri və praktiki problemlərin üzə çıxarılması;
- tarixi inkişafın müxtəlif mərhələlərində Azərbaycan Respublikasında vətəndaşlıq hüququnun formalaşması ilə bağlı problemlərin araşdırılması;
- AR vətəndaşlığı institutunun beynəlxalq-hüquqi, konstitusion-hüquqi və insan hüquqları əsaslarının ətraflı təhlilinin həyata keçirilməsi;
- vətəndaşlıq institutunun AR və digər dövlətlərlə müqayisəli-hüquqi təhlilinin aparılması;
- beynəlxalq hüququn və AR qanunvericiliyinin hərtərəfli analizinə əsasən AR-də vətəndaşlıq məsələlərinin hüquqi nizama salınmasında boşluqların və ziddiyyətlərin aşkar edilməsi;
- AR-də vətəndaşlıq hüququnun mövcud problemlərinin aradan qaldırılması istiqamətində hüquqi həll yollarının təklif edilməsi.

Tədqiqat metodları. Tədqiqat işinin metodoloji əsasını dialektikanın prinsip və kateqoriyaları təşkil edir. Ümumi elmi, o cümlədən, digər metodlardan da

dissertasiyada geniş şəkildə istifadə edilmişdir. Məsələn, tarixi-hüquqi, müqayisəli-hüquqi, formal-məntiqi, konkret-sosioloji və s.

Tədqiqatın elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi onunla əlaqədardır ki, dissertasiya işində müasir dövrdə beynəlxalq hüquqda onun əhəmiyyətini xarakterizə edən vətəndaşlıq hüququ sferasında beynəlxalq standartların yaranması, tətbiqi və bu istiqamətdə aktual problemlərin kompleks və hərtərəfli tədqiqatına cəhd göstərilmişdir. Daha sonra, dissertasiya işində vətəndaşlıq hüququnun effektivliyinin artırılmasına və bu sahədə beynəlxalq mübahisələrin yaranması səbəblərinin aradan qaldırılmasına yönəlmiş bir sıra təşəbbüslər irəli sürülür. Nəhayət, dissertasiya səviyyəsində ilk dəfə AR-də vətəndaşlıq hüququnun beynəlxalq hüquq normalarının təsiri ilə inkişafına, mövcud qanunvericilik və hüquq tətbiqi təcrübəsinin təkmilləşdirilməsinə dair kompleks elmi araşdırma aparılmışdır.

Müdafiəyə çıxarılan əsas müddəalar. Dissertasiyada tədqiqatın elmi yeniliyini özündə ifadə edən aşağıdakı yeni **elmi müddəalar** müdafiəyə təqdim olunur:

1. "Vətəndaşlıq hüququ"nun mahiyyəti "vətəndaşlıq" anlayışının müəyyən edilməsi ilə bilavasitə bağlıdır. "Vətəndaşlıq" "vətəndaşlıq hüququ" anlayışından daha genişdir və eyni zamanda sosial, siyasi, əxlaqi və psixoloji aspektləri özündə ehtiva edir. Bu halda, əgər hüquqi keyfiyyətdə vətəndaşlıq dövlətlə şəxsin əlaqəsini təşkil edirsə, onda sosial aspektdə vətəndaşlıq hər şeydən əvvəl, dövləti yaradan və xalq (millət) şəklində təqdim edilən cəmiyyətlə şəxsin əlaqəsini təcəssüm etdirir. Vətəndaşlıq - şəxsin dövlətlə yalnız hüquqi yox, həm də siyasi-hüquqi əlaqəsidir. Bu, vətəndaşlığın yüksək siyasi potensialı ilə şərtlənir. Məsələ burasındadır ki, yalnız vətəndaşlar siyasi hakimiyyətin həyata keçirilməsində iştirak etmək imkanına malikdirlər və yalnız vətəndaşlara tam həcmdə dövlətin siyasi hakimiyyəti şamil olunur. "Vətəndaşlıq"la bağlı qeyd edilən xüsusiyyətlər "vətəndaşlıq hüququ"nun məzmununda öz ifadəsini tapmışdır və mühüm beynəlxalq sənədlərdə əks olunmuşdur.

2. Beynəlxalq hüquq dövlətdaxili hüququn məhsulu olan və dövlətlə şəxsiyyəti birləşdirən möhkəm hüquqi əlaqə kimi vətəndaşlıq institutunun qiymətləndirilməsin-də və inkişafında mühüm töhfələr vermişdir. Beynəlxalq hüquq dövlət və şəxsiyyətin

bir sıra qarşılıqlı hüquq və vəzifələrini üzə çıxarır, həmçinin vətəndaşlıq hüququnun şəxsiyyətin etnik mənşəyi ilə əlaqələndirilməsinin yolverilməzliyini vurğulayır. Burada məqsəd vətəndaşlıq meyarına görə insanlar arasında ayrı-seçkiliyə yol verməmək, son nəticədə isə insan hüquq və azadlıqlarının təmin edilməsinə nail olmaqdır.

3. Vətəndaşlıq hüququna müxtəlif yanaşmaların təhlilinə əsasən hüququn müstəqil sahələrarası institutu kimi onun məzmunu dəqiqləşdirilmiş və bu institutun konstitusiya hüququ, beynəlxalq hüquq, insan hüquqları və başqa hüquq sahələrinin normalarından ciddi yararlanması müəyyən edilmişdir. Məhz qeyd edilən sahələrin vəhdətində vətəndaşlıq hüququnun əsas mahiyyəti müəyyən və inkişaf edilə bilər.

4. Beynəlxalq hüquq vətəndaşlığın məzmununa əhəmiyyətli dərəcədə təsir göstərir, yəni dövlətin öz vətəndaşları ilə rəftarının standartlarını müəyyən edir. Vətəndaşlığın məzmununa beynəlxalq hüququn təsiri iki formada özünü büruzə verir: birinci halda beynəlxalq hüquqi aktlar fiziki şəxslərin hüquqları və vəzifələrini bilavasitə təsbit edir, yəni həmin beynəlxalq hüquqi normalar bilavasitə fərdlərə ünvanlanmışdır, ikinci halda isə beynəlxalq müqavilələr dövlətləri öz qanunvericiliyini həmin beynəlxalq hüquqi aktların müddəalarına uyğunlaşdırmağa öhdəlikləndirir. Müvafiq olaraq, təsirin birinci forması müvafiq münasibətlərin bilavasitə nizama salınması kimi müəyyən edilə bilər, ikinci forma isə beynəlxalq müqavilələrin köməyi ilə həyata keçirilən vətəndaşlıq haqqında milli qanunvericiliyin unifikasiyası kimi mühüm əhəmiyyət kəsb edir. Hər iki hal bir-birilə sıx bağlıdır və birgə nəzərdən keçirilməlidir.

5. Beynəlxalq hüquq vətəndaşlığın hüquqi tənzimlənməsinin əsas prinsiplərinin formalaşmasına əsaslı təsir göstərir, onların arasında vətəndaşlıq əldə edilməsi hüququ, vətəndaşlıqdan özbaşına məhrum etmənin qadağan edilməsi və s. xüsusilə qeyd edilməlidir. Bu ümumi prinsiplər vətəndaşlıq məsələlərində milli hüquq sistemlərinin yaxınlaşmasına yönəlmişdir, eyni zamanda, vətəndaşlıq haqqında dövlətdaxili aktların qanuniliyinin meyarı və vətəndaşlıq hüququ ilə bağlı məsələlərdə beynəlxalq hüquqla dövlətdaxili hüquq arasında bağlayıcı vasitə kimi çıxış edirlər. Həmin prinsiplər isə insan hüquqları sahəsində, o cümlədən vətəndaşlıq

məsələlərinin tənzimlənməsi üzrə qəbul edilmiş mühüm beynəlxalq müqavilələrdə təsbit və inkişaf etdirilmişdir.

6. Müasir beynəlxalq hüquqda vətəndaşlıq hüququnun aktual problemlərindən olan diplomatik müdafiə hüququ vətəndaşlara münasibətdə dövlətin həm hüququ, həm də vəzifəsi kimi çıxış edə bilər. Bu baxımdan diplomatik müdafiənin hüquqi təbiəti iki aspektdən qiymətləndirilə bilər: birincisi, dövlətin hüququ nöqteyi-nəzərindən – burada dövlət həm öz vətəndaşlarına, həm də digər qeyri-vətəndaşlara (qaçqın, apatrid) münasibətdə diplomatik müdafiəni realizə edə bilər; ikincisi, dövlətin vəzifəsi nöqteyi-nəzərindən – burada dövlət, onunla siyasi-hüquqi bağlılığı olan vətəndaşlarını, o cümlədən ikili vətəndaşları müdafiə etmək öhdəliyi daşıyır. Qaçqın və ya apatridlərə gəldikdə isə onların müvafiq dövlətlə siyasi-hüquqi bağlılığı olmadığı üçün, dövlət həmin kateqoriya şəxslərin müdafiəsi ilə bağlı milli qanunvericiliyində dəyişiklik edə və ya öz üzərinə beynəlxalq öhdəlik götürə bilər. Beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi çıxış edən insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi dövlətin ərazisində yerləşən bütün şəxslərin insan hüquqlarının təminatı sahəsində öhdəliyini müəyyən etdiyindən daimi yaşayan qeyri-vətəndaşların diplomatik müdafiə edilməsi ilə bağlı beynəlxalq hüquq normalarının beynəlxalq müqavilələrdə əks etdirilməsi (beynəlxalq müqavilələrə əlavə protokollar şəklində) zəruridir. İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi isə bütün dövlətlər üçün öhdəliklərin yerinə yetirilməsini irəli sürən ümumməcburi nörmalar sisteminə malikdir.

7. Aİ-nin vətəndaşlığı beynəlxalq hüquqi təbiətə malikdir, hansı ki, İttifaqın üzv-dövlətlərinin milli vətəndaşlığı ilə bağlı İttifaq vətəndaşlığının subsidiar xarakterinin saxlanılmasında ifadə edilir. Bundan başqa, Aİ vətəndaşlığının analizi iddia etməyə əsas verir ki, Aİ vətəndaşlarının İttifaq qarşısında hər hansı vəzifələri yoxdur. Bizim fikrimizcə, bu məsələ vətəndaşlıq haqqında klassik təsəvvürə zidd təəssüratı yaratmamalıdır, çünki vətəndaşlıq şəxslərə yalnız hüquqlar vermir, həm də onlardan müvafiq hüquqi münasibətin kontragentlərinə məsuliyyətli münasibəti tələb edir. İddia etmək olar ki, bu hüquqi konstruksiya milli vətəndaşlıqla müqayisədə üzv-dövlətlərin vətəndaşlarını əlavə hüquqlarla təmin edir, bu isə öz növbəsində, yalnız şəxslərin hüquqi zəmanətlərinin genişlənilməsinə imkan yaratmır, həm də “Avropa

həmrəyliyi və eyniliyi" ideyasının inkişafına yönəlmiş bir təşəbbüsdür. Qeyd edilənlər isə "vətəndaşlıq hüququ" anlayışına zidd deyildir, əksinə bununla əlaqədar münasibətlərin daha da inkişafına və təminatına yönəlmişdir.

8. Müasir dövrdə Respublikamızda mövcud olan vətəndaşlıq hüququ haqqında, onun formalaşması, hüquqi əsasları barədə ətraflı fikir irəli sürmək üçün ilk növbədə, onun yaranması tarixinə nəzər yetirilməlidir. Müxtəlif tarixi dövrlərdə Azərbaycanda müasir anlamda vətəndaşlıq hüququ mövcud olmamışdır. Azərbaycan Xalq Cümhuriyyətinin əsas hüquqi sənədi olan və konstitusiya aktı statuslu İstiqlal Bəyannaməsində vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, hər kəsin hüquq bərabərliyi kimi məsələlər öz əksini tapmışdır. İki ilə yaxın mövcud olmasına baxmayaraq, məhz Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş, konkret olaraq 11 avqust 1919-cu il tarixli Azərbaycan vətəndaşlığı haqqında Qanun Azərbaycan tarixində ilk dəfə olaraq "Azərbaycan vətəndaşlığı", "Azərbaycan vətəndaşı" kimi anlayışları normativ hüquqi səviyyədə təsbit etməklə Azərbaycanda müasir anlamda vətəndaşlıq hüququnun hüquqi əsasını yaratmışdır. Artıq Azərbaycan Xalq Cümhuriyyəti dövründə rəsmi sənədlərdə "Azərbaycan vətəndaşlığı" anlayışından istifadə olunurdu. Qeyd edilənlər isə "vətəndaşlıq hüququ" anlayışının dövlətimiz üçün tarixi və önəmli xarakterini bir daha təsdiq edir.

9. Respublikamızda vətəndaşlıq hüququnun hüquqi əsasını ilk növbədə, AR Konstitusiyası təşkil edir. AR Konstitusiyası AR vətəndaşlıq hüququna anlayış verir, vətəndaşlıq hüququnu təmin edir, eyni zamanda vətəndaşların hüquqlarının realizəsi və müdafiəsi ilə bağlı geniş imkanlar təsbit edir. Bu baxımdan AR Konstitusiyası nadir konstitusiyalardan biridir ki, bu hüququ ən ali qanun səviyyəsində hərtərəfli müəyyən edir və həyata keçirilməsinə hüquqi əsaslar yaradır. AR Konstitusiyası ilə yanaşı, Respublikamızda vətəndaşlıq məsələlərinin tənzimlənməsində ayrıca normativ hüquqi aktın, yəni 30 sentyabr 1998-ci il tarixli "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" AR Qanununun qəbul edilməsi Respublikamızda vətəndaşlıq hüququna xüsusi əhəmiyyət verilməsinin və daim dövlətin diqqət mərkəzində olmasının göstəricisidir.

10. Vətəndaşlıq məsələləri ilə bağlı beynəlxalq hüquq normalarının AR qanunvericiliyinə təsiri məsələsində bir vacib məsələ xüsusilə qeyd edilməlidir. Söhbət vətəndaşlığın itirilməsi məsələsində beynəlxalq hüquq normaları ilə milli hüquq normaları arasındakı ziddiyyətdən gedir. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna edilmiş dəyişiklikdən (04 dekabr 2015-ci il tarixli Qanunla) sonra vətəndaşlığın itirilməsinin konkret halları sadalanır. Lakin bu hallar AR-in də qoşulduğu Vətəndaşsızlıq hallarının ixtisarı haqqında 1961-ci il Konvensiyasına, konkret olaraq Konvensiyanın 8.1 və 9-cu maddələrinə uyğun deyildir. Düzdür, AR Konstitusiyasına edilən son dəyişikliklərdən (26 sentyabr 2016-cı il) sonra bu məsələ Konstitusiyada da təsbit edilmişdir, lakin nəzərə alsaq ki, Qanuna edilən dəyişiklik zamanı AR Konstitusiyasında "heç bir halda Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilə bilməz" normasının mövcud olması, hazırda bu məsələ ilə bağlı mübahisə doğurur. Hesab edirik ki, vətəndaş hansı növ cinayət törətməsindən asılı olmayaraq vətəndaşlıqdan məhrum edilə bilməz, yalnız törətdiyi cinayətə görə cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər. Bu baxımdan qeyd edilən məsələdə beynəlxalq hüquq normalarının milli qanunvericilikdə düzgün tətbiq edilmədiyini iddia etmək olar. Bu isə qüvvədə olan qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsini zəruri edir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti vətəndaşlıq hüququnun öyrənilməsinə fundamental beynəlxalq hüquq yanaşması ilə şərtlənir. Dissertasiya tədqiqatının predmetini təşkil edən problemlərin nəzəri təhlili bu sferada beynəlxalq hüququn və dövlətlərarası əməkdaşlığın müasir inkişaf səviyyəsini nəzərə alaraq vətəndaşlığın beynəlxalq hüquqi tənzimlənməsi məsələlərinin elmi araşdırılmasına əsaslanır. Dissertasiyada xülasə edilmiş nəzəri müddəalar vətəndaşlıq məsələləri üzrə əməkdaşlığın beynəlxalq hüquq problemlərinin sonrakı tədqiqatı üçün də istifadə edilə bilər. Nəhayət, dissertasiyanın materialları beynəlxalq ümumi və xüsusi hüquq, insan hüquqları, konstitusiya hüququ, inzibati hüquq, miqrasiya və vətəndaşlıq məsələlərinin hüquqi tənzimlənməsi və s. fənlərin tədrisi prosesində də geniş istifadə oluna bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiyanın mühüm aspektləri ilə əlaqədar bir sıra məsələlər AR-də və xaricdə nəşr olunan jurnallarda və beynəlxalq konfrans materiallarında çap olunmuşdur.

Dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın strukturu. Dissertasiya giriş, özündə 10 paraqrafı birləşdirən 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Titul səhifəsi 370, Mündəricatı 1976, Girişi 20712, Əsas məzmunu 200331, Nəticəsi 11032, İstifadə edilmiş ədəbiyyat siyahısı 14028 işarə olmaqla, ümumilikdə 248449 işarədən ibarətdir.

I FƏSİL. VƏTƏNDAŞLIQ HÜQUQUNUN MAHİYYƏTİ VƏ HÜQUQİ TƏBİƏTİ

1.1. Vətəndaşlıq hüququnun formalaşması, mahiyyəti və spesifik xüsusiyyətləri

Vətəndaşlıq hüququn ən əhəmiyyətli institutlarından biri olaraq, cəmiyyətdə və dövlətdə fərdin hüquqi vəziyyətinin əsasını təşkil edir. Vətəndaşlığın məzmununun müəyyən edilməsi, onun mahiyyətinin və əsas xüsusiyyətlərinin aydınlaşdırılması əhəmiyyətli və mürəkkəb problem olaraq qalır. Vətəndaşlıq hüququ institutuna həsr edilmiş elmi işlərin sayının çoxluğuna baxmayaraq, vətəndaşlığın və onun əsas hüquqi nəticələrinin məzmunu haqqında ümumi fikirlər tam şəkildə mövcud deyildir.

Vətəndaşlıq hüququnda müxtəlif anlayışlarının mövcudluğu onun məzmununda daim baş verən dəyişikliklərlə izah olunur. Bu, istənilən hadisənin inkişafının təbii vəziyyətidir. Vətəndaşlığın məzmunu həm dövlətin özünün, onun nəzəri anlamının və hüquqi tənzimlənməsi probleminin inkişafı, bu inkişafın konkret tarixi şəraiti ilə şərtlənir. Buna görə də, vətəndaşlığa verilən anlayışların qiymətləndirilməsi zamanı həmin anlayışlarda real həqiqətin nə dərəcədə əks olunmasına xüsusi önəm verilir.

Müvafiq olaraq, vətəndaşlığın mahiyyəti haqqında daha geniş və ya dar anlayışa doğru yeganə yol müxtəlif, artıq mövcud olan anlayışların müqayisəsi vasitəsilə, eyni zamanda, vətəndaşlığın sosial, hüquqi və siyasi aspektlərini əks etdirməklə mümkündür. Bununla belə, vətəndaşlığı, onun bütün struktur elementlərinin qarşılıqlı əlaqəsi şəraitində bütöv, vahid sistem kimi tədqiq etmək məqsədəuyğundur. Ümumiyyətlə, vətəndaşlıq institutu cəmiyyətin sabitliyini və birliyini təmin etmək, dövlətçiliyi möhkəmləndirmək, şəxsin, cəmiyyətin və dövlətin maraqlarını tarazlaşdırmağa xidmət edir[27, 5-6].

Vətəndaşlıq hüququ üzrə elmi ədəbiyyatların və qanunvericiliyin təhlili göstərir ki, bu anlayışın mahiyyətinin izahına dair bir neçə elmi yanaşma mövcuddur.

Onlardan birincisi (Pol Maqnette, Alison Kesbi, P.Klose)[71; 66; 49] vətəndaşlığı dövlətlə şəxsin xüsusi hüquqi və ya siyasi-hüquqi əlaqəsi kimi müəyyən edir. Bu yanaşma çərçivəsində, bir halda dövlətlə şəxsiyyətin belə hüquqi əlaqəsinin

məzmunu şəxsin dövlət tərəfindən müəyyən edilən hüquq və vəzifələrinin məcmusuna uyğundur, digər halda, qarşılıqlı hüquq və vəzifələrin mövcudluğuna uyğundur, başqa sözlə desək, vətəndaşlıq şəxsiyyətin dövlətdəki hüquqi statusuna aid edilir. Üçüncü halda isə dövlətlə fiziki şəxslər arasında hüquqi əlaqə qarşılıqlı hüquq və vəzifələrin yaranması üçün ilkin şərt kimi çıxış edir.

Vətəndaşlığa dair ikinci geniş yayılmış yanaşmaya (Stiven Kastles, Alastar Devidson, Nikol Stoks-DuPass, Ramona Fruja)[96; 77] görə vətəndaşlıq, şəxsin dövlətə məxsusluğu kimi izah edilir.

Üçüncü elmi istiqamət çərçivəsində alimlər (Odri Osler**,** Hyu Starki, Paulina Tambakaki)[78; 82] vətəndaşlığın əsas xarakteristikası kimi şəxsin müəyyən hüquqi vəziyyətinin mövcudluğunu tanıyırlar.

Dördüncü istiqamət (Mark D.Vitaker, Endi Skerri)[73; 92] "sabit əlaqə" ilə "şəxsin dövlətə məxsusluğu"nu birləşdirir, bu zaman "məxsusluq" meyarına daha çox üstünlük verilir.

Yuxarıda göstərilmiş yanaşmalardan birincisini tədqiq edərkən, qeyd etmək olar ki, burada iki əsas nöqteyi-nəzər mövcuddur. Artıq qeyd etdiyimiz kimi, birinci halda vətəndaşlıq anlayışının müəyyən edilməsi zamanı şəxs və dövlət arasında hüquqi əlaqə öz əksini dövlət tərəfindən müəyyən edilən hüquq və vəzifələrin məcmusunda tapmışdır. Bununla belə, bu hüquq və vəzifələr artıq vətəndaşlığa malik olmanın əsas hüquqi nəticəsi kimi yox, elə vətəndaşlığın özü kimi çıxış edir. Müvafiq olaraq vətəndaşın hüquqi vəziyyəti artıq dövlətlə şəxsin müəyyən hüquqi əlaqəsinin təzahürü kimi yox, həmin əlaqənin özü kimi səciyyələnir.

Beləcə, Rayner Baubok və Yeva Ersboll kimi müəlliflər vətəndaşlığı şəxsin müəyyən bir dövlətlə xüsusi əlaqəsi kimi xarakterizə edir, bu əlaqə şəxsin həmin dövlətə münasibətdə malik olduğu hüquq və vəzifələrin məcmusunda özünü büruzə verir[87, 17]. Robin Mansell qeyd edir ki, vətəndaşlıq şəxs və dövlət arasında formalaşan xüsusi hüquqi əlaqədir, bu əlaqəni şəxsin hüquqi statusunda tapmaq olar[90, 40]. Vətəndaşlıq və hüquqi status arasındakı qırılmaz əlaqə vətəndaşlıq məzmununa malik olan hüquqi statusu şəxsiyyətin və dövlətin arasında hüquqi əlaqə

kimi bəyan etməyə əsas vermir. Hüquqi status daha çox şəxsiyyət və dövlət arasında siyasi-hüquqi əlaqənin nəticəsidir.

Həmçinin bu müəyyənetmədə şəxsiyyətlə onun münasibətlərində dövlətin prioritetinin tanınması müəyyən edilir. İnsan hüquqlarının müasir konsepsiyasında isə şəxsiyyətə hüquqi statusun subyekti kimi baxılır.

Bütün hüquqların, azadlıqların və vəzifələrin məcmusu vətəndaşın hüquqi statusunu təşkil edir. Vətəndaş qeyri-vətəndaşlardan fərqli olaraq bir sıra hüquqlar əldə edir ki, bu da qeyri-vətəndaşlara adətən məxsus olmur. İ.Kant qeyd edir ki, insan "hisslər bəxş edən bir varlıqdır", vətəndaş isə "vətəndaş müstəqilliyi", "səs vermək qabiliyyətinə malikdir [67, 99-101].

Vətəndaşa (ümumi mənada hər bir şəxsə) verilmiş hüquqlarla yanaşı, həmçinin onun üzərinə vəzifələr də qoyulmuş və müəyyən məsuliyyət müəyyən edilmişdir. Vətəndaş kimi dövlət də, hüquq və vəzifələrin geniş spektrinə malikdir: öz vətəndaşlarının hüquqi vəziyyətini müəyyən etmək, onların adından çıxış etmək, bilavasitə vətəndaşlara aid olan ən əhəmiyyətli məsələləri həll etmək, onların hüquq və azadlıqlarına zəmanət vermək, ölkənin daxilində, həm də xaricdə müdafiə və himayə təqdim etmək.

Sözsüz ki, hüquq, azadlıq və vəzifələr hüquqi statusun əsas elementləridir, çünki məhz onlar cəmiyyətin ictimai əlaqələrinin strukturunda fərdin davranışının ən əhəmiyyətli parametrlərini müəyyən edirlər. Onun digər tərkib hissələri haqqında nisbətən müxtəlif fikirlər də mövcuddur. Ümumi şəkildə qeyd edək ki, həmin elementlərə vətəndaşlıqdan başqa, qanuni maraqlar, zəmanətlər və hüquqi məsuliyyət kimi anlayışlar da daxil edilir.

Haqqında danışdığımız birinci yanaşmada ikinci nöqteyi-nəzərə dair qeyd etmək olar ki, dövlətlə şəxsin arasında hüquqi əlaqə qarşılıqlı hüquq və vəzifələrin mövcudluğu kimi təyin edilir. Dövlətin və vətəndaşın qarşılıqlı hüquq və vəzifələrinin məcmusunun mövcudluğu vətəndaşlığın əhəmiyyətli xüsusiyyətidir. Vətəndaşlıqla bağlı münasibətlərin məzmunu ümumbəşəri dəyərlərin prioritetinin tanınmasına əsaslanır, yəni insanların və dövlətlərin qarşılıqlı şəkildə məsuliyyət daşıyan bərabər hüquqlu və bərabər vəzifəli subyektləri kimi tanınmasını bildirir.

Bu halda şəxsə hüquq və vəzifələrin kompleksi verilir, dövlət isə öz üzərinə hüquqi müdafiə göstərmək öhdəliyini götürür. Beləliklə, öz orqanlarının və vəzifəli şəxslərin vasitəsilə dövlət vətəndaşları qarşısında, vətəndaşlar isə öz növbəsində dövlət qarşısında məsuliyyət daşıyırlar. Hüquq elmində bir çox tədqiqatçılar vətəndaşlığı - şəxsin konkret dövlətlə xüsusi hüquqi əlaqəsi kimi müəyyən edirlər, hansı ki, şəxsin dövlətə münasibətdə hüquq və vəzifələrinin məcmusunda və müvafiq olaraq da dövlətin öz vətəndaşları ilə münasibətlərində əks olunur.

Konstitusion hüquq, azadlıq və vəzifələrə malik olmaq üçün vətəndaşlığa yalnız ilkin hüquqi şərt kimi baxmaq kifayət etmir. Vətəndaşlığın məzmunu şəxsin dövlətə münasibətdə və tərsinə, dövlətin şəxsə münasibətdə spesifik hüquq və vəzifələrindən formalaşır. Onlar dövlətin yurisdiksiyasının bu şəxsə şamil edilməsi, şəxsə tam həcmdə hüquq qabiliyyətinin verilməsi, vətəndaşların hüquq və qanuni maraqlarının mühafizəsi ilə əlaqədar meydana çıxır.

Dövlətin əsas vəzifəsi vətəndaşların hüquqlarının təminatından ibarətdir. Belə hüquq və vəzifələri dövlət və vətəndaşın əsas hüquqi münasibətinin elementləri kimi müəyyən etmək olar. Bu münasibət vətəndaşın doğulması ilə yaranır və ölümü və ya vətəndaşlığını itirməsi ilə dayanır. Vətəndaşın ümumi hüquq qabiliyyəti vətəndaşlıq hüquq münasibətinin elementidir, müvafiq olaraq, ümumi hüquq qabiliyyətinin məzmununu təşkil edən bütün subyektiv hüquq və vəzifələr vətəndaşlıq hüquqi münasibətinə daxil olurlar. Artıq qeyd etdiyimiz kimi, vətəndaşlığın məzmununu şəxsin dövlətə münasibətdə və dövlətin şəxsə münasibətdə spesifik hüquq və vəzifələri təşkil edir. Sonuncu halda vətəndaşlığın məzmunu hüquqi münasibətə yaxınlaşır.

Qeyd edilən nöqteyi-nəzərə Cek Demain və Harold Entvisl da tərəfdar çıxır. Onların qənaətincə, vətəndaşlıq hüquq münasibətinin məzmununu yalnız vətəndaşların malik olduğu spesifik hüquq və vəzifələrdə görmək lazımdır[54, 67]. Mahiyyət etibarilə bu yanaşma dövlətdə şəxsiyyətin hüquqi statusu ilə vətəndaşlığın eyniləşdirilməsinə uyğun gəlir.

Vətəndaşlıq anlayışının yuxarıda göstərilən müəyyənetmələrinə müvafiq olaraq, şəxsin və dövlətin arasında hüquqi əlaqə şəxsin dövlətə münasibətdə hüquq və

vəzifələrinin məcmusunda və ya qarşılıqlı hüquq və vəzifələrin mövcudluğunda öz ifadəsini tapmışdır. Eyni zamanda, bu hüquqlar və vəzifələr vətəndaşlığa malik olmanın əsas hüquqi nəticəsi kimi yox, elə vətəndaşlığın özü kimi çıxış edir. Müvafiq olaraq, vətəndaşın hüquqi vəziyyəti artıq dövlətlə şəxsin müəyyən hüquqi əlaqəsinin təzahürü kimi səciyyələnmir, birbaşa bu əlaqənin özünü göstərir. Vətəndaşlıq anlayışının məzmunu burada əsasən şəxsiyyətin subyektiv hüquqlarına uyğun gəlir.

Dövlətlə şəxsiyyətin hüquqi əlaqəsi kimi vətəndaşlığın xarakteristikası yalnız qarşılıqlı hüquqların və vəzifələrin yaranması üçün ilkin şərt kimi xidmət edir. Dövlətlə şəxsin bu əlaqəsi həmçinin münasibətlərin subyektlərinin arasında hüquq bərabərliyi ilə səciyyələnir. Bəzən elmi ədəbiyyatların təhlili zamanı belə bir fikrə də rast gəlinir ki, vətəndaşlığın mahiyyəti ondan ibarətdir ki, şəxs və dövlət elə bir spesifik əlaqədədirlər ki, bu zaman şəxs tam ölçüdə dövlətin yurisdiksiyası altında olur. Dövlətlə şəxsin hüquqi əlaqəsi kimi xarakterizə edilən vətəndaşlıq sırf obyektiv xarakter daşıyır, hərçənd vətəndaşın hüquqi statusunun qurulması üçün ilkin şərt rolunu da oynayır.

Bu onunla bağlıdır ki, ölkənin qanunvericiliyində təsbit edilmiş qarşılıqlı hüquqların və vəzifələrin həcmi tam ölçüdə yalnız vətəndaşlıq olduğu halda realizə oluna bilər. Vətəndaşlığa malik olma, qanunla tanınan bütün hüquqların və azadlıqların bu şəxsə tam şəkildə aid edilməsinin ilkin şərti kimi çıxış edir. Dövlət vətəndaşının müdafiəsini yalnız ölkənin daxilində deyil, həm də onun hüdudları xaricində həyata keçirir. Vətəndaşlıq insanın hüquqi statusunun ən əhəmiyyətli və vacib komponentidir, onun mövcudluğu və ya yoxluğu insan hüquq və azadlıqlarının, o cümlədən vəzifələrinin məcmusuna ciddi şəkildə təsir edir.

Bundan başqa, dövlət tərəfindən təyin edilmiş hüquq və azadlıqların həcminin realizəsi, vəzifələrin icrasının ilkin şərti olaraq, vətəndaşlıq, eyni zamanda ən əhəmiyyətli insan hüquqlarından birinin obyekti kimi çıxış edir. Bu xüsusiyyətinə görə, vətəndaşlq əhəmiyyətli və vacib insan hüququ kimi də müəyyən edilir.

Ancaq vətəndaşlıq hüququnu şəxsin mütləq hüququ kimi tanımaq lazım deyildir. Şəxsin, dövlətin qanunvericiliyində təsbit edilmiş hüquqların və vəzifələrin bütün kompleksi ilə təmin edilməsi bu dövlətin suverenliyinin müvafiq fərdə

yayılması nəticəsində mümkün olur. Şəxsin vətəndaş kimi tanınması avtomatik olaraq dövlətin qanunlarının tam ölçüdə ona şamil edilməsini bildirir. Hüquq ədəbiyyatlarında vətəndaşlığın və dövlət suverenliyinin arasında qırılmaz əlaqə haqqında bir çox hüquqşünaslar geniş tədqiqatlar aparmışlar. Vətəndaşlığın əldə edilməsi və ya dayandırılması şərtləri, vətəndaşlıq əldə etmək istəyən şəxsin uyğun gəlməli olduğu meyarları dövlət müstəqil şəkildə müəyyən edir. Bu səlahiyyət dövlət suverenliyinin ayrılmaz atributlarından biridir və hər bir dövlətin müstəsna hüququdur.

Sözsüz razılaşmaq olar ki, məhz suveren dövlət, kimin onun vətəndaşı olmasını qanuni şəkildə müəyyən etməyə səlahiyyətlidir, bununla da dövlət şəxsləri hüququn tamhüquqlu subyekti kimi tanıyaraq, insanın və vətəndaşın malik olduğu bütün konstitusion hüquqları ilə təchiz edir. Əlbəttə ki, burada mühüm beynəlxalq standartlar hökmən nəzərə alınmalıdır.

Vətəndaşlıq anlayışının izahına dair bir sıra müəyyənetmələrdə əhəmiyyətli məqam ondan ibarətdir ki, vətəndaşlıq nə hüquq, nə də hüquqların məcmusu deyil və yalnız hüquq normalarının şəxsə tətbiq olunmasına imkan yaradan ilkin şərt kimi çıxış edir. Bundan başqa, şəxsiyyətin hüquqi statusunu təhlil edərkən onun müəyyən bir dövlətin vətəndaşı kimi tanınması üzrə hüquqi faktın meydana çıxması nəticəsində müəyyən edilməsinə diqqət yetirilməsi metodoloji baxımdan düzgündür. Buna qədər şəxsiyyət və dövlət arasında ümumi qeyri-müəyyən, siyasi-hüquqi əlaqə mövcuddur. Bu əlaqənin məzmunu, bir tərəfdən, şəxsiyyətin dövlətə münasibəti, digər tərəfdən də dövlətin şəxsiyyətə münasibəti kimi çıxış edir.

Artıq qeyd etdiyimiz kimi, vətəndaşlığa dair ikinci geniş yayılmış yanaşma nöqteyi-nəzərindən vətəndaşlıq, şəxsin dövlətə məxsusluğu kimi izah edilir. “Məxsusluq” anlayışı ilə bağlı elmi ədəbiyyatlarda fərqli fikirlər mövcuddur. Y.R.Boyars yazır ki, şəxs, bu və ya digər sosial, etnik, tarixi qrupa (xalqa, millətə) mənsub və ya aid olması “məxsusluq” anlayışına daha yaxındır. Eyni zamanda, müəllif hesab edir ki, müasir mərhələdə şəxsin dövlətə məxsusluğunu iddia etmək düzgün deyildir[23, 19].

Vətəndaşlıq baxımından “məxsusluq” şəxsin dövlətə mənsubluğu vasitəsilə vətəndaşların tərkibinə daxil olması deməkdir. Bəzən elmi ədəbiyyatlarda belə bir yanaşmaya da rast gəlmək mümkündür – məxsusluq daha çox əşyaya bağlı anlayışdır. Lakin, hesab edirik ki, bu düzgün yanaşma deyildir, çünki şəxsin dövlətə məxsusluğu ifadəsində heç bir yanlışlıq və ya neqativ nəticə doğuracaq bir şey yoxdur.

Bir vacib məqamı da qeyd edək ki, şəxsin dövlətə məxsusluğu və şəxsin dövlətlə hüquqi əlaqəsinin xdüsusiyyətləri arasında fərqi izah etmək asan deyil, çünki hər iki halda dövlətlə şəxs arasında hüquqi xarakter daşıyan münasibətlər nəzərdə tutulur. Bu halda vətəndaşlığı iki şəkildə təfsir etmək olar: şəxsin dövlətdə üzvlüyü və tabelik vəziyyəti və ya müəyyən dövlətin yurisdiksiyasının altında şəxsin mövcudluğu. Bəzi hallarda vətəndaşlıq “hüquqi məxsusluq”, “qanunla təsbit edilən məxsusluq” kimi müəyyən edilir.

Bu zaman hüquqi əlaqə və məxsusluq fərqli spesifik məna kəsb edir, lakin məntiqi baxımdan bir-birlərini tamamlayırlar. Hüquqi əlaqə haqqında danışarkən, biz fərdin və dövlətin arasında münasibəti nəzərdə tuturuq, hansı ki, qarşılıqlı hüquq və vəzifələrdə ifadə edilmişdir. Şəxsin dövlətə məxsusluğundan söhbət gedərkən, vətəndaşın dövlətə tabe olması güman edilir. Bizim fikrimizcə, vətəndaşlıq - dövlətlə fərdin arasında möhkəm hüquqi əlaqədir, onun daxili elementini hüquqi əlaqə, xarici elementini isə məxsusluq təşkil edir.

Spesifik hüquqi əlaqə anlayışı daha müəyyəndir, amma, digər tərəfdən, ən müxtəlif xarakterli hüquqi əlaqələr də mövcuddur, hansılardan ki, hər biri öz xüsusiyyətlərinə malikdir. Dövlətə məxsusluq anlayışı məhz bu hüquqi əlaqənin, yəni vətəndaşlığın spesifikasını göstərir. Hər iki anlayış qarşılıqlı əvəz ediləndir, öz üstünlükləri və çatışmazlıqlarına malikdir.

Dövlət həm öz vətəndaşları, həm də onun ərazisində yaşayan başqa kateqoriya şəxslərlə qarşılıqlı hüquq və vəzifələr daşımaqla hüquqi əlaqədə olur. Bəzi tədqiqatçılar sırf vətəndaşlara aid olan ayrıca hüquq və vəzifələrin fərqləndirilməsini təklif edirlər. Belə hüquqlara diplomatik müdafiə, silahlı qüvvələrə cəlb edilmə və s. aid etmək olar. Bizim fikrimizcə, vətəndaşlıq probleminə belə yanaşma düzgün deyil,

çünki, nəzərə almaq lazımdır ki, müasir dövrdə dövlətlərin əksəriyyətində vətəndaşları dövlətin ərazisində yaşayan başqa şəxslərdən ayıran hüquq və vəzifələrin azaldılması tendensiyası müşahidə olunur.

Beləliklə, iddia etmək olar ki, bu gün vətəndaşlığın anlayışına dair ədəbiyyatlarda istifadə edilən heç bir yanaşma dövlətin ərazisində yaşayan bütün başqa şəxslərdən vətəndaşları fərqləndirməyə icazə verən əlamətləri özündə əks etdirmir. Hesab edirik ki, məxsusluq əlamətinin ümumiliyini nəzərə alaraq, onu əsas kimi qəbul etmək məqsədəuyğun olardı.

Lakin burada bir vacib məqama toxunmaq lazımdır ki, əcnəbini vətəndaşdan fərqləndirən müxtəlif hüquq və vəzifələrin mövcudluğu yox, onların dövlətlə əlaqəsinin xarakteridir, yəni qeyri-vətəndaşlarla dövlətin əlaqəsi adətən müvəqqəti xarakter daşıyır. Əcnəbilərlə dövlətin əlaqəsində sabitlik, qırılmazlıq meyarları olmur. Əcnəbilərlə dövlətin əlaqəsi əsasən ərazi məhdudiyyəti ilə əhatələnir, yəni həmin şəxslər dövlətin ərazisini tərk edən kimi tərəflər arasındakı münasibətlər də bitir. Lakin vətəndaşlıqda belə deyil. Məsələn, AR vətəndaşı ilə AR arasında hüquqi əlaqə universal xarakter daşıyır və həmin vətəndaşın AR sərhədlərini tərk edib-etməməsi bu əlaqəyə təsir göstərmir.

Vətəndaşlıq hüququnun mahiyyəti ilə bağlı məsələləri tədqiq edərkən nəzərə almaq lazımdır ki, vətəndaşlıq milli, psixoloji, sosial və digər xüsusiyyətlərə malikdir. Psixoloji xüsusiyyət dedikdə, şəxsin psixoloji cəhətdən bağlı olduğu, yəni doğulduğu, dil və mədəniyyət baxımından eyni olduğu dövlətə məxsusluğu nəzərdə tutulur[80, 21-25]. Bu baxımdan vətəndaşlığın subyektiv hüquq kimi anlamı daha əsaslı görünür, bu zaman qanunla müəyyən olunmuş qaydada şəxsin konkret dövlətə məxsusluğu tanınır. Belə olduqda şəxsin dövlətə bağlılığı rəsmiləşir və şəxs dövlətdən bu və ya digər hüquqlarının təminatını tələb etmək imkanına malik olur. Belə yanaşmanın nəticəsi “hər bir insanın vətəndaşlıq hüququ” prinsipinin meydana çıxmasına səbəb olmuşdur.

Beləliklə, vətəndaşlığı şəxsin dövlətə məxsusluğu kimi qəbul etmək lazımdır, belə məxsusluq sabit hüquqi əlaqədə özünü göstərir və şəxs dövlətin konstitusiya və qanunlarında təsbit olunan hüquqlar əldə edir, azadlıqlardan istifadə edir, vəzifələr

icra edir, həmçinin dövlət daxilində və onun hüdudlarından kənarda müdafiə ilə təmin olunur. Şəxs və dövlətin arasındakı belə əlaqə üçün ilk növbədə dövlətə məxsusluq olmalıdır, bu tip məxsusluğun nəticəsi isə vətəndaşlıqdır.

Vətəndaşlıq anlayışının mahiyyətinə dair üçüncü geniş yayılmış yanaşmaya görə vətəndaşlıq dövlət və şəxs arasında siyasi-hüquqi vəziyyət kimi xarakterizə olunur. Vətəndaşlıq insanın dövlətlə ümumi, fasiləsiz və sabit əlaqəsini təcəssüm etdirən xüsusi siyasi-hüquqi vəziyyətidir, bu zaman şəxs qanunla müəyyən edilmiş hüquq və azadlıqlardan istifadə edir, eyni zamanda vəzifələr də daşıyır. Hüquq ədəbiyyatlarında bir çox müəlliflər (məsələn, E.A.Lukaşeva) vətəndaşlığı şəxsin siyasi-hüquqi vəziyyəti kimi müəyyən edir.

Ümumiyyətlə, şəxsiyyətin mülki vəziyyəti iki nöqteyi-nəzərdən şərh olunur: dövlət-hüquqi institut qismində, yəni mülki vəziyyətin yaranması, mövcudluğu və dayandırılması ilə bağlı dövlət-hüquqi normaların məcmusu kimi; şəxsiyyətin və dövlətin arasında mövcud siyasi-hüquqi əlaqə kimi. Bu vəziyyət hüquqi statusun əldə edilməsinin ilkin şərti kimi qiymətləndirilir. Ümumnəzəri planda ikinci yanaşma böyük maraq doğurur.

Vətəndaşlıq, eyni zamanda, fiziki şəxsin dövlətlə ikitərəfli əlaqəsidir. Hər bir tərəf, onu əlaqənin subyekti edən müvafiq xüsusiyyətlərə malikdir. İnsanda bu xüsusiyyət hüquq qabiliyyəti qismində özünü büruzə verir. Dövlətdə isə bu səlahiyyət adlanır. Əgər hüquq qabiliyyəti hüquq və vəzifələrlə bağlı mütləq imkandırsa, dövlətin səlahiyyəti konkretdir, konstitusiya və qanunlarda öz təsbitini tapır. Onu da qeyd edək ki, şəxsin hüquq qabiliyyətinin itirilməsi vətəndaşlığın itirilməsi demək deyildir. Hüquq qabiliyyəti olmayan vətəndaşı dövlət müdafiə edir, hüquqlarına zəmanət verir, məhkəmədə qanuni nümayəndə ilə təmin edir və s.

Ümumiyyətlə, vətəndaşlığın mövcudluğu vətəndaşın hüquqi status əldə etməsinin vacib şərtidir. Bununla belə, konkret hüquq münasibətlərində hüquq və vəzifələrin realizəsi vətəndaş tərəfindən hüquq qabiliyyətinin olması şəraitində mümkündür. Bütün bunlar vətəndaşlıq, hüquq qabiliyyəti, hüquq və vəzifələrin sıx əlaqəsindən xəbər verir. Belə qarşılıqlı əlaqədə vətəndaşlıq vətəndaşın hüquqi statusunun ilkin şərti rolunda çıxış edir. Göstərilənlər belə bir elmi müddəanı qeyd

etməyə imkan verir ki, vətəndaşlıq hüquq münasibətlərinin ümumi kompleksindən ayrılmalı və subyektlərin qarşılıqlı təsirinin xüsusi bir növündə, hüquqi əlaqədə qeyd edilməlidir.

Vətəndaşlıq anlayışı ilə bağlı dördüncü yanaşma "sabit əlaqə" kateqoriyası ilə bağlıdır. Şəxsin dövlətlə sabit hüquqi əlaqəsi vətəndaşlığın vacib hüquqi əlaməti, meyarıdır. Vətəndaşlığın sabitliyi zaman və məkanda özünü göstərir. Məkanda sabitlik dedikdə, şəxsin vətəndaşı olduğu dövlətin ərazisi sərhədlərində olub-olmamasından asılı olmayaraq öz vətəndaşlığını qoruyub-saxlaması nəzərdə tutulur. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" 30 sentyabr 1980-ci il tarixli AR Qanununda qeyd edilir ki, AR vətəndaşının xarici dövlətin ərazisində yaşaması AR vətəndaşlığının xitamına səbəb olmur (md. 8)[109].

Bununla belə, şəxsin ölkə sərhədlərindən kənarda olması onun vətəndaş kimi müəyyən hüquqlarının realizəsini qeyri-mümkün edir (ikili vətəndaşlıq, siyasi sığınacaq və qaçqın statusunun verilməsi zamanı), lakin bu həmin hüquqların ləğv edilməsi demək deyildir. Başqa sözlə desək, hüquq və vəzifələrin faktiki olmaması, onların hüquqi qüvvəsini dayandırmır. Göründüyü kimi, sabitlik faktiki yox, hüquqi xarakterə malikdir.

Ona hüquq və vəzifələrinin həcmi, bu və ya digər dövlətdə vətəndaşların faktiki bərabərsizliyi təsir etmir. Bəzi dövlətlərdə qadınların səsvermə hüquqlarının məhdudluğu (Bruney, Livan, BƏƏ, Səudiyyə Ərəbistanı)[132] onların hüquqlarının həcmini daraldır, amma onların vətəndaşlığına təsir etmir. Əgər hər hansı dövlət öz vətəndaşlarına səsvermə hüququ verirsə, onda bu hüquqlar, şübhəsiz, hüquqi cəhətdən sabitdir, çünki bu dövlətin vətəndaşlarının xarici ölkələrə getməsi vaxtı qalırlar, həmçinin şəxsin vətəndaşlıqda qaldığı bütün müddət ərzində qüvvədə olur. Amma bir çox vətəndaşlar onlara verilmiş hüquqları həyata keçirmək vəziyyətində olmaya bilərlər. Rəsmi şəkildə bu vətəndaşlar göstərilən hüquqlara malikdir. Bu o deməkdir ki, hüququn realizəsi imkanı sabit hüquqi əlaqə ilə bağlı deyildir.

Beləliklə, hüquq sisteminin tərkib hissəsi kimi vətəndaşlıq, hüquq institutu şəklində, yəni bir sahənin və ya oxşar münasibətlərinin müəyyən qrupunu nizama salan qarşılıqlı əlaqəli hüquq normalarının məcmusu kimi mövcuddur. Vətəndaşlıq,

hüquq institutu kimi konstitusiya hüququ, beynəlxalq hüquq və insan hüquqları sahəsinə aiddir və onun normaları vətəndaşlıq institutunun məzmununu təşkil edir. Buna əsaslanaraq nəticə çıxarmaq olar ki, vətəndaşlıq institutu konstitusiya hüququ, beynəlxalq hüquq və insan hüquqları institutu olsa da, elmdə fənlərarası institutdur və dövlət və hüquq nəzəriyyəsinin, konstitusiya hüququnun, beynəlxalq ümumi hüququn, beynəlxalq xüsusi hüququn, insan hüquqlarının, inzibati hüququn tədqiqat predmetinə daxildir.

Vətəndaşlıq institutu mürəkkəb daxili struktura malikdir. Vətəndaşlıq institutunun normaları bütövlükdə vətəndaşlıq institutu ilə bağlı subinstitut yaradaraq müxtəlif qruplarda birləşirlər. Belə subinstitutlara, məsələn, vətəndaşlığın əldə edilməsi, dayandırılması, uşaqların və valideynlərin vətəndaşlığı, federasiya subyektlərinin vətəndaşlığı, ikili vətəndaşlıq və s. aid etmək olar.

Öz təbiətinə görə vətəndaşlıq dövlət suverenliyi, ərazi quruluşu, şəxsiyyətin hüquqi statusu ilə bilavasitə bağlıdır, çünki vətəndaşların hüquq və vəzifələrə malik olması üçün ilkin şərt kimi çıxış edir.

Ancaq unutmaq lazım deyildir ki, vətəndaşlıq yalnız şəxsiyyətin hüquqi vəziyyətinin tərkib hissəsi şəklində mövcud deyildir, həm də müstəqil dövlət-hüquqi hadisə kimi mövcuddur, bu isə vətəndaşlıq institutunu hüquq sistemində müstəqil hesab etməyə əsas verir.

Beləliklə, vətəndaşlıq institutu hüququn müstəqil sahələrarası kompleks institutunu təşkil edir. Eyni zamanda, vətəndaşlıq fiziki şəxslə dövlət arasında vətəndaşın hüquqi statusunun müəyyən edilməsi üçün ilkin şərt kimi çıxış edən sabit siyasi-hüquqi əlaqəni müəyyən edir. Nəhayət, qeyd etmək lazımdır ki, vətəndaşlıq sferasında münasibətlərin müəyyən və ən zəruri hissəsi beynəlxalq hüquq normaları ilə tənzimlənir. Bu vəziyyət vətəndaşlığın beynəlxalq hüquqi institut kimi də mövcudluğu haqqında tam əsaslı fikir söyləməyə əsas verir. Dövlətdaxili və beynəlxalq hüquqi əsaslar isə vətəndaşlıq hüququnun məzmununda bir-birilə sıx və qarşılıqlı şəkildə əlaqədədir.

1.2. Vətəndaşlıq hüququnun müəyyən edilməsinə dair nəzəri-hüquqi yanaşmalar

Ən sadə mənada "vətəndaşlıq" termini müəyyən bir dövlətin üzvü olan insanın hüquqi statusunun təyini üçün istifadə olunur. Bəzən "milliyət" (nationality) anlayışı ilə eyniləşdirilən vətəndaşlıq qanunla nəzərdə tutulmuş ayrıca hüquqları və vəzifələri müəyyən edir, məsələn, səs vermək hüququ, vergilər ödəmək vəzifəsi və s. Ümumi anlamda "vətəndaşlıq" termini həyatda və cəmiyyətin işlərində iştirakla bağlı vətəndaşın davranış və hərəkətlərinə tətbiq edilir. Bəzən "aktiv vətəndaşlıq" terminindən də istifadə edilir. Bu mənada vətəndaşlıq fəaliyyətin geniş diapazonuna aiddir və seçkilərdə səsvermədən siyasi və cari hadisələrə marağın təzahürünə qədər olan məsələləri əhatə edə bilər[84, 1-18]. Bu, yalnız qanunla müəyyən edilmiş hüquqlara və vəzifələrə yox, həm də sosial və mənəvi xarakterli davranışın ümumi normalarına da aid edilir.

Nəhayət, "vətəndaşlıq" termini tərbiyəvi və maarifləndirici tədbirlərlə bağlı istifadə olunur, yəni burada aktiv, məlumatlandırılmış və məsuliyyətli vətəndaş olmağın müəyyən edilməsi prosesindən söhbət gedir. Dünyada insanların əksəriyyəti bu və ya digər dövlətin qanuni vətəndaşıdır, bununla da müəyyən imtiyazlarla və ya hüquqlarla təmin edilmişlər. Vətəndaşlıq faktı həmçinin müəyyən vəzifələrin icrasını da müəyyən edir, yəni dövlət onun yurisdiksiyasının altında olan şəxslərdən bu və ya digər vəzifələrin icrasını gözləyir. Beləliklə, vətəndaşlar öz dövləti qarşısında müəyyən öhdəlikləri icra edirlər və əvəzində öz həyati maraqlarının müdafiəsinə təminat yaradırlar və bir növ belə müdafiəyə bel bağlayırlar.

Mədəni-tarixi inkişafın müxtəlif mərhələlərində "vətəndaşlıq" anlayışı insanların şüurunun səviyyəsindən və dərk etmənin dərəcəsindən, cəmiyyətlə və ya dövlətlə bağlı hüquqlar və vəzifələr əldə edilməsindən asılı olaraq müxtəlif dəyişikliklərə məruz qalmışdır. Vətəndaşlıq probleminin nəzəri aspektlərinin analizi üzrə elmi araşdırmalar onu deməyə əsas verir ki, vətəndaşlıq hüququ haqqında ətraflı, obyektiv bir fikir formalaşdırmaq üçün ilk növbədə bu anlayış ətrafındakı fikir müxtəlifliklər, konseptual yanaşmalar təhlil edilməlidir.

Ancaq bu məsələnin öyrənilməsində aydın ifadə edilmiş standartların yoxluğu müəyyən kolliziyalara gətirib çıxarır, nəticədə "vətəndaşlıq" termininin izahına dair vahid, mübahisəsiz qaydalar və ictimai həyatda onun təzahürlərinin izahının axtarışı zərurəti meydana çıxır. Praktik institut kimi vətəndaşlığa, onun əldə edilməsi, itirilməsi və bu prosesdə meydana çıxan digər məsələlərin məcmusundan ibarət anlayış kimi yanaşılması daha məqsədəuyğun hesab edilir. Başqa sözlə desək, vətəndaşlığa, yalnız onun əldə edilməsi və ya vətəndaşın hüquq və vəzifələrinin nizamlanması istiqamətindən baxmaq düzgün deyildir. Bununla əlaqədar olaraq, müasir dövrdə, qloballaşma şəraitində vətəndaşlıq anlayışının məzmun və mahiyyətindəki dəyişikliklər də nəzərə alınmaqla, xüsusilə də elmi ədəbiyyatlarda bu istiqamətdə mövcud fikir və yanaşmaları təhlil etməklə bu terminə anlayış verilməsi daha düzgün olar.

Klassik hüquqi yanaşmalarda, doktrinalarda vətəndaşlığa şəxsin dövlətdən müəyyən xidmətlər müqabilində müdafiə mexanizmi əldə etməsi kimi baxılırdısa, artıq XX əsrin ikinci yarısından hüquq elmində, müxtəlif konsepsiyalarda vətəndaşlığa dövlətin özbaşınalığından qorunma mexanizmi kimi də qiymət verilməyə başlanmışdı.

Vətəndaşlığın müasir anlamı və təzahürünün növbəti aspektlərini belə fərqləndirmək olar: xarici, funksional nöqteyi-nəzərdən vətəndaşlıq və məxsusluq nöqteyi-nəzərindən vətəndaşlıq. Birinci aspektə görə, müəyyən hüquq, azadlıq və vəzifələrə malik olan cəmiyyətin üzvü, xüsusilə də, birbaşa və dolayı yolla dövlətdəki siyasətə təsir göstərə bilən şəxs vətəndaş hesab olunur. İkinci aspekt isə həmin siyasi hüquqlara kimin malik olmasını müəyyənləşdirir.

Bütövlükdə, hazırkı şərait məxsusluq aspekti nöqteyi-nəzərindən vətəndaşlıq anlayışının genişləndirilməsini diktə edir.

Antik fəlsəfəsinin dahilərindən olan Aristotelə görə, təcrübədə vətəndaş o şəxs hesab edilir ki, valideynləri, həm ata, həm də anası vətəndaş olsun, yəni valideynlərindən biri yox, hər ikisi vətəndaş olan şəxs vətəndaş hesab olunur[89, 362]. Hətta bəzi müəlliflərin yanaşmasına görə vətəndaşın ikinci, üçüncü və daha uzaq əcdadları da vətəndaş olmalıdır ki, bu şəxs vətəndaş kimi qəbul edilsin.

Vətəndaşın mahiyyətinin belə anlamı praktik olaraq istənilən müasir dövlətin əhalisinin çox hissəsinin xüsusiyyətlərini nəzərə almır, çünki qlobal miqrasiya prosesləri ilə əlaqədar nadir hallarda eyni ölkədə bir neçə nəsil ailələr ardıcıl olaraq qalır və ya yaşayış yerini dəyişmir. Bundan əlavə, belə dar yanaşmada vətəndaş hüquqlarına malik ola bilən əhalinin də sayı çox az olur, xüsusilə Qərbi Avropa ölkələrində belə vəziyyətə rast gəlinir. Beləliklə, vətəndaşlıq neqativ mənada təfsir olunur, bir növ cəmiyyəti təbəqələrə, qruplara ayıran prinsip kimi çıxış edir.

Monarxiya quruluşlu ölkələrdə uzun müddət dövlətlə şəxsin əlaqəsi təbəəlik şəklində ifadə edilirdi, yəni bütövlükdə dövlətə yox, bilavasitə hökmdara tabelik nəzərdə tutulurdu. Hal-hazırda monarxiya ölkələrinin əksəriyyətində belə konsepsiyadan imtina edilmişdir və təbəəlik institutu vətəndaşlıq institutu ilə əvəz edilmişdir.

Avropada vətəndaşlıq dedikdə, əsasən ayrıca şəxsin və dövlətin arasında hüquqi əlaqə nəzərdə tutulur və bu zaman həmin şəxsin etnik mənşəyinin göstərişi zəruri deyildir. Avropa Şurası çərçivəsində vətəndaşlığa aid məsələlərə artıq 50 ildən çoxdur ki diqqət yetirilir. Mərkəzi və Şərqi Avropa ölkələrinin əksəriyyətində "citizenship" terminindən istifadə olunur ki, bu da 1997-ci il tarixli Vətəndaşlıq haqqında Avropa Şurasının Konvensiyasında və Qərbi Avropa ölkələrinin əksəriyyətində istifadə edilən "nationality" termini ilə eyni mənaya malikdir. Vətəndaşlıq konsepsiyasına Nottebom işi üzrə BMT Beynəlxalq Məhkəməsi tərəfindən də baxılmışdı. Məhkəmə, vətəndaşlığı belə müəyyən etmişdi: "vətəndaşlıq", şəxslə dövlətin bağlılığının yeni sosial faktının əsasında duran hüquqi əlaqədir, bu əlaqədə qarşılıqlı hüquq və vəzifələr, maraqlar, mövcudluq şərtləri realizə olunur [46, 267].

Ümumiyyətlə, vətəndaşlıq anlayışı dövlətin perspektivli inkişafı üçün sistemyaradıcı, əsaslı əhəmiyyətə malikdir, vətəndaş cəmiyyətinin inkişafı və rolunun artırılmasında, dövlətin siyasi-hüquqi sisteminin təkmilləşməsində mühüm əhəmiyyət kəsb edir. Vətəndaşlıq institutunun nizama salınması ən yüksək hüquqi səviyyədə həm beynəlxalq konvensiya və sazişlərdə, həmçinin dünya ölkələrinin Konstitusiyasında təsbit edilmişdir və dövlətlər üçün bu sferanın təkmilləşdirməsi

haqqında məsələ xüsusi önəm kəsb edir. Konstitusion-hüquqi institut olan vətəndaşlığın təkmilləşdirilməsi dövlət quruculuğunun daim aktuallaşan və öz əhəmiyyətinə görə fundamental problemidir.

Hüquq elmində vətəndaşlığın əldə edilməsi və xitamı ilə bağlı məsələ kompleks, çoxaspektli hüquqi hadisə kimi vətəndaşlıq anlayışının nəzəri əsaslandırılması prizmasından müəyyən edilir.

Beynəlxalq hüquqda vətəndaşlıq məsələləri ilə bağlı tədqiqat aparan əksər alimlərin (Paul Veis, Alfred M.Boll, Rut Donner və s.) fikrincə, "vətəndaşlıq", bu və ya digər şəxsin ölkənin hüquqi və siyasi sisteminin bütün elementləri ilə müəyyən edilməsinə imkan verən şəxsi əlaqəsidir [103].

Klassik oriyentasiyalı doktrinaya görə, dövlətin varlığı üçün üç komponent lazımdır: ərazi, əhali və hökumət [107, 171], vətəndaşlıq isə milli kimliyi müəyyənləşdirmək məsələsidir, bu zaman millət milli dövlətin əsasını quran insanların məcmusunu özündə ehtiva edir. Bütövlükdə, vətəndaşlıq məsələsi dövlətlərin ayrılmaz bir atributudur və beynəlxalq hüquqdan çox bu məsələdə milli hüquq daha əhəmiyyətli normalara malikdir.

Vətəndaşlıq bir şəxs və müəyyən bir dövlət arasında vətəndaşın və müvafiq dövlətin hüquq və vəzifələrini şərtləndirən daimi və təsirli siyasi və hüquqi münasibətlər kimi müəyyən edilə bilər. Bu münasibətlər bir insanın müəyyən bir dövlətə aid olması deməkdir.

T.N.Marşall vətəndaşlığın üç elementini müəyyənləşdirir: mülki, siyasi və sosial. Birinci element, müəllifin fikrincə, fərdi azadlıq üçün zəruri olan hüquqlara aiddir. Siyasət elementi insana siyasi hakimiyyətin verildiyi bir orqanın üzvü və ya seçici olaraq siyasi hakimiyyətin həyata keçirilməsində iştirak etmək hüququ verir. Üçüncü element yaşayış səviyyəsi, təhsil hüququ, sağlamlıq hüququ kimi məsələləri əhatə edir [74, 148].

Ümumiyyətlə, vətəndaşlıqla bağlı məsələlərin həllində dövlətin roluna üstünlük verilməlidir. Belə ki, vətəndaşlıq hər hansı bir şəxsin dövlətə məxsusluğudur. Belə məxsusluq bu dövlətin vətəndaşlarının vəziyyətini nizama salan bütün qanunların bu şəxsə tətbiq edilməsinə səbəb olur. Dövlət hakimiyyəti yalnız o zaman əcnəbilərə şamil edilir ki, nə vaxt ki, onlar həmin dövlətin ərazisində yaşayırlar. Vətəndaşlar

barəsində hakimiyyət, onlar xaricdə olduqda da tətbiq edilir. Xaricdə olan vətəndaşlar öz dövlətinin diplomatik müdafiəsindən istifadə edirlər.

Vətəndaşlıq fiziki şəxsin müəyyən bir dövlətə hüquqi məxsusluğunu təşkil edir. Bu məxsusluq həm dövlətin ərazisində, həm də onun hüdudları xaricində olan vətəndaşlarına şamil edilir.

Hüquq ədəbiyyatında vətəndaşlığın təyininə dair başqa yanaşmalar da məlumdur. Belə ki, bəzi alimlərin (D.L.Zlatopolskiy) fikrincə, vətəndaşlıq, fərdin hüquqi vəziyyətini həm dövlət daxilində, həm də xaricində müəyyən edən dövlətlə sabit hüquqi əlaqəsidir [30, 245].

Dövlətlə fərdin sabit hüquqi əlaqəsi kimi vətəndaşlıq müəyyən əlamətlərə malikdir. Vətəndaşlığın sabitliyi məkan və zamanda görünür. Məkan meyarında vətəndaşlıq özünü belə büruzə verir ki, vətəndaşlıq, ona malik olan şəxsin ölkə sərhədlərini aşması zamanı da öz qüvvəsini saxlayır. Həmin vətəndaşın bir sıra hüquq və vəzifələri, xaricdə olduğu müddətdə öz qüvvəsini müvəqqəti olaraq dayandırır, amma şəxs onları itirmir, onlar əvvəlki kimi bu vətəndaşlığın məzmununu təşkil edən hüquqların və vəzifələrin kompleksinə daxil olmağa davam edirlər. Həmin hüquq və vəzifələrin bəziləri isə şəxs xaricdə olsa belə öz qüvvəsini dayandırmır. Həmin hüquq və vəzifələrin realizəsi qəbul edən dövlətin suverenliyinə xələl gətirmir. Bəzi hüquqlar və vəzifələr isə vətəndaşın yalnız xaricdə olduğu zamanı qüvvədə olur. Başqa sözlə, "məkanda" vətəndaşlığın sabitliyi şəxsin xaricdə olduğu müddətdə vətəndaşı olduğu dövlətin yurisdiksiyasına tabe olmaqda davam etməsi ilə şərtlənir.

Zaman meyarında vətəndaşlığın sabitliyi onun fasiləsizliyində görünür. Vətəndaşlığın fasiləsizliyi, konkret dövlətin qanunvericiliyi ilə müəyyən edilmiş şərtlərə müvafiq olaraq onun əldə edilməsi anından onun itirilməsinə (yenə də müvafiq dövlətin qanunvericiliyinə əsasən) qədər vətəndaşlığın saxlanılmasını bildirir. Vətəndaşlığın fasiləsizliyi onu göstərir ki, o davam edən hüquqi vəziyyətdir. Vətəndaşlıq vaxtaşırı yox ola və sonra yenidən başlana bilmir.

Hal-hazırda inkişaf etmiş ölkələrin əksəriyyətində cəmiyyətin demokratik əsaslarının inkişafına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi üstünlük təşkil edir, çünki hesab edilir ki, idealda məhz demokratik üsul-idarəsi şəxsiyyətin daha tam

şəkildə özünü realizə etməsinə, özünü təsdiqləməsinə imkan yaradır, həmçinin vətəndaşlığın əsas prinsipləri kimi vətəndaş və ya ümumbəşəri hüquq və azadlıqların ən effektiv realizəsi vasitəsi kimi məhz vətəndaş cəmiyyətinin formalaşdırılması düzgün yol hesab olunur.

Faktiki olaraq, əgər demokratiyanın varlığının mahiyyətinə baxsaq, ilk baxışda orada iki, əks aspekti görmək olar: şəxsi maraqların və vətəndaş hüquqlarının təmin olunmasına istiqamət (xüsusi hüquq); ümumi maraqların həllinə cəhdlər, birgə qərarların qəbul olunması (ümumi hüquq).

Monarxiya və ya totalitar siyasi sistemli ölkələrdə şəxsləşmiş hüquq üstün mövqedə dayanır, başqa sözlə desək, bir şəxsin və ya qrupun iradəsi yerdə qalan üstünlük üzərində ağalıq edir, təbəəlik anlayışı da belədir, nəticədə vətəndaş bərabərliyi də gözlənilmir. Demokratiya quruluşu bu prosesləri belə izah edir ki, sosial mühitin inkişafının müəyyən anında vətəndaşların şəxsi hüquqlarının müdafiə və realizəsi mütləq qaydada onların məhdudlaşdırılması zərurətini doğurur. Həqiqətən, məşhur ifadə olan "mənim azadlığım orada qurtarır ki, harada başqasının azadlığı başlanır", bildirir ki, cəmiyyət üzvlərindən hər birinin azadlığı əvvəlcədən məhdudlaşdırıla bilər.

Hər hansı əhəmiyyətli məsələləri həll edərkən, ümumi xeyir naminə şəxsi maraqlardan imtina edirlər. Göründüyü ki, hətta demokratik quruluşda inkişaf etmiş kollektiv hüquq fərdi, şəxsi iradələrin məcmusunu təşkil edir və sosial mühitin, cəmiyyətin hər bir üzvünün azadlıqlarının reallaşdırılmasına yönəlmişdir. Beləcə onlar vətəndaş kimi özünü realizə edirlər, yəni müəyyən cəmiyyətin nümayəndələri kimi. Vətəndaşlar bu zaman öz vətəndaş vəzifələrini yerinə yetirərək və öz hüquqlarını və azadlıqlarını müdafiə etməklə özlərinin sosial statusunu təsdiq edirlər.

Demokratikləşmə, elm və texnikanın inkişafı, informasiyalaşma, açıqlıq, həmçinin miqrasiya, inteqrasiya, beynəlmiləlləşmə və digər məsələlərlə bağlı qloballaşma prosesi vətəndaşlığın həm mənfi, həm də müsbət xarakteristikalarını aşkara çıxarır [26]. Müasir texnologiyalar və kommunikasiyanın üsulları vətəndaşlara öz hüquq, azadlıq və vəzifələrini həyata keçirməyə imkan verməklə yanaşı, əvvəllər

görünməmiş seçim azadlığı verir. Bundan əlavə, insanlar beynəlxalq təşkilatların köməyi ilə öz pozulmuş hüquqlarını bərpa edə bilirlər.

Hüquq ensiklopediya lüğətlərində vətəndaşlıq konkret dövlətlə şəxsin sabit hüquqi əlaqəsi kimi müəyyən edilir. Ədəbiyyatlarda həmçinin qeyd edilir ki, vətəndaşlıq – bu dövlətlə şəxsin elə hüquqi əlaqəsidir ki, hansı ki, yurisdiksiyanın bu şəxsə daimi, tam və sabit şəkildə şamil edilməsini şərtləndirməklə bu dövlətin qanunlarının müvafiq şəxsə mümkün tətbiq üçün zəruri ilkin şərt qismində çıxış edir.

Fərdin və dövlətin hüquqi əlaqəsi kimi vətəndaşlığın anlamında, eyni zamanda bəzi mütəxəssislər siyasi aspekti də irəli sürürlər. Belə ki, vətəndaşlıq – dövlətlə fərd arasında yalnız hüquqi yox, həm də siyasi əlaqədir, yəni fərdə təkcə hüquqi yox, həmçinin siyasi hakimiyyətin həyata keçirildiyi digər sosial institutlar da şamil olunur. Elmi ədəbiyyatlarda belə bir fikir vardır ki, vətəndaşlıq dedikdə, dövlətlə insanın siyasi-hüquqi əlaqəsi anlaşılır, hansı ki, dövlət barəsində sabitlik, hüquq və vəzifələrə malik olma ilə, fərd barəsində dövlətin hüquq və vəzifələri ilə səciyyələnir. Qeyd etmək lazımdır ki, bu təyində mərkəzi yer insana, onun hüquqlarına və vəzifələrə aiddir. Adətən "fərd", "fiziki şəxs", "insan" kimi anlayışlardan istifadə edilir ki, bu anlayışlar da bu sferada eyni mənanı kəsb edir.

Göründüyü kimi, bəzi mütəxəssislər vətəndaşlıq məsələlərinin izahında insan hüquqlarının prioriteti tendensiyasından çıxış edirlər. Bundan başqa, belə yanaşmada dövlətlə insanın əlaqəsinin qarşılıqlılıq xarakteri vurğulanır, belə əlaqədə fərdin və dövlətin hüquq və vəzifələri bir-birini tamamlayır, qarşılıqlı şəkildə fəaliyyət göstərir.

Beləliklə, əvvəlki paraqrafda qeyd etdiyimiz kimi, biz vətəndaşlığın təyinində iki əsas yanaşmanı nəzərdən keçirdik: birinci yanaşma "məxsusluq" kateqoriyasından istifadə ilə bağlıdırsa, ikinci "hüquqi əlaqə" kateqoriyası ilə bağlıdır.

Vətəndaşlıq ideyasının faktiki realizəsi nəinki siyasi-hüquqi, həm də sosial bərabərliyi də tələb edir. Bu zaman vətəndaşların sosial hüquqlarla təmin edilməsi vacib şərtdir. Hüquq ədəbiyyatlarında bu proses "sosial vətəndaşlıq" adlandırılır. Bu o deməkdir ki, ləyaqətli mövcudluq şəraiti yaratmaq lazımdır, hansılar ki, vətəndaş hüquqlarının həyata keçirilməsi üçün maddi bazanı formalaşdıra bilər. Belə ləyaqətli mövcudluğun təminatı vətəndaşların növbəti sosial və mədəni hüquqlarının

reallaşdırılması şəraitində mümkündür: sağlamlıq hüququ, təhsil hüququ, şəxsi toxunulmazlıq, vicdan azadlığı, həmçinin şərəf və ləyaqət hüququ. Şərəf və ləyaqətin müdafiəsi hüququ yalnız özünə əminliklə bağlı vacib psixoloji fenomen deyil, həmçinin əhəmiyyətli xarici amildir, hansı ki, şəxsiyyətin ictimai baxımdan tanınması ilə bağlıdır.

Millət-dövlət baxışlarının zəifləməsinə baxmayaraq, son illər millət meyarına görə vətəndaşlıq ideyaları genişlənməyə başlamışdır. Hətta bir neçə etnoregional birliklərdən ibarət təsisatların və həmin təsisatların vətəndaşları kimi anlayışlar da artıq mövcuddur. Məsələn, Avropada başlamış iqtisadi inteqrasiya prosesləri, artıq "ümumavropa vətəndaşlığı" kimi anlayışların meydana çıxmasına səbəb olmuşdur.

Bütövlükdə, vətəndaşlıq anlayışının müasir realizəsinin əsas tendensiyalarından biri, bir tərəfdən, dövlət-millət ideyasının və vətəndaşlığın milli versiyasının böhranı ilə bağlıdırsa, digər tərəfdən, antik dövrdə istifadə edilən "dünya vətəndaşı" anlayışının formalaşması və bu istiqamətdə yeni fikir və yanaşmaların meydana çıxması ilə bağlıdır. Bu tendensiya qlobal səviyyəli bir çox anlayışların bütöv kompleksi ilə bağlıdır. Məsələn, dünyanın istənilən nöqtəsindən canlı yayım, sənədli filmlərin və verilişlərin yayılması, turizmin ən müxtəlif növlərinin məşhurlaşması, beynəlxalq təşkilatların genişmiqyaslı fəaliyyəti, xüsusilə də Sərhədsiz müxbirlər, Sərhədlərsiz həkimlər, Sərhədlərsiz təhsil, Beynəlxalq Qırmızı Xaç Komitəsi və s. təşkilatların fəaliyyəti qeyd edilməlidir.

Nəticədə "qlobal vətəndaşlıq" adlı fenomenin yaradılmasına cəhdlər göstərilir, hətta bu sahədə müəyyən ilkin şərtlər müşahidə olunur. Belə vətəndaşlığın ilk nümunəsi antik kosmopolitizm olmuşdur. Lakin bir sıra əks amillər bəşəriyyətin birmənalı şəkildə həyat fəaliyyətinin bütün sferalarının ümumi unifikasiyasına cəhd etmədiyini də göstərmişdir, əks halda fərdilik də aradan qalxardı.

Vətəndaşlığın sosial-fəlsəfi baxımdan hüquqi və siyasi interpretasiyasının sintezinin cəhdi həyata keçirilir. Bu prosesdə sosial-fəlsəfi baxış vətəndaşlığın tədqiqinə bütövlülük, tamamlılıq və hərtərəflilik elementləri verir. Vətəndaşlığın yeni konsepsiyası vətəndaş cəmiyyətinin növbəti xüsusiyyətlərini güman edir: fəallıq, qərarların qəbul olunması qabiliyyəti, şüurluluq və hərəkətlərin əsaslandırılması, xüsusi hüquqa meyl, qeyri-siyasi istiqamət, seçim azadlığı, fərdiləşmə, xüsusi

mülkiyyət institutunun mövcudluğu. Bundan başqa, belə cəmiyyətin strukturunda xüsusi yeri kütləvi könüllü ictimai birləşmələr tutur, dövlət orqanlarının hər hansı iştirakı olmadan və şəxslərarası ünsiyyətə əsaslanan birliklər, özfəaliyyət və özünüidarə təşkilatları, vətəndaşların ittifaqları tutur.

Vətəndaşlıq müasir sosial mühitin fundamental xarakteristikasıdır. Unifikasiyanın və ictimai həyatın bütün sferalarının inteqrasiyasının ümumdünya prosesi kimi anlaşılan qloballaşma şəraitində vətəndaşlıq konsepsiyası sosial qaydanı dəstəkləməyə və həyat qabiliyyətli sosial mühitin sabit mövcudluğu üçün lazım olan vətəndaş razılığının nailiyyətinə kömək etməyə yönəlmişdir.

Buna görə vətəndaşlıq iki yolla təsvir edilə bilər: status və rol. Vətəndaşlıq səlahiyyətlərinə aid olan status (hüquqi və siyasi), bir tərəfdən, dövlətin öz vətəndaşlarına zəmanət verdiyi bütün mülki, siyasi və sosial hüquqları, digər tərəfdən də vətəndaşın dövlət qarşısında öhdəliklərini əks etdirir. Vətəndaşlığın sosial rolu şəxsin özünün mənsub olduğu cəmiyyətin bir hissəsi kimi ona şəxsiyyət kimi qiymət verir və ictimai həyatda iştirakını müəyyən edir, vətəndaşlıq statusunu həyata keçirir.

Dövlət vətəndaşlığın vacib aspektləri ilə bağlı suveren olsa da, vətəndaşlığın əldə edilməsi və itirilməsi üsullarının tənzimlənməsi sahəsində müstəsna yurisdiksiyasına, vətəndaşların hüquq və vəzifələrinə baxmayaraq, beynəlxalq hüquq dövlətlər arasında qurulmuş beynəlxalq münasibətlər baxımından bu məsələyə öz təsirini göstərir [70, 232]. Bundan başqa, beynəlxalq hüququn bu təsiri daha da artmaqdadır.

Beləliklə, vətəndaşlığın anlayışına dair müxtəlif nöqteyi-nəzərləri öyrənib, qeyd etmək lazımdır ki, bir çox mütəxəssislər vətəndaşlığa belə anlayış verilməsinin tərəfdarıdırlar ki, vətəndaşlıq fərdlə dövlət arasında sabit siyasi-hüquqi əlaqədir, bu isə qarşılıqlı hüquqlar və vəzifələrdə ifadə olunur. Vətəndaşlığın təyininə dair bu yanaşma əksər dövlətlərin qanunvericiliyində də istifadə olunur. Burada ifadə olunan siyasi-hüquqi əlaqələr isə bir-birini tamamlamaqla məhz vətəndaşlıq hüququnun əsas məzmumunu təşkil edir. Vətəndaşlıq hüququ isə son nəticədə əsas insan hüquqlarından biri kimi çıxış etməklə insan hüquqlarının real təminin yönəlmişdir.

1.3. Vətəndaşlıq hüququnun tənzimlənməsinin beynəlxalq hüquqi əsasları

Vətəndaşlıq hüququ, bir tərəfdən konstitusiya hüququnun ən vacib institutlarından biri olması səbəbindən, vətəndaşlıq məsələləri əsasən dövlətdaxili hüquqla tənzim edilir. Vətəndaşlıqla bağlı mühüm və əsas məsələlər milli hüquqla yanaşı, beynəlxalq hüquq və insan hüquqları ilə də tənzimləndiyinə görə vətəndaşlıq həmçinin beynəlxalq hüquq institutudur. Hüquq ədəbiyyatında haqlı olaraq qeyd edilir ki, vətəndaşlıq məsələlərinin tənzimlənməsində beynəlxalq hüquq normalarının funksiyası genişlənən xətt üzrə inkişaf etməkdədir. Xüsusən də, vətəndaşlığın hüquqi tənzimlənməsinin prinsipləri (vətəndaşlıq hüququ, vətəndaşlıqdan özbaşına məhrumetmənin yolverilməzliyi, vətəndaşsızlıq hallarının ixtisarı və s.) beynəlxalq hüququn insan hüquqlarının müdafiəsi sahəsində qəbul edilmiş beynəlxalq müqavilə normalarına uyğunlaşdırılmaqdadır. Beynəlxalq hüquq normaları vətəndaşlıq məsələlərini tənzim edən prinsiplərlə ayrı-ayrı dövlətdaxili qanunvericilik aktlarının unifikasiyasını təmin edir. Başqa sözlə, müvafiq prinsiplər konstitusiya hüququ ilə beynəlxalq hüququn kompleksindən ibarət olan vətəndaşlıq institutunu formalaşdırır [8, 6-7].

Fərdin statusu ilə əlaqəli olan digər beynəlxalq hüquq normaları kimi, vətəndaşlıq institutunun da beynəlxalq-hüquqi tənzimlənməsi beynəlxalq hüququn öz inkişafına paralel olaraq təkmilləşmişdir. İnsan hüquq və əsas azadlıqlarına hörmət edilməsinin beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi elan edilməsi, vətəndaşlıqla bağlı məsələlərin dövlətlərin müstəsna səlahiyyətləri çərçivəsindən çıxarılaraq beynəlxalq səviyyəyə qaldırılmasına səbəb olmuşdur.

Beynəlxalq hüquqda vətəndaşlıqla bağlı məsələlərin həll edilməsi bilavasitə fərdlərin beynəlxalq hüquq subyektliliyi səviyyəsindən asılıdır. Bəzi alimlərin (M.Yanis) fikrinə görə, müasir beynəlxalq hüquqda fərdlər, beynəlxalq hüququn digər subyektləri ilə bilavasitə hüquqi münasibətlərə girdikdə beynəlxalq hüququn subyekti qismində çıxış edə bilərlər [64, 61-64].

Hazırda fərdlərin hüquqlarını, vəzifələrini və məsuliyyətini müəyyən edən və birbaşa fərdlə bağlı olan normalar dövlətlərarası müqavilələrdə bilavasitə nəzərə alınır. Bir tərəfdən bu normalar fərdin hüquqlarını müəyyənləşdirməklə fərdi bu

normaların subyektinə çevirmiş olur. Digər tərəfdən, insan hüquqları üzrə qəbul edilmiş beynəlxalq sənədlər, bu hüquqların təmin edilməsi ilə bağlı dövlətlərin üzərinə birbaşa öhdəliklər qoyur. Bu yolla milli hüququn və dövlətdaxili prosedurların normaları vasitəsi ilə konkret şəxs barəsində hüquqların təmin ediləcəyinə, əks halda beynəlxalq öhdəliklərin yerinə yetirilməsinin dövlətdən tələb edilməsi hüququ ilə bağlı zəmanət verilmiş olur. Bu hüquqlar Mülki və siyasi hüquqlar haqqında 1966-cı ildə qəbul edilmiş Beynəlxalq Paktın 2-ci maddəsində əks edilmişdir. Həmin maddədə qeyd edilir ki, hazırkı Paktda iştirak edən hər bir dövlət, onun ərazisi hüdudlarında və onun yurisdiksiyası altında olan bütün şəxslərin hazırkı Paktda qəbul edilən hüquqlarına, irqi, dərisinin rəngi, cinsi, dini, dili, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və digər halları ilə bağlı əlamətlərinə heç bir fərq qoymadan hörmət etməyi onların bu hüquqlarını təmin etməyı öhdəsinə götürür [59, 201-248].

Nəticə olaraq belə bir qənaətə gəlmək olar ki, vətəndaşlıqla bağlı münasibətlərin tənzimlənməsi dövlətdaxili məsələlərə aid edilməlidir. Ancaq, dövlətlər arasında bu sahəyə aid müqavilə imzalanması anından etibarən, bu məsələ yalnız milli hüquqla tənzimlənən münasibətlər çərçivəsindən kənara çıxaraq, müqavilə tərəflərinin razılaşdırdığı ölçüdə beynəlxalq səciyyə daşımağa başlayır. Beynəlxalq müqavilələrin bağlanması, vətəndaşlıqla bağlı qanunlarda mövcud ziddiyyətlərin (kolliziyaların) aradan qaldırılmasına və ortaya çıxan bütün mübahisələrin beynəlxalq hüququn universal tanınmış prinsiplərinə uyğun şəkildə həll olunmasına xidmət edən effektiv vasitədir.

1930-cu il Vətəndaşlıq haqqında qanunların kolliziyasına aid olan bəzi məsələlər haqqında Haaqa Konvensiyasının 1-ci maddəsi hər bir dövlətə, vətəndaşı olacaq şəxslərin vətəndaşlığını həmin dövlətin milli qanunlarına uyğun olaraq müəyyənləşdirmək imkanı verir. Lakin bu qanunlar digər dövlətlər tərəfindən yalnız, vətəndaşlıq hüququna aid qəbul edilmiş ümumi beynəlxalq konvensiyaların, beynəlxalq qayda və prinsiplərin tələblərinin qorunması şərti ilə tanınır [131].

Vətəndaşlıqla bağlı beynəlxalq hüquq institutu öz ifadəsini, vətəndaşlıq münasibətlərini birbaşa və dolayı şəkildə tənzimləyən bir sıra beynəlxalq hüquqi

sənədlərdə tapır. 1906-cı ildə Rio-de-Janeyroda qəbul edilmiş Naturalizasiya yolu ilə doğulduğu dövlətdə daimi yaşamaq hüququnu əldə etmiş şəxslərin statusu haqqında Konvensiya vətəndaşlıq məsələləri ilə bağlı ilk çoxtərəfli regional konvensiyadır. Konvensiyanın iştirakçısı ABŞ-la yanaşı Amerika qitəsinin digər 11 dövlətidir. Konvensiya naturalizasiya yolu ilə yeni vətəndaşlıq əldə etmiş şəxslərin əvvəl vətəndaşları olduğu dövlətin ərazisinə qaytarılması nəticəsində naturalizasiya hüquqlarının itirilməsi və əvvəlki dövlətə inteqrasiya olunması ilə bağlı məsələləri əhatə edir.

Vətəndaşlıqla bağlı universal kodifikasiyanın aparılması istiqamətində ilk addım, Beynəlxalq hüququn kodifikasiyasına dair 1930-cu ildə Haaqa Konfransı zamanı atılmışdır. Konfrans zamanı Vətəndaşlıq haqqında qanunların kolliziyasına aid olan bəzi məsələlər haqqında Konvensiya qəbul edilmişdir. Konvensiya ilə hər bir dövlətin öz vətəndaşlarının dairəsini milli qanunvericilik çərçivəsində müəyyənləşdirə bilməsi ilə bağlı suveren hüququ tanınmışdı, həmçinin digər dövlətlərin bu hüququn mövcud beynəlxalq hüquq normalarına, beynəlxalq adət normalarına və vətəndaşlığa dair spesifik prinsiplərə tabe olması şərtinə hörmət etməsi də təsbit edildi. Konvensiyanın göstərilən bu normasını analiz edərkən məşhur beynəlxalq hüquq alimi Yan Brounli bildirir ki, bu halda qanunvericililiklə tanınmanın məhdud xarakteri arasında fərqlilik yaranır, bu isə gərəksiz hüquqi müddəa yaratmış olur [24, 16].

Haaqa Konvensiyası müxtəlif dövlətlərin vətəndaşlığının bərabərliyi prinsipi və ikili vətəndaşlıqdan imtina olunmasını; bipatrid hüquqi statusuna malik şəxslərin vətəndaşı olduğu dövlətdən birinin beynəlxalq müdafiəsindən istifadənin qanuniliyinin rədd olunmasını; effektiv vətəndaşlıq prinsipinin möhkəmləndirilməsini; yeni dövlətdə naturalizasiya baş tutduqdan sonra, əvvəlki dövlətdə vətəndaşlıqdan imtina edilməsi ilə bağlı fərdlərin hüquqlarının tanınmasını; vətəndaşlıqdan çıxarma ilə bağlı vətəndaş sayılmamağın mümkünsüzlüyünü sığortalayacaq sistemlərin yaradılmasını; ailənin vahid vətəndaşlıq prinsipini təsdiq etdi. Konvensiyada həmçinin nikah bağlanması zamanı qadınların vəziyyəti və övladlığa götürmə ilə bağlı vətəndaşlıq məsələlərinin tənzimlənməsinə dair müddəalar əks olunmuşdur.

Konvensiyanın hələ Millətlər Cəmiyyətinin himayəsi altında qəbul edilməsinə baxmayaraq, Konvensiya hər hansı bir dövlət üçün tövsiyə oluna biləcək yeganə universal beynəlxalq hüquqi sənəddir. Haaqa Konfransında həmçinin ikili vətəndaşlığı olan şəxslərin hərbi mükəlləfiyyətlərinin aparılması qaydaları ilə bağlı protokol da imzalanmışdır. Protokola əsasən iki və daha çox dövlətin vətəndaşlığına malik olan və vətəndaşı olduğu dövlətlərdən birinin ərazisində digərləri ilə müqayisədə daha çox yaşayan və faktiki daha sıx əlaqəsi olan şəxslər vətəndaşı olduğu digər dövlətlərin hərbi mükəlləfiyyətindən azaddır.

1936-cı ildə Haaqa şəhərində Preambulası "hər kəsin yalnız bir vətəndaşlığa malik olması" barədə deklarativ bəyanatla başlayan, Vətəndaşlıqla bağlı qanunlarda ziddiyyətlərin həllinə dair məsələlər haqqında çoxtərəfli Konvensiya bağlanmışdır. Bu Konvensiya özündə 1930-cu il Haaqa Konvensiya ilə nəzərdə tutulmuş bir çox müddəaları və bir dövlətin xeyrinə ikili vətəndaşlıqdan imtina edilməsi ilə bağlı vətəndaşlıqdan imtina vəziyyətlərini özündə əks etdirir. Konvensiya 1937-ci ildə qüvvəyə minmişdir.

Hər kəsin vətəndaşlıq hüququna malik olmasını təsdiq edən başlıca beynəlxalq sənəd 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir. Həmin Bəyannamə ilə aşağıdakı hüquqlar nəzərdə tutulmuşdur ki, bunlar da insan hüquqlarının təminatı nöqteyi-nəzərindən yüksək qiymətləndirilməlidir: heç bir insan özbaşınalıqla həbsə, məhkumluğa və ya sürgün edilməyə məruz qala bilməz (m. 9); hər bir insan hər bir dövlətin hüdudları daxilində sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququna malikdir, həmçinin öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququna malikdir (m. 13); hər bir insan təqiblərdən qurtulmaq üçün digər ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququna malikdir (m. 14); heç kəs öz vətəndaşlığından və öz vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz (m. 15).

1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin yuxarıda qeyd etdiyimiz 15-ci maddəsinə əsaslanan "Ərli qadının vətəndaşlığı haqqında" 29 yanvar 1957-ci il tarixli Konvensiyanın 1-ci maddəsində qeyd edilir ki, vətəndaşlar və ya əcnəbilər arasında nə nikahın bağlanması, nə də ərin vətəndaşlığının dəyişdirilməsi,

həyat yoldaşının vətəndaşlığına birbaşa təsir etmir [79, 1532]. Bu Konvensiyada həmçinin göstərilir ki, Razılığa gələn hər bir dövlət razılaşır ki, nə onun hər hansı bir vətəndaşının könüllü surətdə hansısa dövlətin vətəndaşlığını qəbul etməsi, nə də vətəndaşlarından hansısa birinin öz vətəndaşlığından imtina etməsi bu vətəndaşın arvadının öz vətəndaşlığını saxlamasına mane olmamalıdır (m. 2). Eyni zamanda, Konvensiyanın 2-ci maddəsində qeyd edilir ki, Razılığa gələn hər bir dövlət razılaşır ki, onun hər hansı bir vətəndaşının arvadı olan əcnəbi, öz xahişi ilə, xüsusi sadələşdirilmiş naturalizasiya qaydasında ərinin vətəndaşlığını qəbul edə bilər. Belə vətəndaşlığın verilməsinə dövlət təhlükəsizliyi və ictimai asayiş naminə qoyulmuş məhdudiyyət tətbiq edilə bilər (m. 3). Daha sonra, Konvensiyanın 3-cü maddəsi ilə həmçinin qeyd edilir ki, Razılığa gələn hər bir dövlət razılaşır ki, bu Konvensiya onun hər hansı bir vətəndaşının arvadı olan əcnəbinin hüquqi əsasda, öz xahişi ilə ərinin vətəndaşlığını qəbul etməsinə icazə verən hər hansı qanunvericiliyə və ya məhkəmə praktikasına toxunan şəkildə yozulmamalıdır.

30 avqust 1961-ci il tarixində Vətəndaşsızlığın ixtisar edilməsi haqqında Konvensiya qəbul edilmişdir. Konvensiyaya qoşulmuş dövlətlər öz ərazisində doğulan, əks halda vətəndaşlıq əldə edə bilməyən şəxsə öz vətəndaşlığının verilməsi barədə razılığa gəlmişdilər. Eyni zamanda, iştirakçı-dövlətlər razılaşmışlar ki, əgər vətəndaşlıqdan məhrum edilmə şəxsi apatridə çevirirsə, həmin dövlətlər onu vətəndaşlıqdan məhrum etmirlər. Konvensiyada heç bir şəxsin və ya şəxslər qrupunun irqi, etnik, dini, yaxud siyasi əsaslara görə vətəndaşlıqdan məhrum edilməsinə yol verilməzliyi də qeyd edilmişdir [94, 516].

Bununla əlaqədar müddəalar 21 dekabr 1965-ci ildə qəbul edilmiş İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyada da müəyyən edilmişdir. Belə ki, həmin Konvensiyanın 1-ci maddəsinin 2-ci və 3-cü bəndlərində qeyd edilir ki, bu Konvensiya onun iştirakçısı olan dövlətlərin öz vətəndaşları ilə onların vətəndaşları olmayanlar arasında qoyduğu fərqlərə, istisnalara, məhdudiyyətlərə, yaxud üstün tutmalara şamil edilmir. Bu Konvensiyada heç nə iştirakçı dövlətlərin milli mənsubiyyətə, vətəndaşlığa, naturalizasiyaya dair qanunvericilik müddəalarına hansısa şəkildə təsir göstərmək kimi yozula bilməz, bir

şərtlə ki, belə qərarlarda hər hansı müəyyən milliyyət barəsində ayrı-seçkilik nəzərdə tutulmasın [105, 48].

16 dekabr 1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsi ilə hər hansı dövlətin ərazisində olan şəxslərin bu dövlətin hüdudları daxilində sərbəst hərəkət etmək və yaşayış yerini sərbəst seçmək hüququna malik olduğu, həmçinin, heç bir şəxsin öz ölkəsi də daxil olmaqla, istənilən ölkəni tərk etmək və geri qayıtmaq hüququndan özbaşınalıqla məhrum edilməsinə yolverilməzliyi bildirilmişdir. 24-cü maddə ilə hər bir uşağın vətəndaşlıq əldə etmək hüququna malik olduğu qeyd edilmişdir. Paktda həmçinin bildirilir ki, dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin sağlamlığının, əxlaqi dəyərlərin qorunması və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, sadalanan bütün hüquqların heç bir halda dövlət tərəfindən məhdudlaşdırılmasına yol verilmir [126].

1963-cü ildə Avropa Şurası tərəfindən Çoxvətəndaşlıq hallarının azaldılmasına və çoxvətəndaşlıq hallarında hərbi mükəlləfiyyət məsələlərinə dair Konvensiya qəbul edilmişdir. Konvensiyanın preambulasında bildirilir ki, sənəd çoxvətəndaşlığın aradan qaldırılmasına yox, Avropa Birliyi məqsədlərinə, yəni üzvlərinin birliyinə nail olunması üçün çoxvətəndaşlıq hallarının azaldılmasına yönəlmişdir. Konvensiyanın 1-ci maddəsində bildirilir ki, başqa ölkənin vətəndaşlığını (məsələn, naturalizasiya, könüllü seçim və ya vətəndaşlığın bərpa edilməsi yolu ilə) əldə edən vətəndaşlar əvvəlki ölkənin vətəndaşlığını itirirlər və istisnalar nəzərdə tutulmamışdırsa, onun qorunması hüququndan məhrum edilirlər. Konvensiyaya görə bu və ya digər dövlətin vətəndaşlığından imtina edilməsi məsələsi vətəndaşların şəxsi mülahizələrinə buraxılırdı.

Konvensiya ilə ümumilikdə çoxvətəndaşlq hallarının azaldılması nəzərdə tutulsa da, müəyyən hallarda, xüsusən də doğuş və nikaha daxil olma ilə əlaqədar avtomatik hüquqların yaranması hallarında çoxvətəndaşlığa icazə verilirdi. Bundan əlavə, Konvensiyanın Əlavəsində göstərildiyi kimi, çoxvətəndaşlıq vətəndaşın digər tərəfin razılığı ilə əvvəlki vətəndaşlığı saxlamağa icazə verilməsi ilə bağlı müraciət etdiyi zaman təmin edilə bilərdi. Hərbi mükəlləfiyyətin yerinə yetirilməsi ilə bağlı

bildirilirdi ki, ikili vətəndaşlığı olan şəxs vətəndaşı olduğu dövlətlərdən yalnız birində hərbi xidmət keçməlidir (m. 5) [99, 322].

Ancaq sonralar vətəndaşlıq və çoxvətəndaşlıqla bağlı çoxsaylı problemlərin həlli məsələlərinin bu Konvensiya ilə kifayət qədər ətraflı əhatə edilmədiyi bildirilmişdi. 1977-ci və 1993-cü illərdə bu problemlərdən bəzilərinin həll edilməsi istiqamətində düzəlişləri nəzərdə tutan iki Protokol Konvensiyaya əlavə edilmişdir.

1963-cü ildən etibarən Avropada baş verən bir sıra dəyişikliklər səbəbindən Avropa Şurası tərəfindən çoxvətəndaşlığın azaldılması ilə bağlı sərt siyasəti təkrar gözdən keçirmək qərarı verilmişdi. Çünki immiqrantların sayının kəskin artmasına səbəb olan, Avropa ölkələri arasında işçi qüvvəsinin miqrasiyası, ölkədə daimi yaşayan şəxslərin emiqrasiyası, müxtəlif vətəndaşlığı olan şəxslər arasında nikah sayının artması, Aİ üzv-ölkələri arasında sərbəst hərəkət imkanı və s. kimi faktorlar bunu labüd edirdi. Bundan əlavə, gender bərabərliyi prinsipinə uyğun olaraq fərqli vətəndaşlıqlara malik ər və arvad üçün bir-birlərinin vətəndaşlıqlarını əldə etməkdə eyni şərtlərin təmin edilməsi və hər iki tərəfin öz vətəndaşlığını uşaqlarına köçürə bilməsi imkanı nəzərdə tutulurdu.

1963-cü il Konvensiyasına əlavə edilmiş ikinci Protokolda həmçinin ikili vətəndaşlığı olan şəxslərin aidiyyəti dövlətin razılığı olduğu halda hər iki vətəndaşlıqlarını saxlamaq imkanının olması də nəzərdə tutulmuşdu. Bu səbəbdən qeyd edilməlidir ki, hər bir dövlət mövcud beynəlxalq razılaşmalar nəzərə alınmaqla ikili vətəndaşlığın tanınması və ya tanınmaması ilə bağlı suveren hüquqa malikdir. Dövlət tərəfindən ikili vətəndaşlığın tanınması halında, şəxsin dövlətin ərazisində və yurisdiksiyası altında olduğu bütün vəziyyətlərdə onun barəsində öz vətəndaşına münasibətdə keçərli qaydaları tətbiq etmək səlahiyyətinə malikdir.

Vətəndaşlıq məsələləri ilə bağlı hərtərəfli konvensiyanın qəbul edilməsi zərurəti bir sıra səbəblərdən yaranmışdır. Birinci səbəb kimi Vətəndaşlıq haqqında qanunlar arasında ziddiyyətlərə dair 1930-cu il Haaqa Konvensiyasının qəbul edilməsindən bu yana, vətəndaşlıq vəziyyəti haqqında müddəaları olan beynəlxalq sənədlərin sayının əhəmiyyətli dərəcədə artmasını göstərə bilərik. Bu səbəbdən daxili qanunvericiliyin və beynəlxalq hüququn dəyişməsi nəticəsində vətəndaşlıq

məsələsinə dair ortaya çıxan yeni fikirləri bir araya gətirəcək vahid mətnə ehtiyac yaranmışdır. İkinci səbəb kimi onu qeyd edə bilərik ki, Konvensiyaya daxil edilmiş bir sıra müddəalar beynəlxalq hüququn mütərəqqi inkişafının təşviq edilməsinə yönəlmişdir. Üçüncüsü, Mərkəzi və Şərqi Avropada baş verən demokratik dəyişikliklər nəticəsində yaranmış problemlər vətəndaşlıq məsələləri ilə bağlı yeni konvensiyanın qəbul edilməsini şərtləndirmişdir. Avropanın yeni formalaşmış bütün demokratik dövlətlərində vətəndaşlıq sahəsində yeni qanunvericiliyin hazırlanması zərurəti yaranmışdır. 1997-ci ildə Vətəndaşlıq haqqında Avropa Konvensiyasında vətəndaşsızlığın qarşısının alınması və müvafiq ərazilərdə daimi yaşayan şəxslərin hüquqlarının qorunması kimi ciddi məsələlər müzakirə edilir. SSRİ kimi dövlətlərin dağılması proseslərinin yaratdığı problemlərin həll edilməsi baxımından da bu Konvensiyanın qəbul edilməsi aktual idi.

Əminliklə demək olar ki məhz Vətəndaşlıq haqqında 7 noyabr 1997-ci il tarixli Avropa Konvensiyası vətəndaşlıqla bağlı müxtəlif məsələləri hərtərəfli qaydada tənzimləyən ilk çoxtərəfli beynəlxalq sənəddir. Çünki əvvəllər bu sahədə qəbul edilmiş müqavilələr vətəndaşlıqla bağlı yalnız müəyyən məsələlərin həllinə aid edilmişdi. Bundan əlavə, 1997-ci il Konvensiyası ilə beynəlxalq hüquq normalarının və bu sahəyə aid müxtəlif müqavilələrin kodifikasiyası aparılmış və bu yolla beynəlxalq hüququn müxtəlif sahələrinin mütərəqqi inkişafı təşviq edilmişdir. Konvensiya ilə vətəndaşlıq prinsipləri, vətəndaşlığın əldə olunması və itirilməsi, ikili və çoxvətəndaşlıq məsələlərinin tənzimlənməsi, dövlətlərin varislik şərti daxilində vətəndaşlığın seçilməsi qaydaları, çoxvətəndaşlıq halında hərbi mükəlləfiyyət məsələləri, həmçinin üzv-dövlətlər arasında əməkdaşlıq kimi bir çox məsələlər tənzimlənir.

1997-ci il Konvensiyasının ən əhəmiyyətli nailiyyəti kimi 4-cü və 5-ci maddələrdə, vətəndaşlıq hüququ, vətəndaşlıqdan məhrum edilmənin yolverilməzliyi, əcnəbilər və üzv-dövlətlərin vətəndaşları arasında nikaha daxil olma, boşanma hallarında ər və arvadın məsulliyyəti, ayrı-seçkiliyin yolverilməzliyi ilə bağlı məsələlərə dair məcburi prinsip və qaydaların təsdiqlənməsini qeyd edə bilərik. Sadalanan bu prinsiplərin müxtəlif mühüm beynəlxalq hüquqi sənədlərin də bir sıra

müvafiq müddəaları ilə nəzərdə tutulması onu sübut edir ki, bu prinsiplər ümumqəbuledilmiş və fundamental insan hüquqlarını təşkil edirlər. 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, 1965-ci il tarixli İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanı, 1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktı, 1957-ci il tarixli Ərli qadının vətəndaşlığı haqqında Konvensiyanı, 1961-ci il tarixli Vətəndaşsızlığın ixtisar edilməsi haqqında Konvensiyanı, 1930-cu il tarixli Vətəndaşlıq haqqında qanunların kolliziyasına aid olan bəzi məsələlər haqqında Konvensiyanı belə beynəlxalq hüquqi sənədlərə misal kimi göstərə bilərik.

1997-ci il Vətəndaşlıq haqqında Avropa Konvensiyasına əsasən vətəndaşlığın əldə olunması ilə bağlı tələb müddətinin yuxarı həddi 10 il müəyyənləşdirilmişdir. Konvensiyaya edilmiş Əlavə Hesabatda bildirilir ki, göstərilən müddətin seçilməsinin başlıca səbəbi kimi yaşayışla bağlı bu müddətin əksər Avropa ölkələrində 5-10 il olaraq müəyyənləşdirilməsidir. Yəni ümumqəbuledilmiş standartlara uyğun olaraq bu müddətin seçilməsi məqsədəuyğun hesab edilmişdir. Beləliklə, bir dövlətin ərazisində daimi yaşamaq, həmin dövlətin vətəndaşlığının əldə olunmasının başlıca səbəbidir, çünki bu hal fərdlə dövlət arasında əlaqənin mövcudluğunun faktiki göstəricisi hesab edilir.

1997-ci ildə Konvensiyada göstərilən vacib məsələlərindən biri də odur ki, bu sənədlə dövlətlərin üzərinə onların ərazisi daxilində olan və valideynləri bilinməyən uşaqlara vətəndaşlığın verilməsi öhdəliyi qoyulur. Bu hal beynəlxalq hüquqda hamılıqla qəbul edilmiş normadır. Konvensiya ilə belə öhdəliyin nəzərdə tutulması müxtəlif dövlətlər tərəfindən məsələnin həlli təcrübəsinin ümumiliyini əks etdirir və vətəndaşsızlıq hallarının azaldılmasına xidmət edir.

Vətəndaşlığın əldə edilməsi ilə bağlı sadələşdirilmiş qaydalardan növbəti kateqoriya şəxslər istifadə edə bilərlər: nikaha daxil olan şəxslər, qanunvericiliyə uyğun olaraq xaricdə doğulmuş uşaqlar, dövlətin ərazisində doğulmuş və qanuni əsasda orada daimi yaşayanlar, valideynlərdən biri aidiyyəti dövlətin vətəndaşı olan uşaqlar, üzv-dövlətlərin daxili qanunvericiliyinə uyğun olaraq 18 yaşına kimi

dövlətin ərazisində müəyyən müddət yaşamış şəxslər, vətəndaşlığı olmayan şəxslər və qaçqınlar [86, 133].

Qaçqınlar tərəfindən vətəndaşlığın əldə edilməsi ilə bağlı sadələşdirilmiş qaydaların tətbiqi məsələsi həmçinin Qaçqınların statusuna dair 1951-ci il Konvensiyası ilə də nəzərdə tutulmuşdur [50, 82]. Vətəndaşlıqda ər-arvad münasibətlərinin tənzimlənməsinə dair hələ 1977-ci ildə Avropa Şurası Nazirlər Komitəsi tərəfindən Ər və arvadın müxtəlif vətəndaşlığa aid olmalarına dair qətnamə qəbul edilmişdir. Qətnamə ilə vətəndaşlığın əldə edilməsi ilə bağlı əcnəbi ər və arvada daha əlverişli rejimin tətbiq edilməsi məsləhət görülürdü. Valideyn himayəsindən məhrum olmuş uşaqlara onları himayəyə götürmüş şəxsin vətəndaşlığının verilməsinin sadələşdirilməsi istiqamətində əhəmiyyətli addım kimi 1967-ci ildə qəbul edilmiş Qəyyumluq haqqında Avropa Konvensiyasının qəbul edilməsini qeyd edə bilərik.

Həmçinin, tələb edilən yaşayış müddətinin azaldılması, dil bilikləri ilə bağlı daha yüngül tələblərin qoyuluşu, sadələşdirilmiş prosedur, daha aşağı prosessual yığımlar kimi bir sıra güzəştli şərtlər də mövcuddur. Vətəndaşlığın verilməsi ilə bağlı edilmiş belə müraciətlərə cavabın verilməsi üzv-dövlətlərin iradəsinə uyğun olaraq verilir. Yəni seçim hüququ üzv-dövlətlərə məxsusdur.

Konvensiya ilə aşağıdakı hallarda üzv-dövlətlərin şəxsi təşəbbüslərinə uyğun olaraq daxili qanunvericilikdə vətəndaşlıq hüququnun itirilməsi (*ex lege*) ilə bağlı müddəaların salınmasına icazə verilmişdir: digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi; üzv-dövlətlərinin vətəndaşlığının yalan məlumatların verilməsi, müraciət faktı ilə bağlı məlumatların gizlədilməsi və fırıldaqçılıq yolu əldə edilməsi; xarici dövlətin silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi; üzv-dövlətlərin həyati maraqlarına ciddi zərəri olan fəaliyyətlə məşğul olma; daimi olaraq xaricdə yaşayan vətəndaşla üzv-dövlət arasında real əlaqənin olmaması; üzv-dövlətlərin daxili qanunvericiliyə uyğun olaraq yetkinlik yaşına çatmamış şəxslər barəsində vətəndaşlığın əldə edilməsi şərtlərinin dəyişilməsi halında; biri və ya hər ikisi əcnəbi olan vətəndaşların vəsatəti əsasında uşağın övladlığa götürülməsi zamanı vətəndaşlığın əldə edilməsi halında [127].

Onu da qeyd etmək lazımdır ki, əgər 1963-cü il Konvensiyasında "digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi" zamanı üzv-dövlətlərdə vətəndaşlığın itirilməsi məsələsi zəruri hal kimi nəzərdə tutulmuşdursa, yeni Konvensiyada bu məsələnin həlli ilə bağlı üzv-dövlətlərə seçim hüququ verilmişdir.

"Üzv-dövlətlərin həyati maraqlarına ciddi zərər vuran fəaliyyətlə məşğul olma" anlayışı ilə bağlı müddəalar öz əksini Vətəndaşsızlığın ixtisar edilməsi haqqında 1961-ci il Konvensiyasının 8-ci maddəsinin 3-cü bəndində tapmışdır. Bu anlayışa dövlətin həyati maraqlarına, təhlükəsizliyinə ciddi zərər vuran hərəkətlər və dövlətə qarşı xəyanət (məsələn, xarici məxfi xidmətlərlə əməkdaşlıq edilməsi) halları aid edilir. Lakin törədilmiş bu növ hərəkətlərin ağırlıq dərəcəsindən asılı olmayaraq onlara görə cinayət məsuliyyəti nəzərdə tutulmur[129]. Konvensiyanın 8-ci maddəsinə uyğun olaraq, vətəndaşsızlıq vəziyyətinin yaranmasına səbəb olmadıqca, şəxsin öz vətəndaşlığından imtina etməsinə üzv-dövlətlər tərəfindən icazə verilir.

Çoxvətəndaşlıq hallarının azaldılmasına və çoxvətəndaşlıq hallarında hərbi mükəlləfiyyət məsələlərinə dair 1963-cü il Konvensiyandan fərqli olaraq, 1997-ci il Konvensiyası çoxvətəndaşlığın arzu olunması məsələsinə neytral yanaşır və bu məsələnin həllini əsasən müqavilə tərəflərinin öhdəsinə buraxır. Həmçinin 1997-ci il Konvensiyasında çoxvətəndaşlıq hallarında hərbi mükəlləfiyyətin yerinə yetirilməsi ilə bağlı məsələlər ətraflı şəkildə izah edilmişdir [101, 83-84]. Qeyd edilir ki, iki və daha çox dövlətin vətəndaşlığına malik olan şəxslər hərbi mükəlləfiyyəti vətəndaşı olduğu üzv-dövlətlərdən yalnız birində yerinə yetirməlidir və hərbi mükəlləfiyyətin yerinə yetirilməsi qaydası üzv-dövlətlər arasında bağlanmış müqavilələrlə müəyyən edilir.

Konvensiyanın 18-ci maddəsi ilə bildirilir ki, dövlətlər hüquq varisliyi çərçivəsində vətəndaşlıqla bağlı məsələləri həll etdikləri zamanı üzv-dövlətlər hüququn aliliyi prinsipini, insan hüquqları sahəsində mövcud norma və prinsipləri, həmçinin Konvensiyanın özündə nəzərdə tutulmuş prinsipləri rəhbər tutmalıdırlar.

Dövlətlərin hüquq varisliyi çərçivəsində vətəndaşlığın verilməsi və ya vətəndaşlığın saxlanması ilə bağlı qərarların qəbulu zamanı hər bir üzv-dövlət aşağıdakı şərtləri xüsusi ilə diqqətə almalıdır: şəxslə aidiyyəti dövlət arasında real və

hərtərəfli əlaqənin olmasını; dövlətin hüquq varisliyi meydana çıxan zaman müvafiq şəxsin bu dövlət ərazisində daimi yaşamaq hüququnun olması; müvafiq şəxsin istəyini; müvafiq şəxsin ərazi mənsubiyyətini.

Sonuncu bəndlə nəzərdə tutulan "ərazi mənsubiyyəti" anlayışı *jus soli* (torpaq hüququ) və *jus sanguinis* (qan hüququ) prinsiplərinə əsasən vətəndaşlığın əldə olunmasında istifadə olunan meyarlara bənzəyir. Həmçinin, Konvensiyanın 19-cu maddəsi ilə vətəndaşlıq məsələləri ilə bağlı problemlərin həlli yolu kimi dövlətlərarası müqavilələrin bağlanması qaydası nəzərdə tutulmuşdur.

Beləliklə, bu paraqrafın təhlili ilə belə nəticəyə gələ bilərik ki, vətəndaşlıq məsələlərini tənzimləyən beynəlxalq normaların böyük əhəmiyyət kəsb etməsinə baxmayaraq, əksər hallarda beynəlxalq-hüquqi normalar dövlətdaxili qanunvericilik-də tamamlayıcı amil kimi çıxış edirlər. Beynəlxalq hüquq vətəndaşlığın hüquqi tənzimlənməsinin əsas prinsiplərinin formalaşmasına təsir göstərir, həmçinin, dövlətlərin milli qanunvericiliyinin təkmilləşdirilməsinə və onların milli hüquq sistemlərinin yaxınlaşmasına şərait yaradır. Bu səbəbdən vətəndaşlığın əldə edilməsi və xitam verilməsi ilə bağlı üzv-dövlətlər arasında vahid şərtlərin, müddətlərin və prinsiplərin müəyyənləşdirilməsinə xidmət edilməsi baxımından mühüm beynəlxalq müqavilə kimi Avropa Şurası tərəfindən 1997-ci ildə imzalanmış Vətəndaşlıq haqqında Konvensiyanın qəbul edilməsinin böyük əhəmiyyət kəsb etdiyini qeyd edə bilərik. Həmin Konvensiyada müəyyən edilən normalar müvafiq dövlətlərin qanunvericiliklərinin daha da təkmilləşdirilməsində əhəmiyyətli rol oynayır. Eyni zamanda, vətəndaşsızlıq hallarının ixtisarını nəzərdə tutan beynəlxalq sənədlərin də (məsələn, Vətəndaşsızlığın ixtisar edilməsi haqqında 1961-ci il Konvensiyası) əhəmiyyəti də xüsusi qeyd edilməlidir. Son nəticədə isə, belə beynəlxalq sənədlərin milli hüquqi implementasiyası üzrə müvafiq addımların atılması ilə həmin münasibətlərin daha səmərəli tənzimlənməsinə şərait yaradılmalıdır.

II FƏSİL. QLOBALLAŞMA ŞƏRAİTİNDƏ VƏTƏNDAŞLIQ HÜQUQUNUN AKTUAL PROBLEMLƏRİ

2.1. İkili və çoxvətəndaşlıq problemi

Çoxvətəndaşlıq problemi vətəndaşlıq institutunda ən mürəkkəb məsələlərdən biri hesab edilir. Dövlətlərin çoxvətəndaşlıq probleminə yanaşması əsasən əhalisinin sayı, etnoqrafik vəziyyəti, coğrafi mövqeyi, siyasi və mədəni xüsusiyyətləri və s. kimi bir sıra amillərdən asılı olaraq müəyyənləşdirilir.

İkili vətəndaşlığın yaranmasının başlıca səbəbləri kimi ərazi ilə bağlı baş vermiş dəyişiklikləri və əhalinin miqrasiyasını göstərə bilərik. Feodal formasiyası şəraitində, xüsusilə də mütləqiyyətin hakim olduğu dövrlərdə kəndlilərin torpağa təhkim olunması səbəbindən əhali miqrasiyası minimum səviyyədə idi və hətta bəzi dövlətlərdə torpağı tərk etməyə görə ölüm cəzası tətbiq edilirdi. Bu səbəbdən ikili təbəəliyin yaranması nadir hallarda rast gəlinən hadisə idi və əksər hallarda belə vəziyyətin mümkünsüzlüyü aşağı zümrədən olan insanlara münasibətdə özünü büruzə verirdi. Yuxarı zümrəyə aid olan şəxslər arasında isə ikili vətəndaşlığın yaranması rast gəlinən hal idi. Çünki, belə şəxslər əksər hallarda qarışıq nikahlara girirdilər və sədaqət andı ilə bağlı olduqları müxtəlif dövlətlərdə torpaq mülkiyyətlərinə sahib idilər.

Artıq kapitalizmin inkişafı dövründə əhalinin aktiv iqtisadi və siyasi miqrasiyası başlamışdı. Hazırda da beynəlxalq əlaqələrin sürətli inkişafı səbəbindən miqrasiya prosesi obyektiv olaraq güclənmiş tendensiyaya malikdir və bipatrizmin (ikili vətəndaşlığın) başlıca mənbəyi hesab edilir. Müasir cəmiyyətdə beynəlxalq əlaqələrin surətli inkişafı miqrasiya prosesini genişləndirir və buna görə dövlətlərin qarşısında ikili vətəndaşlıqla bağlı məsələlərin nizama salınması kimi yeni problemlər yaranır.

Müasir dünyada ikili vətəndaşlığın meydana gəlməsinin digər başlıca səbəbi, vətəndaşlığın əldə edilməsi və itirilməsi ilə bağlı müxtəlif dövlətlərin qanunvericiliklərində fikir ayrılıqlarının mövcud olmasıdır. Müxtəlif ölkələrin qanunvericiliklərində bununla bağlı əsasən iki prinsip tətbiq edilir: “qan hüququ” (*ius sanquini*) və “torpaq hüququ” (*ius soli*). Başqa sözlə, birinci halda vətəndaşlığın əldə olunması valideynlərin (və ya onlardan birinin) vətəndaşlığı əsasında müəyyən olunur. Yəni bu halda vətəndaşlıq şəxsin mənşəyi ilə əlaqələndirilir. İkinci halda

vətəndaşlığın əldə olunması müvafiq dövlətin ərazisində doğum faktı ilə əlaqəlidir. Məsələn, Latın Amerikası dövlətlərində, Böyük Britaniyada və ABŞ-da vətəndaşlığın əldə olunmasında "torpaq hüququ" prinsipi, Almaniya, İsveçrə, Yaponiyada və Avropanın digər əksər ölkələrində vətəndaşlıq məsələlərində "qan hüququ" prinsipi əsas götürülür[91, 21].

Vətəndaşlıq məsələləri üzrə məşhur alim Peter J.Spiro qeyd edir ki, ikili vətəndaşlıq qloballaşmadan sonra sözsüz status əldə etmişdir, amma əvvəlki kimi dövlətlər tərəfindən dəstəklənmir. İstənilən halda ikili vətəndaşlıq insan hüququ kimi qorunmalıdır. Təcrübədə elə hallar da olur ki, ikili vətəndaşlıq dövlətlər arasındakı sabitliyə maneə yaradır, həmçinin dövlətlərin həmrəyliyinə də müsbət təsir göstərmir. Lakin insanların hüquq və mənafeyi naminə belə halların hüquqi tənzimlənməsi mütləq şərtdir[85, 111].

Beləliklə, "qan hüququ" tətbiq edən dövlət vətəndaşlarından doğulmuş körpə "torpaq hüququ"nu tətbiq edən dövlətin ərazisində dünyaya gələrsə ikili vətəndaşlığa sahib olacaqdır. Diplomatik əlaqələr haqqında 1961-ci il və Konsul əlaqələri haqqında 1963-cü il Vyana Konvensiyalarına əsasən "torpaq hüququ" yalnız xarici diplomatların və konsulların uşaqlarına münasibətdə tətbiq olunmur.

Bipatrizm həmçinin uşağın doğum yerindən asılı olmayaraq o halda yaranır ki, əgər müvafiq ölkənin qanunvericiliyi iki və daha artıq vətəndaşlığa sahib olan ölkə vətəndaşının vətəndaşlıq hüququnun "qan hüququ" əsasında uşağa ötürülməsinə icazə versin. İkili vətəndaşlıq həmçinin əcnəbi ilə nikaha daxil olarkən bu ölkənin qanunlarına əsəsən ərin (və ya arvadın) vətəndaşlığının avtomatik olaraq verilməsi və milli qanunvericiliklə ilkin vətəndaşlıqdan məhrum edilməməsi halında mümkündür.

İkili (çox) vətəndaşlıq hallarının azaldılması məqsədilə bir çox dövlətlərdə nikaha daxil olmaq səbəbindən vətəndaşlığın avtomatik olaraq verilməsi qaydası aradan qaldırılır və əcnəbilərlə nikaha daxil olan şəxslərin müstəqil vətəndaşlıq statusuna sahib olmaları ilə bağlı konsepsiya getdikcə daha çox dəstəklənir. Ərdə olan qadınların vətəndaşlığı haqqında 1957-ci il Konvensiyası əcnəbiyə ərə gedən qadının vətəndaşlığının dəyişdirilməsinin avtomatik baş verməsi prinsipini ləğv

etməsi səbəbindən, nikaha daxil olma zamanı qadınlara ikili (çox) vətəndaşlığın tətbiqi edilməsi ehtimalını azaldır.

Əksər hallarda ikili vətəndaşlıq naturalizasiya nəticəsində yaranmış olur: yəni bir şəxs tərəfindən doğulduğu ölkənin vətəndaşlığını itirmədən, digər ölkənin vətəndaşlığına qəbul edilir.

Bəzən ikili vətəndaşlığın yaranmasının təməlində, siyasi təsirin gücləndirilməsinə və müəyyən milliyyətdən olan vətəndaşların "bir damın altında toplamaq" cəhdinə yönəlmiş hər hansı bir dövlətin siyasəti dayanır. Bəzi müəlliflər, ikili vətəndaşlıq institutunun ən aktual probleminin iki və ya daha çox dövlətin vətəndaşlığını saxlayan bir şəxsin çətin hüquqi vəziyyətinin olduğunu vurğulayır, çünki bir vətəndaşın həm ikili hüquqları, həm də ikiqat vəzifələri meydana çıxır[29, 16-18].

İkili vətəndaşlıq həmçinin müxtəlif obyektiv və subyektiv xarakterli səbəblərdən də yarana bilər. İkili vətəndaşlığın yaranmasının obyektiv səbəblərinə vətəndaşlığın əldə olunması və itirilməsi ilə bağlı dövlətlərin qanunlarında mövcud fərqliliklərlə yanaşı, yurisdiksiyanın dəyişdirilməsinə səbəb olmuş ərazi dəyişikliklərini, əhalinin miqrasiyasını və qaçqın axınlarını da aid edə bilərik. İkili vətəndaşlığın yaranması halı kimi, formal olaraq vahid olan, lakin faktiki olaraq iki və daha artıq yerə bölünmüş bölgələrdə hakimiyyətdə olan dairələrin (Çin-Tayvan, Moldova-Dnestryanı) razılaşdırılmamış hərəkətlərini də misal göstərə bilərik[22, 53].

Eyni zamanda, ikili vətəndaşlığın yaranmasına imkan verən beynəlxalq razılaşmalar da mövcuddur. Bu səbəbdən deyə bilərik ki, bipatrizm həm müxtəlif dövlətlərin milli qanunvericiliyinin normaları, həm də beynəlxalq müqavilələr əsasında yaranır.

Elmi ədəbiyyatda və təcrübədə "ikili vətəndaşlıq" termini ən azı iki mənada istifadə edilir. Bəzi mütəxəssislərin (Konvey V.Henderson, Alfred M.Boll)[45, 13-14] fikrincə, "ikili vətəndaşlıq" şəxs tərəfindən, vətəndaşı olduğu ölkənin razılığı (icazə, müqavilə və ya tərəflərarası razılıq) əsasında digər dövlətin vətəndaşlığının əldə olunması qaydalarını tənzimləyən hüquq normalarının məcmusunu təşkil edən beynəlxalq hüququn institutudur. Digər qrup alimlərin gəldiyi qənaətə görə, bipatrizm

ilk olaraq vətəndaşlığını aldığı dövlətin xəbəri (icazə və ya razılığı) olmadan fiziki şəxsin iki və daha artıq vətəndaşlığa malik olma vəziyyətini təcəssüm edən ictimai hadisədir.

Dövlətlərin ikili vətəndaşlıq məsələsi ilə bağlı münasibətləri zamanla dəyişmişdir. Bu münasibət ikili vətəndaşlığın ləğv edilməsi cəhdlərindən tədricən onun beynəlxalq müqavilələrdə normativ qaydada tənzimlənməsi və möhkəmlənməsi istiqamətində dəyişmişdir. Bu tendensiyanı Avropanın beynəlxalq təşkilatlarının qəbul etdikləri razılaşmaların misalında görə bilərik.

XX əsrin altmışıncı illərində Avropa Şurasının üzvü olan Qərbi Avropa dövlətləri ikili vətəndaşlığın arzuolunmaz olması və mümkün olduqca bu məsələdən çəkinmək lazım olması barədə razılığa gəldilər. Çoxvətəndaşlıq hallarının azaldılmasına və çoxvətəndaşlıq hallarında hərbi mükəlləfiyyət məsələlərinə dair 1963-cü il Konvensiyasına əsasən başqa üzv-dövlətin vətəndaşlığını qəbul etmiş və üzv-dövlətlərdən birinin vətəndaşı olan şəxs, öz əvvəlki vətəndaşlığını itirir. Bundan əlavə, Konvensiyanın iştirakçıları üzv-dövlətlərin vətəndaşları tərəfindən başqa üzv-dövlətin vətəndaşlığının əldə edilməsi barədə məlumatları çatdırmağı öhdələrinə götürmüşlər[122]. Aydındır ki, belə bir məlumat mübadiləsi olmadan Konvensiyanın şərtlərini həyata keçirmək mümkünsüz olar.

Hal-hazırda, bir sıra Avropa ölkələri əhali hərəkətliliyinin artması, miqrasiya proseslərinin inkişafı və qaçqınların yerdəyişmələri ilə əlaqədar olaraq ikili vətəndaşlığın münasib olduğunu hesab edirlər. Qaçqınlar, bir qayda olaraq, digər miqrantlara nisbətən tez-tez və daha sürətli naturalizasiya edilirlər və nadir hallarda vətəndaşlığa qəbul edilmənin ilkin şərti kimi onlara əvvəlki vətəndaşlıqdan imtina edilməsi tələbi qoyulur. Hətta ikili vətəndaşlığın aradan qaldırmasını hədəf olaraq rəsmən elan etmiş ölkələr də, təcrübədə bu prosesin əlverişli tərəflərini önə çəkərək ona müsbət yanaşırlar.

Çoxvətəndaşlıq hadisələri ilə bağlı daha çox liberal yanaşmaya üstünlük verərək 1997-ci ildə Avropa ölkələri Vətəndaşlıq haqqında Avropa Konvensiyasını qəbul etdilər. Bu Konvensiyada əksər Avropa ölkələri üçün münasib olacaq müddəalar ehtiva edilmişdir və bu baxımdan sənədin maksimal səviyyədə çevikliyini

qeyd etmək lazımdır. Belə ki, Konvensiya nə çoxvətəndaşlıq üçün maneələr yaradır, nə də dövlətlərdən çoxvətəndaşlığı ümumi prinsip olaraq tanımağı tələb edir.

Bəzi dövlətlərdə hesab olunur ki, şəxsin başqa ölkənin vətəndaşlığına mənsubiyyəti onun yaşadığı cəmiyyətə tam inteqrasiyasını çətinləşdirir. Ancaq bu cür halın əslində heç bir çətinlik yaratmadığını düşünən və şəxs tərəfindən mənsub olduğu ölkənin vətəndaşlığının saxlanmasına qarşı çıxmayan bir sıra dövlətlər də mövcuddur. Üzv-dövlətlər digər ölkə vətəndaşlığının itirilməsini və ya imtina edilməsini onların vətəndaşlıqlarının əldə olunmasının və ya qorunmasının şərti kimi görməməlidirlər. Çünki bir çox hallarda bu cür prosedurun həyata keçirilməsi mümkünsüz olur. Konvensiyaya əsasən digər vətəndaşlığa mənsub şəxslər də yaşadıqları ölkədə bərabər hüquqlara sahibdirlər.

Beləliklə, vətəndaşlıq məsələlərinin tənzimlənməsi ilə bağlı yuxarıda da qeyd etdiyimiz kimi çoxvətəndaşlığın hüquqi tənzimlənməsi, yəni vətəndaşlığın əldə edilməsi və itirilməsi ilə bağlı həm öz vətəndaşlarına, həm də digər şəxslərə imkanların verilməsi dövlətin müstəsna hüququdur.

Postsovet ölkələrinin əksəriyyəti ikili (çox) vətəndaşlığın tətbiqinə kəskin şəkildə qarşı çıxır və əhalisinin əhəmiyyətli bir hissəsi tərəfindən ikinci vətəndaşlığın əldə edilməsində maraqlı deyildir. Köhnə birlik ölkələrinin əksəriyyətində ikili vətəndaşlığın mövcud olmasını, öz dövlətlərində digər dövlətlərin (əksər halda Rusiyanın) varlığının gücləndirilməsi cəhdi hesab edirlər. Ölkələr tərəfindən ikili (çox) vətəndaşlığın birtərəfli tanınması gələcəkdə dövlətlər arasındakı münasibətlərdə vətəndaşlıq məsələləri ilə bağlı ziddiyyətlərə səbəb olur, belə ki, hər bir dövlət bu sahəni milli qanunvericiliyi çərçivəsində tənzimləməyə üstünlük verir.

İkili (çox) vətəndaşlıq məsələsinin mürəkkəb olması müxtəlif dövlətlər tərəfindən məsələ ilə bağlı vahid yanaşmanın formalaşdırmasına imkan vermir. Bu səbəbdən də beynəlxalq təcrübədə bu məsələ ilə bağlı müxtəlif yanaşmalar yaranmışdır[40, 58].

Birincisi, ikili (çox) vətəndaşlığın tanınması – dövlət tərəfindən ikili (çox) vətəndaşlığa sərbəst icazə verilir (Albaniya, Lixtenşteyn, Yəmən, Kanada).

İkincisi, ikili (çox) vətəndaşlığın mümkünlüyü: yeni vətəndaşlığın əldə olunması zamanı şəxsdən əvvəlki vətəndaşlıqdan imtina edilməsi tələb olunmur (İngiltərə, İtaliya, ABŞ, Fransa).

İtaliyada naturalizasiya zamanı əvvəlki vətəndaşlıqdan imtina edilməsi zərurəti yoxdur. Lakin, əgər bir şəxs doğulduğu andan ikili vətəndaşlığa sahibdirsə, yetkinlik yaşına çatdığı zaman bu vətəndaşlıqlardan yalnız birinin saxlanması tələbi qoyulur. Əgər şəxs tərəfindən italyan vətəndaşlığı seçilərsə, bu zaman ikinci vətəndaşlıqdan imtinaya dair sübutların təqdim edilməsi ehtiyacı yaranmır. Lakin başqa dövlətin vətəndaşlığının seçilməsi avtomatik olaraq italyan vətəndaşlığının itirilməsinə səbəb olur[123].

İspaniyada ikili vətəndaşlığa icazə verilməsi məsələsi ilə bağlı maraqlı hal mövcuddur. Belə ki, İspaniya Konstitusiyasının 11-ci maddəsinə əsasən dövlətin Latın Amerikası ölkələri və İspaniya ilə xüsusi münasibətləri olan ölkələrlə ikili vətəndaşlıq barədə müqavilələr bağlamaq hüququna malik olduğu bildirilir[95, 6].

Üçüncüsü, ikili (çox) vətəndaşlığın qadağan edilməsi (Almaniya, İsveç, Yaponiya, Cənubi Afrika Respublikası). Yaponiyanın 1950-ci il 4 may tarixli Vətəndaşlıqla bağlı Qanununa uyğun olaraq, naturalizasiya zamanı ikili vətəndaşlığın qarşısının alınması üçün aşağıdakı tədbirlər nəzərdə tutulur: "...vətəndaşlığın əldə olunması üçün tələbə görə, müraciət edən şəxsin ya vətəndaşlığının olmaması, ya da əvvəlki vətəndaşlığın itirilməsi nəzərdə tutulur"[124].

İkili (çox) vətəndaşlığın məhdudlaşdırılması ilə bağlı ən sərt tədbirlər Almaniya və İsveçrə tərəfindən həyata keçirilir. Burada naturalizasiyanın başlıca şərtini əvvəlki vətəndaşlıqdan imtina təşkil edir.

Qeyd etmək lazımdır ki, ikili (çox) vətəndaşlıq məsələsi həm dövlətlər, həm də ikili vətəndaşlığa malik şəxslər üçün bir sıra xoşagəlməz nəticələrin yaranmasına səbəb olur. Bildiyimiz kimi, vətəndaşlıq dövlət ilə vətəndaş arasında sabit siyasi və hüquqi əlaqənin mövcud olması deməkdir, eyni vaxtda isə iki və daha artıq dövlətə münasibətdə loyallığın qorunması kifayət qədər mürəkkəb məsələdir.

Beynəlxalq-hüquqi praktikada dövlətin suverenliyi prinsipinə əsaslanan belə bir qayda mövcuddur ki, başqa ölkənin vətəndaşlığına malik ölkə vətəndaşına

münasibətdə dövlət, digər dövlətin də vətəndaşlığı faktının olmasını nəzərə almadan, bütün vəziyyətlərdə bu şəxslərə birbaşa öz vətəndaşları ilə bağlı olan münasibətləri tətbiq edir. İkili vətəndaşlığı olan şəxsin hüquqi vəziyyətini çətinləşdirən digər hal ondan ibarətdir ki, şəxsi öz vətəndaşı hesab edən hər bir dövlət ondan öz vətəndaşlıq vəzifələrinin tam icra edilməsini tələb edə bilər. Həmçinin, ikili vətəndaşlığa malik şəxslərin vətəndaşı olduğu dövlətlərdə tam hüquqlu vətəndaşlığının təmin olunması vəziyyəti, dövlətlər üçün də bir sıra arzuolunmaz nəticələrə səbəb olur.

İkili vətəndaşlıq səbəbindən dövlətlərə çətinlik yaradan belə arzuolunmaz nəticələr arasında ən çox vurğulanan odur ki, ikili (çox) vətəndaşlığa sahib şəxslərə münasibətdə hüquqların reallaşdırılması həm vətəndaşı olduğu dövlətlər, həm də üçüncü dövlətlər üçün hər zaman istənilən səviyyədə mümkün olmur. Bipatrizm həmçinin casusluqla bağlı nəzarətin həyata keçirilməsində də bir sıra çətinliklər yaradır. Bu səbəbdən hətta bəzi hallarda dövlətdə ikili (çox) vətəndaşlığın olması milli təhlükəsizliyə qarşı ciddi təhlükə kimi qiymətləndirilir.

İkili (çox) vətəndaşlıqla bağlı qeyd olunan mənfi hallardan əlavə, çox vətəndaşlıq sahəsində beynəlxalq-hüquqi tənzimetmə tələb edən ən azı iki ciddi problem daha mövcuddur. Bu ikili (çox) vətəndaşlığa malik şəxslərin diplomatik müdafiəsinin təmin edilməsi və hərbi xidmət məsələləridir.

Həm dinc, həm də hərbi vəziyyət dövründə bipatridlər tərəfindən hərbi mükəlləfiyyətlərin yerinə yetirilməsi ilə bağlı məsələlər əksər hallarda dövlətlərarası mübahisələrin başlıca mövzusuna çevrilmişdir. Elə vəziyyət yarana bilər ki, ikili (çox) vətəndaşlığa malik olan şəxs vətəndaşı olduğu ölkələrdə hərbi xidmətə çağrıla bilər və belə olan halda şəxs hərbi qulluğu yalnız bir dövlətdə keçməlidir. Belə şəxslər vətəndaşı olduqları digər dövlətlər tərəfindən hərbi mükəlləfiyyətdən boyun qaçırma və ya xarici dövlətdə hərbi xidmət keçmə səbəbi ilə aidiyyatı dövlətlərin yurisdiksiyaları çərçivələrində olduqları halda məsuliyyətə cəlb edilə bilərlər.

Dövlətlər öz aralarında ikili vətəndaşlığı məhdudlaşdıran, şərait yaradan və ya icazə verən ikitərəfli və çoxtərəfli beynəlxalq razılaşmaların bağlanması yolu ilə bipatridlərin hərbi öhdəlikləri ilə bağlı məsələlərdə razılığa gəlməyə çalışırlar. Belə razılıqlara misal olaraq, Çoxvətəndaşlıq hallarının azaldılmasına və çoxvətəndaşlıq

hallarında hərbi mükəlləfiyyət məsələlərinə dair 1963-cü il Konvensiyasını, Vətəndaşlıq haqqında 7 noyabr 1997-ci il tarixli Avropa Konvensiyasını və bir çox ikitərəfli müqavilələri göstərə bilərik.

İlk olaraq bildirməliyik ki, adıçəkilən bütün müqavilələrdə nəzərdə tutulur ki, razılığa gələn dövlətlərdən hər birinin vətəndaşlığına malik şəxslər hərbi xidməti bu dövlətlərdən yalnız birində keçməlidirlər. Məsələn, Çoxvətəndaşlıq hallarının azaldılmasına və çoxvətəndaşlıq hallarında hərbi mükəlləfiyyət məsələlərinə dair 1963-cü il Konvensiyasına əsasən 19 yaşı tamam olana qədər bipatrid şəxslərə vətəndaşı olduğu dövlətlərdən birində hərbi xidmətdən keçməsinə dair seçim hüququ verilir, əks təqdirdə hərbi xidmətə daimi yaşadığı dövlət ərazisində cəlb olunur[86, 121]. Oxşar müddəalar Vətəndaşlıq haqqında 1997-ci Avropa Konvensiyasında da öz əksini tapmışdır.

İkincisi, ikili vətəndaşlığa malik şəxs yuxarıda qeyd olunan müqavilələrə əsasən razılığa gələn dövlətlərin birində həmin dövlətin milli qanunvericiliyində nəzərdə tutulmuş şərtlərə görə hərbi xidmətdən keçmişdirsə, vətəndaşı olduğu digər dövlətin də hərbi mükəlləfiyyətini başa vurmuş hesab ediləcəkdir.

Üçüncüsü, bu müqavilələrin əksəriyyəti ilə müəyyənləşdirilir ki, bipatridin vətəndaşı olduğu razılaşan tərəflərdən biri barəsində yerinə yetirilmiş hərbi mükəlləfiyyəti, vətəndaşı olduğu başqa tərəf üçün müqavilənin və ya konvensiyanın qüvvəyə minməsinə qədər olan dövr üçün də keçərli hesab edilir.

İkili (çox) vətəndaşlığa malik şəxslər üçün məcburi hərbi xidmət problemini bəzi hallarda daxili qanunvericilik vasitəsilə qismən həll etmək mümkün olur. Belə ki, əksər dövlətlər tərəfindən hərbi xidmətə çağırış yalnız ölkədə yaşayan vətəndaşlarına münasibətdə şamil edilir və daimi olaraq xaricdə yaşayan vətəndaşları üçün istisnalar edirlər.

Fərd üçün hərbi xidmət keçməsi ilə bağlı ən kəskin vəziyyət vətəndaşı olduğu dövlətlər arasında müharibə başlaması halında yarana bilər. Beynəlxalq hüquq baxımından bu məsələyə birmənalı cavab verilməsi mümkünsüzdür. Ola bilər ki, səfərbərlik dövründə daimi olaraq yaşamadığı dövlət ərazisində olması səbəbindən bu vəzifənin icrası bilavasitə vətəndaşın üzərinə qoyulacaqdır.

Bu yanaşma ikili (çox) vətəndaşlıqla bağlı bir sıra razılaşmalarda nəzərdə tutulmuş belə bir müddəa ilə izah olunur ki, “effektiv vətəndaşlıq” prinsipinə uyğun olaraq razılaşan dövlətlərdən hər hansı birində səfərbərliyin elan olunması, bu dövlət tərəfindən öhdəliklərin yerinə yetirilməsi vacibliyini ortadan qaldırmış olur. Ancaq belə olan vəziyyətdə, hərbi əməliyyatlar başa çatdıqdan sonra, vətəndaşı olduğu dövlətə qarşı vuruşmuş şəxs üçün mənfi nəticələrin olması qaçılmazdır, baxmayaraq ki, bu şəxs vətəndaşı olduğu digər dövlət tərəfində vuruşmuşdur.

Dinc dövrdə hərbi xidmət məsələsi ilə bağlı öhdəliyin yerinə yetirilməsi effektiv vətəndaşlıq prinsipi və ya dövlətlərdən birinin könüllü seçilməsi əsasında həll edilə bilirsə, hərbi münaqişələrin olması halında vətəndaşı olduğu dövlətlərdən birində hərbi mükəlləfiyyətlərin yerinə yetirilməsinə görə bipatridlər digər vətəndaşı olduğu dövlət tərəfindən satqın hesab edilə bilər və hətta vətəndaşlıqdan məhrum edilə bilərlər.

İkili (çox) vətəndaşlığı olan şəxslərin dövlətin siyasi həyatında iştirak edə bilməsi və onların dövlət idarələrində xidmət etməsi məsələləri əksər vaxtlarda dövlət daxilində müxtəlif mübahisələrin mövzusuna çevrilmişdir. Bu məsələlərin nizama salınması dövlətlərin səlahiyyətləri çərçivəsinə aid edilmişdir və bipatridlərə hansı hüquq və azadlıqların verilməsi məsələsi dövlətlərin özləri tərəfindən müəyyən olunur. Belə ki, bu məsələlərin həllində dövlətin vətəndaşlıqla bağlı siyasəti, iqtisadi və siyasi müstəqilliyi, əhalinin sayı və etnoqrafik vəziyyət kimi bir sıra faktorların nəzərə alınması vacibdir. Demək olar ki, bütün dövlətlərdə dövlət və vətəndaşlıq xidmətləri ilə bağlı hüquqların tətbiqi nəzərdə tutulmuşdur. Dövlətdə qulluq etmək hüququ ilə bağlı müddəalar həm 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, həm də 1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda əks olunmuşdur. Lakin bəzi dövlətlərdə bu hüququn həyata keçirilməsi dövlət təhlükəsizliyinin təmin edilməsi səbəbindən məhdudlaşdırılır.

Məlum olduğu kimi, şəxsin, cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin edən başlıca subyekt elə dövlətin özüdür. İkili (çox) vətəndaşlığı olan şəxslərin dövlət xidmətinə buraxılmaları ilə bağlı dövlətlərdə fərqli yanaşmalar mövcuddur. Məsələn, elə dövlətlər vardır ki, ikili vətəndaşlığa sahib şəxslərin dövlət qulluqçusu olmasına

icazə vermir (İsveç, Yunanıstan). İsraildə dövlət qulluqçusu olmaq istəyən bipatridlər mütləq qaydada bu dövlətin ordusunda, hətta əgər belə şəxslər digər dövlətdə hərbi xidməti keçmiş olsalar belə hərbi xidmətdən keçməlidirlər. Bir sıra Latın Amerikası ölkələrində ikili (çox) vətəndaşlığa sahib şəxslər dövlət qulluğuna qəbul edildikləri andan başqa vətəndaşlıqlarını avtomatik qaydada itirirlər.

İkili (çox) vətəndaşlıq institutunun obyektiv qiymətləndirilməsi üçün müxtəlif mümkün mənfi nəticələrlə yanaşı, bu institutun müsbət tərəflərini də nəzərə almaq lazımdır. Hal-hazırda ikili (çox) vətəndaşlığın müsbət tərəflərini vurğulayan kifayət qədər elmi təhlillər mövcuddur. Şəxs tərəfindən ikili (çox) vətəndaşlığın alınması adətən daha geniş azadlıq və sərbəstliyin əldə olunmasına xidmət edir, baxmayaraq ki, bu vəziyyət nəticədə bipatridlərin hərəkətləri üzərində dövlət nəzarəti səviyyəsinin azalmasına səbəb olur. İkili (çox) vətəndaşlığın müsbət nəticələri arasında E.V.Mixaylova şəxsi hüquq və azadlıqların müdafiəsi və reallaşdırılması ilə bağlı əlavə zəmanətin verilməsi, qarışıq nikaha daxil olarkən vətəndaşlığın saxlanması, dövlətlərin ərazisində yaşamaqla bağlı sadələşdirilmə, reimiqrasiya və ölkəyə təkrar qayıtmaqla bağlı yüngülləşdirici halların olması kimi bir sıra vəziyyətləri sadalayır[37, 72]. Həmçinin, ikili (çox) vətəndaşlığı olan şəxslərin say nisbətinin çox olması dövlətlərarası mövcud əlaqələrin intensivləşdirilməsinə də köməklik göstərə bilər.

İkili (çox) vətəndaşlığın tanınmasının bir sıra üstünlükləri qeyd edilə bilər. Belə ki, hazırda yaşadığı ərazi üzrə bütün hüquqlara sahib olmaqla yanaşı, əhalinin bu qrupu “tarixi vətən”lərinə maneəsiz gediş-gəliş, orda yaşayan qohumları ilə əlaqə saxlamaq, istədikləri zaman ödənişsiz təhsil almaq, tibbi xidmətdən ödənişsiz istifadə etmək, sahibkarlıqla məşğul olmaq və ehtiyac yaranarsa həmişəlik ora köçmək kimi bir sıra üstünlüklərə sahib olurlar. Bir zamanlar vahid olan dövlətin parçalanması ilə yaranmış mürəkkəb vəziyyətdə ikili vətəndaşlığın qadağan edilməsi bir sıra çətinliklər yarada bilər. Bu səbəbdən hətta müəyyən şərtlər altında olsa belə ikili vətəndaşlığa imkanın verilməsi, ikili vətəndaşlığın tam mənada qadağan edilməsindən daha demokratik addımdır.

İkili (çox) vətəndaşlığın tanınması ilə bağlı məsələyə toxunarkən başlıca olaraq, müvafiq şəraitdə ikili vətəndaşlıq institutunun müsbət və mənfi tərəflərinin optimal balanslaşdırılmasına diqqət yetirmək lazımdır. Yəni, imkan daxilində vətəndaşlıqla bağlı mövcud bütün çətinlikləri müştərək qaydada tənzimləyə bilmək və zərərli nəticələri aradan qaldırmaq zəruridir. Bu çərçivədə, problemin səmərəli həll edilə bilməsi üçün effektiv tədbirlərin görülməsini təşviq etmək və sonrakı mərhələdə ikili (çox) vətəndaşlıq institutunu tənzimləyən vahid hüquq çərçivəsinin yaradılmasına nail olmaq lazımdır.

Eyni zamanda, ikili (çox) vətəndaşlıq institutunu tənzimləyən belə vahid hüquq çərçivəsinin yaradılması üçün ilk növbədə, vahid ümumbəşəri dünyagörüşünə, əxlaqi dəyərlərə və mənəvi prinsiplərə əsaslanan, dövlətlərin əksəriyyəti tərəfindən razılaşdırılmış və məqsədyönlü siyasətin olması vacibdir. Həmçinin, dövlətlərin bu sahədə mövcud hüquq sistemlərinin maksimal səviyyədə yaxınlaşdırılmasına çalışmaq lazımdır. Qeyd etmək lazımdır ki, təcrübədə bir neçə dövlətin vətəndaşı olan şəxslərin sayının getdikcə artığının şahidi oluruq. Yuxarıda da qeyd etdiyimiz kimi, əksər dövlətlər ikili (çox) vətəndaşlığa ya icazə verirlər, ya da formal şəkildə təşviq edirlər, həmçinin bu sahədə yaranan problemləri müvəffəqiyyətlə həll edirlər. Bir sözlə, insan hüquq və azadlıqlarının genişləndirilməsini əsas tutaraq bu problemin hüquqi həllini tapmaq daha düzgün yol hesab edilməlidir.

2.2. Vətəndaşlığı olmayan şəxslərin hüquqi müdafiəsi problemi

Vətəndaşlığı olmayan şəxslər - müəyyən bir dövlətin ərazisində yaşayan, lakin onun vətəndaşı olmayan, eyni zamanda xarici dövlətin vətəndaşlığına məxsusluğuna dair sübutlara malik olmayan şəxslərdir.

Beynəlxalq insan hüquqları üzrə məşhur mütəxəssis Devid Veissbrout qeyd edir ki, vətəndaşlığı olmayan şəxslərin vətəndaşlığa öz hüququnu reallaşdıra bilməsini təmin etmək üsullarından biri (Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 15-ci maddəsində nəzərdə tutulan kimi) həqiqi və effektiv əlaqə doktrinası vasitəsilə həyata keçirilir. Bu doktrinaya əsasən, insan dövlətlərdən vətəndaşlığın alınması hüququna malik olmalıdır, hansılarla ki, həqiqi və effektiv əlaqəyə malikdir. Ən azı, şəxs ölkənin

vətəndaşlığı hüququna malik olmalıdır, hansı ilə ki, o, ən yaxın əlaqədədir. Dövlətlə əhəmiyyətli əlaqə, məsələn, uzun müddət dövlətin ərazisində yaşama, dövlətin ərazisində doğulma və s. məsələlərlə bağlı meydana çıxa bilər. Həqiqi və effektiv əlaqə doktrinası vətəndaşsızlıq probleminin aradan qaldırılması üzrə çox vacib üsuldur. Həqiqətən, çətin ki, dövlətlə həqiqi və effektiv əlaqəsiz insan tapılsın. Ancaq, praktik məsələ kimi, suveren dövlət müəyyən etmək hüququna malikdir ki, kim öz vətəndaşlığını əldə edir. Ancaq bu hüquq müvafiq beynəlxalq standartlara və qanunlara uyğun olmalıdır. Ən azı, bu standartlar dövlətlərə vətəndaşsızlıq hallarını azaltmağa, dövlətləri vətəndaşlığı olmayanların insan hüquqlarına hörmət etməyə və dövlətləri vətəndaşlığı dövlət sərhədlərində doğulmuş bütün uşaqlara verməyə məcbur etməklə onların üzərinə beynəlxalq öhdəlik qoyur[104, 276].

Elmi ədəbiyyatlarda əksər müəlliflər vətəndaşsızlığın meydana gəlməsinin aşağıdakı hallarını qeyd edir: şəxs öz dövlətinin vətəndaşlığından çıxmışdırsa və hələ də digər dövlətin vətəndaşlığını qəbul etməmişdirsə; “arvad ərin vətəndaşlığına qəbul olunmalıdır” prinsipini əsas götürən dövlətin vətəndaşı olan qadın xarici dövlətin vətəndaşı ilə nikaha daxil olmuşdursa (həmin əcnəbinin vətəndaşı olduğu dövlətin qanunvericiliyi bu qadına avtomatik olaraq öz vətəndaşlığını təqdim etmirsə).

Bir dövlətin vətəndaşlığının əldə edilməsi və başqa dövlətin vətəndaşlığının itirilməsi şərtlərinin müxtəlif şəkildə nizama salınmasına görə, həmçinin vətəndaşlığın əldə edilməsi və itirilməsinin müxtəlif prinsiplərinə, müxtəlif meyarlarının mövcudluğuna görə belə bir vəziyyət yaranır ki, müəyyən fiziki şəxs dövlətlərdən heç birinin vətəndaşlığının əldə edilməsi şərtlərini yerinə yetirmir və heç bir dövlət həmin şəxsi öz vətəndaşı hesab etmir, nəticədə bu şəxs vətəndaşlığı olmayan şəxs və ya apatrid statusu əldə etmiş olur [21, 85].

Vətəndaşlıq institutunda vətəndaşlığı olmayan şəxslərin statusunun nizama salınması problemi ən mürəkkəb problemlərdən biridir. Apatrizm dövlətlər üçün arzu edilməyən haldır və hətta vətəndaşlığı olmayan şəxslərin giriş və çıxışının nizama salınması ilə bağlı beynəlxalq mübahisəli vəziyyətlər və münaqişələr üçün şərait yarada bilər (xüsusilə də onların başqa dövlətlərə göndərişi ilə bağlı).

Apatrizm çərçivəsində vətəndaşlığı olmayan şəxslərin meydana çıxması səbəblərinə əsaslanaraq, iki növ: "mütləq" və "nisbi" apatrizm müəyyən edilir. Mütləq vətəndaşsızlıq doğum üzrə yaranır (məsələn, müəyyən şəxsin valideynləri, vətəndaşlığa malik deyil və bu şəxs "qan hüququ"na tərəfdar olan dövlətin ərazisində doğulduğu üçün o, heç bir vətəndaşlıq əldə etmir). Nisbi apatrizm isə vətəndaşlığın itirilməsi nəticəsində meydana çıxır. Həmçinin "de jure" və "de facto" vətandaşsızlıq da fərqləndirilir[88, 31-45]. Qaçqınlar, əgər onları "de jure" vətəndaşlığı olmayan şəxslər kimi tanımayıblarsa, "de facto" vətəndaşlığı olmayan şəxslərdir.

Vətəndaşsızlığın yaranmasının müxtəlif variantları ola bilər. Bu hal həmçinin şəxsin bir dövlətin vətəndaşlığından çıxması və digər vətəndaşlığı əldə etmənin qeyri-mümkünlüyü zamanı yarana bilər. Apatrizm nikahın bağlanması nəticəsində də yarana bilər. Məsələn, əcnəbi ilə nikaha daxil olan qadın öz vətəndaşlığını itirirsə və ərin dövləti ona vətəndaşlığı avtomatik vermirsə, onda həmin qadın vətəndaşlığı olmayan şəxs olur. Həmçinin Dövlətlərin hüquq varisliyi ilə əlaqədar vətəndaşsızlığa yol verilməməsi haqqında Avropa Şurasının 2006-cı il Konvensiyasının preambulasında vurğulanır ki, vətəndaşsızlığın əsas mənbələrindən biri dövlətlərin hüquq varisliyi ilə bağlıdır [51, 1431].

Vətəndaşlığı olmayan şəxslər ərazisində yaşadıqları dövlətdə hüquqların və azadlıqların daha kiçik həcminə malikdirlər. Bir qayda olaraq, onların mülki və siyasi hüquqlardan istifadəsi məhdudlaşdırılmışdır, diplomatik müdafiəyə görə müraciət etmək imkanından isə məhrumdurlar.

Vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusunda fərqlər isə kifayət qədər əhəmiyyətli məsələdir. Bu məsələyə hüquq ədəbiyyatlarında, beynəlxalq təşkilatların fəaliyyətində dəfələrlə diqqət ayrılmışdır. Məsələn, 1980-ci ildə Azlıqlarının müdafiəsi və ayrı-seçkiliyə qarşı mübarizə üzrə BMT Alt Komissiyasının xüsusi məruzəçisi Baronessa Ellis tərəfindən "Olduqları dövlətin vətəndaşı olmayan şəxslər barəsində insan hüquqlarının beynəlxalq müdafiəsi haqqında" Məruzə hazırlanmışdı. Həmin məruzədə qeyd edilən problemlərin həlli üzrə bir sıra aktual istiqamətlər müəyyən edilmişdir.

Ümumiyyətlə, Avropadakı milli azlıqlar üçün, həmçinin bütövlükdə beynəlxalq birlik çərçivəsində vətəndaşlıq və ya ikili vətəndaşlıq problemi daha qlobal bir problemin, yəni identiklik probleminin bir hissəsidir. İdentiklik problemi öz müqəddəratını təyin etmək və qərar vermək hüququ ilə bağlıdır. Vətəndaşlıq məsələsinə gəldikdə, milli azlıqların araşdırmalı olduğu bir neçə sahə var və olmalıdır. Azlıqlara mənsub olan insanları qorumağın ən optimal yolu həmin məsələnin həllini müvafiq azlıqların ixtiyarına buraxmaq, onlara seçim imkanı verməkdir [98, 7].

Vətəndaşlığı olmayan şəxslərin təhsil, məşğulluq və mənzil məsələlərində sosial-iqtisadi vəziyyəti çox zəifdir. Hətta vətəndaşlarla bərabər səviyyədə işə düzəlməyə və yaşamağa icazə hüququ almış immiqrantlar (apatrid statusunda olanlar) da fəaliyyətin ictimai sferasında iş tapmaqdan məhrum olurlar. Məsələn, ABŞ-ın bəzi ştatlarında inzibati və məhkəmə orqanlarında iş yerləri yalnız ABŞ vətəndaşları üçün keçərlidir, çünki, məhz onların dövlətin idarə edilməsində iştirak etmək hüququ var. Belə məhdudiyyətlər əksər ölkələrdə mövcuddur.

Lakin qeyd etmək lazımdır ki, xarici kapitalın cəlb edilməsi, ucuz işçi qüvvəsi və s. məqsədlər üçün bir sıra dövlətlərdə dövləti maraqlar nəzərə alınmaqla texniki və işçi personal barəsində qaydalardan istisnalar nəzərdə tutulur [75, 5]. Sahibkarlıq fəaliyyəti sahəsində əsasən bütün ölkələr vətəndaşların və başqa hüquqi statuslu şəxslərin hüquq bərabərliyi prinsipinə əsaslanırlar. Amma bəzi ölkələrdə vətəndaşlığı olmayan şəxslər üçün fəaliyyətin bu növünə xüsusi icazə lazımdır, hansılar ki, oturaq həyatın kifayət etməyən müddətinə malikdirlər. Məsələn, Almaniyada bunun üçün 8 il daimi yaşayış hüququna malik olmaq lazımdır. Bütün bunlar vətəndaşlığı olmayan şəxslərin dövlət tərəfindən xüsusi sosial müdafiəyə ehtiyacı olduqlarını göstərir.

Vətəndaşlığı olmayan şəxslər əməyə öz qabiliyyətləri ilə göstəriş vermək, fəaliyyət növünü və peşəni seçmək, istirahət, sosial təminat, sağlamlığın qorunmasını, təhsil almaq, mənzilə sahib olmaq, sahibkar olmaq hüquqlarına malikdirlər. Onlar vətəndaşlara verilmiş azadlıqlardan (söz, fikir, vicdan və s.) istifadə edirlər və onların şəxsiyyətin toxunulmazlığı və mənzil toxunulmazlığı hüquqları təmin olunur.

Ancaq bu kateqoriya şəxslərin siyasi və hüquqi statusu müxtəlif dövlətlərdə özünəməxsus xüsusiyyətlərə malikdir. Onlar seçmək və seçilmək hüququna malik deyillər, silahlı qüvvələrdə xidmətə çağırılmırlar, onların məşğuliyyət növünü seçmək hüququ bir qədər məhdudlaşdırılmışdır, vətəndaşlığı olmayan şəxslər bir sıra vəzifələr tuta bilmirlər, əgər qanunvericiliyə uyğun olaraq bu vətəndaşlıq meyarının olması ilə bağlıdırsa.

Belə bir fikirlə razılaşmaq olar ki, vətəndaşsızlıq insan hüquqlarında mənfi baxımdan özünü büruzə verir. Bu səbəbdən dövlətlər milli qanunvericilik səviyyəsində, beynəlxalq ictimaiyyət isə beynəlxalq konvensiyaların bağlanması yolu ilə vətəndaşlığı olmayan şəxslərin sayının artması, ümumilikdə vətəndaşsızlıq hallarının azaldılması üzrə mühüm fəaliyyət həyata keçirirlər.

Bir çox dövlətlər, həmçinin AR, vətəndaşsızlıq hallarının ixtisarında maraqlıdır. Əksər dövlətlərin qanunvericilikləri xarici vətəndaşlar tərəfindən və vətəndaşlığı olmayan şəxslər tərəfindən vətəndaşlığın əldə edilməsinin mexanizmlərini nəzərdə tutur. Bundan başqa, dövlətlər vətəndaşsızlığın yaranmasına mane olan bir sıra qayda və prosedurlar da müəyyən edirlər. Bir qayda olaraq, həmin qaydalar doğum nəticəsində vətəndaşlığın əldə edilməsi və itkisi, nikaha daxil olma məsələlərinə toxunur. Həmin qayda və prosedurlarda çox zaman könüllü şəkildə müvafiq dövlətlə faktiki əlaqəni kəsən və ya həmin dövlətin suverenliyinə qarşı yönəldilmiş fəaliyyətlə məşğul olan şəxslərin vətəndaşlıqdan məhrum edilməsi ilə bağlı məsələlər tənzimlənmir.

Nikaha daxil olma vaxtı vətəndaşsızlığın yaranması imkanı bir sıra dövlətlərin qanunvericiliyində növbəti şəkildə inkar olunur: ya müəyyən edilir ki, nikaha daxil olmaq ər-arvadın vətəndaşlığına təsir etmir, ya da nikaha daxil olan vaxtı vətəndaş-lığını itirən qadına yeni vətəndaşlıq verilir.

Dövlətlər vətəndaşsızlığının mövcud hallarını adətən növbəti qaydaları tətbiq etməklə aradan qaldırırlar: vətəndaşlığı olmayan şəxslərə vətəndaşlıq hüququ ver-mək; vətəndaşlıqdan çıxarmaqdan imtina etmək; vətəndaşsızlığın aradan qaldırılmasına yönəlmiş ümumi və ya xüsusi xarakterli qanunlar qəbul etmək.

SSRİ-nin dağılmasına qədər İttifaq çərçivəsində vətəndaşlığı olmayan şəxslərin sayının ixtisarı üzrə sabit tendensiya müşahidə olunurdu, həm daxili, həm də beynəlxalq qanunvericilik bu istiqamətdə birmənalı mövqedə dayanmışdı. Hal-hazırda bu proses kifayət qədər zəifləmiş və hətta MDB ölkələrində vətəndaşlığı olmayan şəxslərin sayının artımı müşahidə olunur. Bu hadisənin əsas səbəbi hər şeydən öncə, keçmiş müttəfiq respublikalarının qanunvericiliyində ikili vətəndaşlığın inkarı, vətəndaşlığa qəbul vaxtı müxtəlif növ baryerlərin mövcudluğudur.

Beləliklə, vətəndaşlarla vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri arasında müəyyən fərqlər avtomatik olaraq yaranmış olur. Məsələn, İnsan hüquqları üzrə Latviya Xidməti vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri arasında 68 fərqdən ibarət siyahını hazırlamışdır [68, 11].

Vətəndaşsızlığın ixtisarı üzrə beynəlxalq hüquqi normalar bir sıra beynəlxalq konvensiyalarda öz əksini tapmışdır. 12 iyun 1930-cu il Vətəndaşlıq məsələləri üzrə Haaqa Konvensiyasının preambulasında qeyd edilir ki, bütün bəşəriyyət vətəndaşlığın materiyası çərçivəsində apatrizm hallarının tamamilə ləğvinə bir ideal kimi cəhd etməlidir [44, 100]. Konvensiyanın 7-ci maddəsinə əsasən bir dövlətin vətəndaşlığın-dan çıxan şəxs digər bir dövlətin vətəndaşlığını əldə edənə qədər ilkin vətəndaşlığını itirməməlidir. Qadının əcnəbi ilə nikaha daxil olması və ya əri tərəfindən vətəndaşlığının dəyişdirilməsi, həmin qadının apatridə çevrilməsinə əsas verməli deyildir.

Haaqa Konvensiyasında çox vacib bir məqama da aydınlıq gətirilir. Naməlum şəxslərin uşaqları doğum yerləri üzrə və ya aşkar edildikləri yer üzrə vətəndaşlıq əldə etməlidirlər (m. 14, 15). Əgər uşağın övladlığa götürülməsi uşağın əvvəlki vətəndaşlığının itirilməsinə səbəb olursa, onda belə itki yalnız o halda baş verə bilər ki, uşaq eyni zamanda övladlığa götürənlərin vətəndaşlığını əldə etsin (m. 16, 17) [120].

1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi vətəndaşlıq hüququnu bəyan edir (md. 15.1). Həmin maddənin 2-ci hissəsində göstərilir ki, heç kim öz vətəndaslığından və öz vətəndaslığını dəyismək hüququndan məhrum edilə bilməz. Beynəlxalq hüquq əhəmiyyətli dərəcədə vətəndaşlığı olmayan şəxslərin

hüquqi statusunun yaxşılaşmasına kömək etmişdir, hansı ki, onları əcnəbilərin statusuna yaxınlaşdırır, xüsusilə də bu 1954-cü il Vətəndaşlığı olmayan şəxslərin statusu haqqında Konvensiyada öz əksini tapmışdır. Konvensiya vurğulayır ki, hər bir vətəndaşlığı olmayan şəxsin olduğu ölkə barəsində öhdəlikləri mövcuddur, bu öhdəlik ictimai asayişin qurunması üçün qüvvədə olan qanun və qaydalara riayət etməni nəzərdə tutur (m. 2). Konvensiyada həmçinin göstərilir ki, razılığa gələn dövlətlər vətəndaşlığı olmayan şəxslərə hazırkı Konvensiyanın müddəalarını irqi, dini və ya onların mənşəyindən asılı olmadan tətbiq edəcəklər. Eyni zamanda, Konvensiya, vətəndaşlığı olmayan şəxslərə Konvensiya ilə verilən hüquq və azadlıqlardan başqa, digər hüquqların verilməsini qadağan etmir (m. 5). Konvensiya əcnəbilərin statusu ilə vətəndaşlığı olmayan şəxslərin statusunu bərabərləşdirməyi dövlətlərin üzərinə öhdəlik kimi qoyur, burada söhbət dövlətdaxili hüquq üzrə statusdan gedir (m. 7) [121]. Bu, yerli dövlət tərəfindən diplomatik müdafiəyə hüquqları nəzərdə tutmur, hansılara ki, əcnəbilər malikdirlər, həmçinin onların ölkəsi ilə müqavilələrlə nəzərdə tutulmuş hüquqlara da şamil edilmir. Hər bir vətəndaşlığı olmayan şəxs razılığa gələn dövlətlərin ərazilərində məhkəmələrə azad çıxış hüququna malikdir (m. 16). Razılaşan dövlətlər onların ərazisində qanuni yaşayan vətəndaşlığı olmayan şəxslərə işə düzəlməkdə əcnəbilərin istifadə etdiyi daha əlverişli rejimi təqdim edirlər.

Vətəndaşlığı olmayan şəxslər müəyyən şərtlər daxilində qarşılıqlılıq prinsipindən istisna qaydasında hüquq və güzəştlərdən istifadə edirlər. Xarici dövlətin vətəndaşlarına və ya keçmiş vətəndaşlarına qarşı tətbiq edilən müstəsna tədbirlər, vətəndaşlığı olmayan şəxslərə o əsasda tətbiq edilə bilməz ki, onlar daha əvvəl bu dövlətin vətəndaşlığına malik idilər. Amma fövqəladə hadisələrdə dövlət onlara elə müvəqqəti ölçüləri tətbiq edə bilər ki, hansıları ki milli təhlükəsizlik baxımından lazım olan hesab edəcəkdir.

1954-cü il Konvensiyası ilə yalnız *de jure* vətəndaşlığı olmayan şəxslər əhatə olunur, *de facto* vətəndaşlığı olmayan şəxslər isə bura aid edilmir. Qaçqınlar yalnız o halda bu Konvensiyanın əhatə dairəsinə düşürlər ki, hansında ki, onlar *de jure* vətəndaşlığı olmayan şəxsi hesab edilirlər. 1954-cü il Konvensiyası iştirakçı-

dövlətlərin ərazisində vətəndaşlığı olmayan şəxslər üçün müəyyən hüquqi rejim yaradır. Konvensiya onların şəxsi statusunu müdafiə edir, əmlak hüquqlarını müdafiə edir, təhsil, sahibkarlıq fəaliyyəti, işə düzəlmə sahəsində bəzi güzəştləri nəzərdə tutur və s. Bu Konvensiya iştirakçı-dövlətlərə, onların ərazisində yaşayan əcnəbi vətəndaşların istifadə etdiyi hüquqi rejimdən az olmayan hüquqi rejimin vətəndaşlığı olmayan şəxslərə təqdim edilməsini həvalə edir. Vətəndaşlığı olmayan şəxslər o dövlətin ərazisində hüquqların bütün kompleksindən istifadə edirlər ki, harada ki, onlar daimi yaşayış yerinə malikdirlər.

1961-ci il tarixli Vətəndaşsızlıq hallarının ixtisarı haqqında Konvensiya iştirakçı-dövlətlərə onun ərazisində doğulmuş istənilən şəxsə vətəndaşlıq verməyi həvalə edir, hansı ki, digər halda həmin şəxslər vətəndaşlığı olmayan şəxslər olardı. Belə hallarda vətəndaşlıq ya qanuna uyğun olaraq doğum zamanı və ya şəxsin və ya onun nümayəndəsinin müraciəti üzrə verilir. Dövlətin ərazisində aşkar edilmiş naməlum valideynlərin uşaqları da həmçinin "torpaq hüququ" üzrə vətəndaşlıq əldə edirlər. Bu məsələ ilə əlaqədar qeyd etmək lazımdır ki, bu gün çox az sayda dövlətlər, uşağın vətəndaşlığının müəyyən edilməsi vaxtı valideynlərdən birinə üstünlük verilir. Ehtimal ki, bu məsələ valideynlərin razılığı ilə həll edilir.

Konvensiya vətəndaşlıqdan imtinanı mümkün hesab edir və şəxsin vətəndaşlıqdan məhrum edilməsi prinsipini rədd edir (əgər bunun nəticəsində o vətəndaşlığı olmayan şəxs olursa). Amma qanunazidd yolla əldə edilmiş vətəndaş-lığın ləğvi və ya şəxsin belə vətəndaşlıqdan məhrum edilməsi qanuni hesab edilir. Ancaq qeyd etmək lazımdır, bəzi dövlətlər də vətəndaşlığın verilməsi üçün, əvvəlki vətəndaşlığından imtina və bu faktı sübut edən müvafiq sənədlərin təqdim olunması tələb edir. Konvensiya həmçinin vətəndaşlığı olmayan şəxslərin sayının azaldılması üzrə və müəyyən ərazinin suverenliyinin dəyişikliyi vaxtı razılığa gələn dövlətlərin vəzifələrini dəqiqləşdirir.

Vətəndaşlığı olmayan şəxslər tərəfindən daimi yaşadığı dövlətin vətəndaşlığının əldə edilməsi üçün əlverişli rejimin yaradılması və ekspatriasiya zamanı şəxsin apatridə çevrilməsi hallarının qarşısının alınması bu Konvensiyanın

hədəfidir. Həmçinin Konvensiya vətəndaşlığı olmayan şəxslərin sayının azaldılması məqsədi ilə vətəndaşlığın əldə edilməsi və itirilməsi prosedurlarını unifikasiya edir.

Bundan əlavə, Konvensiyanın digər bir vacib xüsusiyyəti ondadır ki, burada vətəndaşlığı olmayan şəxslər tərəfindən Konvensiya iştirakçısı olan dövlətlərin onun müddəalarının yerinə yetirməmələrinə dair müraciətlərinə baxmaq səlahiyyəti olan beynəlxalq orqanın yaradılmasını nəzərdə tutan müddəaları özündə əks etdirir. BMT Baş Məclisinin 30 noyabr 1976-cı il tarixli Qətnaməsi ilə belə bir orqanın funksiyaları Qaçqınların işləri üzrə BMT Ali Komissarına həvalə edilmişdir.

1957-ci il tarixli Ərli qadının vətəndaşlığı haqqında Konvensiya qadının nikaha daxil olması nəticəsində vətəndaşsızlığın yaranması hallarının aradan qaldırması barədə müddəaları təsbit etmişdir.

Vətəndaşlıq haqqında 1997-ci il Avropa Konvensiyası vətəndaşsızlıq hallarının ixtisarlarına yönəlmiş bir sıra prinsiplər və müddəaları özündə saxlayır. 1997-ci il Konvensiyasının 4-cü maddəsində təsbit edilən vətəndaşlıq prinsipləri əsasən ümumtanınmış beynəlxalq hüquq prinsiplərindən və insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüququn əsas normalarından yaranmadır. Məsələn, bu Konvensiyada növbəti normalar təsbit edilmişdir: hər kəsin vətəndaşlıq hüququ; vətəndaşsızlıqdan çəkinmək öhdəliyi; vətəndaşlıqdan özbaşınalıqla məhrum etmənin yolverilməzliyi; nikaha daxil olma və ya onun pozulması, həmçinin ər-arvaddan biri tərəfindən vətəndaşlığın dəyişdirilməsi ər-arvadın vətəndaşlığı vəziyyətinə təsir etmir [101, 46].

Vətəndaşlıqdan məhrum edilmə üçün əsasların siyahısı Konvensiyanın 7-ci maddəsində göstərilmişdir. Vətəndaşlıq haqqında Avropa Konvensiyası dövlətlərə vətəndaşlıqdan məhrum etməni, əgər bu addım şəxsə vətəndaşlığı olmayan şəxs statusu qazandırırsa, qadağan edir. Lakin yalan və ya digər hüquqazidd yolla vətəndaşlığın əldə edilməsi halları istisnadır. Konvensiyada nəzərdə tutulur ki, iştirakçı-dövlət şəxsə vətəndaşlıqdan imtina etməyə icazə verə bilər, lakin belə imtina şəxsi apatridə çevirməməlidir.

1997-ci il Konvensiyasında həmçinin göstərilir ki, hər bir iştirakçı-dövlət öz daxili qanunvericiliyində vətəndaşlığı olmayan şəxslər tərəfindən onun vətəndaşlığının əldə etməsini yüngülləşdirən qaydalar nəzərdə tutmalıdır. Ancaq

Konvensiyada vətəndaşlığı olmayan şəxslər qarşısında hər hansı konkret öhdəliklər nəzərdə tutulmamışdır. Bu onunla bağlıdır ki, iştirakçı-dövlətlər hələlik vətəndaşlığı olmayan şəxslər qarşısında öz qanunvericiliklərində konkret öhdəlikləri müəyyən etməyə tam şəkildə hazır deyillər.

MDB çərçivəsində regional səviyyədə həmçinin vətəndaşlığı olmayan şəxslərin statusu ilə bağlı məsələlərin nizama salmasına yönəlmiş normaların yaradılması prosesi gedir. MDB iştirakçı-dövlətlərinin Parlamentlərarası Assambleyası 29 dekabr 1992-ci ildə Vətəndaşlığın nizama salmasının uyğunlaşdırılmış prinsipləri haqqında tövsiyə xarakterli Akt işləyib-hazırlamışdır. Bu sənəd MDB ölkələrində insan hüquqlarının müdafiəsinə və vətəndaşsızlıq hallarının ixtisarına yönəlmişdir. Bu sənəddə növbəti prinsiplərin əhəmiyyəti vurğulanır: hər bir insanın vətəndaşlığa və onun dəyişdirilməsinə hüququ, vətəndaşlığın bərabərliyi, sosial mənşəyinə, əmlak vəziyyətinə, irqi və milli mənsubiyyətinə, cinsinə, təhsilinə, dilinə, dininə, siyasi və digər baxışlarına, məşğuliyyətin xarakterinə görə şəxsin vətəndaşlıqdan məhrum edilməsinin yolverilməzliyi. Adıçəkilən sənəddə vətəndaşlığı olmayan şəxslər tərəfindən vətəndaşlığın əldə edilməsi təşviq edilir [36, 20-21].

Dövlətlərin əksəriyyəti vətəndaşsızlığa mənfi hadisə kimi baxırlar və öz dövlətdaxili, həmçinin beynəlxalq hüquq təcrübəsində onun aradan qaldırmasına cəhdlər göstərir. Bununla belə, vətəndaşsızlıq məsələsi vətəndaşlığın beynəlxalq nizama salmasında ən kəskin problemlərdən biri olaraq qalır. Bu onunla izah olunur ki, həmin beynəlxalq müqavilələrdə az sayda dövlətlər iştirak edirlər və ya iştirak etsələr belə, həmin beynəlxalq normaların implementasiyası üçün müvafiq tədbirlər görmürlər. Bu gün vətəndaşsızlığın qarşısının alınmasında aparıcı rol yenə də dövlətdaxili qanunvericiliyə məxsusdur. Bu səbəbdən vətəndaşsızlıq məsələlərinin həlli üçün vətəndaşlıq haqqında qanunlarda vətəndaşlıq üzrə beynəlxalq hüquqi prinsiplərin daxil edilməsi zəruridir. Eyni zamanda, vətəndaşlığın əldə edilməsi və itirilməsi məsələlərində vahid norma və prinsiplər formalaşdırılmalıdır. Bu sferada əhəmiyyətli addımlardan biri kimi 1997-ci il tarixli Vətəndaşlıq haqqında Avropa Konvensiyasını qeyd etmək olar.

Beləliklə, vətəndaşlığı olmayan şəxslər - hüquqi vəziyyəti bir qədər fərqli qaydada tənzimlənən və onlara xüsusi yanaşılmasını tələb edilən xüsusi kateqoriya şəxslərdir. Bu sahədə xüsusi beynəlxalq müqavilələrin qəbul edilməsi zəruriliyi bunu bir daha təsdiq etmişdir. Bütövlükdə, vətəndaşlığı olmayan şəxslər bəzi fərqlər istisna olmaqla, praktiki olaraq əcnəbilərlə bərabər hüquq, azadlıq və öhdəliklərə malikdirlər. Daha səmərəli tənzimetməyə nail olmaq üçün, vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu və vətəndaşsızlıq hallarının aradan qaldırılması üzrə qəbul edilmiş beynəlxalq müqavilə müddəalarının dövlətlərin milli qanunvericiliklərində işlək mexanizmləri yaradılmalıdır. Eyni zamanda, dövlətlərin milli qanunvericiliklərində vətəndaşsızlıq vəziyyətinə gətirib çıxara bilən bütün hallar tam şəkildə aradan qaldırılmalıdır.

2.3. Vətəndaşların diplomatik müdafiə hüququnun təmin edilməsi

Diplomatik müdafiə ilə əlaqədar məsələlər əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının təminatında mühüm yer tutur. Əcnəbilərin hüquqi vəziyyətini tənzim edən mühüm prinsip kimi əcnəbilərin vətəndaşlığı olduğu dövlət tərəfindən diplomatik müdafiə edilməsi prinsipinin çıxış etməsi bu nöqteyi-nəzərdən xüsusi qeyd edilməlidir. Artıq diplomatik müdafiə beynəlxalq hüququn elementar prinsipi kimi təsbit edilmişdir.

Diplomatik müdafiə hüququ bilavasitə dövlət suverenliyinə əsaslanır. Bu hüquq fiziki şəxslə dövlət arasında hüquqi əlaqəyə əsaslanmaqla vətəndaşlıq anlayışında özünü büruzə verir. Diplomatik müdafiə hüququ adətən şəxs öz dövlət sərhədindən kənarda olanda realizə olunur. Burada əsas məsələ ondadır ki, diplomatik müdafiə nə vaxt və necə həyata keçirilə bilər. Hər bir dövlət, əgər onun vətəndaşlarından kiməsə xaricdə onun şəxsiyyəti və ya onun əmlakı barəsində zərər vurulmuşdursa diplomatik müdafiə hüququndan istifadə edə bilər. Bu zaman həmin zərərin müvafiq dövlət və ya onun vəzifəli şəxsi tərəfindən vurulmasından asılı olmayaraq müdafiə hüququ realizə oluna bilər.

Beynəlxalq hüquq ədəbiyyatında diplomatik müdafiə ilə əlaqədar 3 elmi konsepsiya mövcuddur: klassik, müasir (obyektiv) və qarışıq. Klassik konsepsiya

tərəfdarları (E.Borçard və Q.Briqqs) hesab edirlər ki, dövlətin özü baş vermiş hadisə nəticəsində "zərərçəkmiş" sayılır və bununla da, bilavasitə diplomatik müdafiə hüququ əldə edir. Cavabdeh dövlət ziyanın əvəzini iddiaçı dövlətin fiziki və ya hüquqi şəxslərinə deyil, dövlətin özünə ödəməlidir. Obyektiv konsepsiyaya görə (Ssel, Politis, La Pradel) cavabdeh dövlətin hüquqazidd aktına görə ziyan dövlətə deyil, fiziki və hüquqi şəxslərə dəyir, buna görə də dəymiş ziyanın ödənilməsini həmin fiziki və hüquqi şəxs tələb edə bilər. Qarışıq konsepsiyanın tərəfdarlarının mövqeyinə görə, fiziki (hüquqi) şəxslər beynəlxalq hüququn subyekti deyil və buna görə də, beynəlxalq instansiyalara iddia irəli sürə bilməzlər, ancaq dövlətlər onları müdafiə edə bilər. Cavabdeh dövlət tərəfindən fiziki (hüquqi) şəxsə zərərin ödənilməsi iddiaçı dövlətin iddiasını təmin edir və mübahisəyə son qoyur [6, 476].

Diplomatik müdafiə institutu orta əsrlərdən formalaşsa da, dövlətlərarası münasibətlərin möhkəmlənməsi ilə daha çox XX əsrdən inkişaf etməyə başlamışdır. BMT Beynəlxalq Məhkəməsinin sələfi olan Beynəlxalq Ədalət Məhkəməsi Daimi Palatasının 1924-cü il tarixli Mavrommatis işi üzrə Qərarında dövlətin öz vətəndaşlarını müdafiə etməsini beynəlxalq hüququn əsas prinsipi kimi müəyyən etmişdir[83]. Dövlətlərin diplomatik müdafiə hüququ BMT Beynəlxalq Məhkəməsi tərəfindən də təsdiq edilmişdir (1955-ci il Nottebom işi üzrə qərar) [32].

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 7-ci maddəsində birbaşa göstərilir ki, bütün insanlar qanun qarşısında bərabərdir və heç bir fərq qoyulmadan qanun qarşısında eyni dərəcədə müdafiə olunmaq hüququna malikdir. Eyni zamanda, bütün insanların bu Bəyannaməni pozan hər cür ayrı-seçkilikdən və belə ayrı-seçkiliyə təhrikdən eyni dərəcədə müdafiə olunmaq hüququ vardır. Daha sonra, Bəyannamənin 8-ci maddəsində qeyd edilir ki, hər bir insan, Konstitusiya və ya qanunla ona verilən əsas hüquqlarının pozulması hallarında səlahiyyətli məhkəmələr tərəfindən bu hüquqlarının səmərəli şəkildə bərpa edilməsi hüququna malikdir [119]. Diplomatik müdafiə hüququ 1961-ci il Diplomatik əlaqələr haqqında (m. 3) və 1963-cü il Konsul əlaqələri haqqında Vyana konvensiyalarında (m. 5) təsbit edilmişdir. 1961-ci il Konvensiyasında qeyd edilir ki, diplomatik nümayəndəliyin funksiyaları xüsusilə bunlardan ibarətdir: beynəlxalq hüquqla yol verilən hüdudlarda yerləşmə

dövlətində akkreditə edən dövlətin və onun vətəndaşlarının mənafelərini müdafiə etmək [102, 170].

Diplomatik müdafiə hüququ daha çox beynəlxalq hüququn adət normalarına əsaslanır. BMT Baş Məclisinin 6 dekabr 2007-ci il tarixli 62/67 saylı Qətnaməsində olan diplomatik müdafiə haqqında maddələr bu hüququn məcəllələşdirilməsi cəhdi kimi qiymətləndirilir. Bu sənədin əsasında Beynəlxalq Hüquq Komissiyası tərəfindən 2006-cı ildə qəbul edilmiş Maddələr Layihəsi dayanır. Maddələr Layihəsinin 1-ci maddəsinə müvafiq olaraq, diplomatik müdafiə, diplomatik tədbirlərin və dinc yolla nizamasalmanın digər metodları vasitəsilə bir dövlət tərəfindən digər dövlətin beynəlxalq hüquqazidd əməli nəticəsində birinci dövlətin fiziki və hüquqi şəxslərinə vurulan ziyana görə digər dövləti məsuliyyətə cəlb etməsidir [57].

S.V.Çerniçenko haqlı olaraq qeyd edir ki, “diplomatik müdafiəni həm dövlətdaxili, həm də, beynəlxalq hüquq institutu kimi müəyyən etmək lazımdır”[35]. Beynəlxalq hüquq nöqteyi-nəzərindən dövlət diplomatik müdafiəni xaricdə olan vətəndaşına göstərməkdə haqlıdır və başqa dövlətlər də bu hüquqa hörmət etməlidir. Müvafiq dövlətin bu hüquqdan istifadə etməsi, artıq onun qanunvericiliyindən və əlbəttə ki, siyasi mövqeyindən asılıdır. Dövlətdaxili hüquq nöqteyi-nəzərindən vəziyyət müxtəlif ola bilər. Dövlətin daxili hüququ onun vətəndaşının xaricdə hüquqlarının pozulması halında məcburi surətdə müdafiənin göstərilməsini nəzərdə tuta bilər.

Diplomatik müdafiə haqqında Maddələr Layihəsinin 2-ci maddəsinə əsasən diplomatik müdafiəni həyata keçirmək dövlətin vəzifəsi yox, hüququdur. Bununla belə, Maddələr Layihəsinin 19-cu maddəsində dövlətlərə tövsiyə olunur ki, əhəmiyyətli ziyanın vurulması halında zəruri diplomatik müdafiənin həyata keçirilməsi imkanı nəzərdən keçirilməlidir [130]. Deməli, müdafiə hüququndan istifadə tamamilə dövlətin suveren mülahizəsindən asılıdır.

Beynəlxalq hüquq doktrinasına uyğun olaraq, şəxsə vurulmuş zərər, onun dövlətinə vurulmuş zərərdir və diplomatik müdafiəni həyata keçirərkən dövlət, ilk növbədə öz hüquqlarını müdafiə edir. Mavrommatisin fələstin konsessiyaları haqqında iş üzrə Beynəlxalq Ədalət Məhkəməsinin Daimi Palatasının 30 avqust

1924-ü il qərarında göstərilir ki, öz vətəndaşlarından birinin hüquqlarını müdafiə edən dövlət mahiyyətcə özünəməxsus olan hüququ, onun vətəndaşlarına münasibətdə beynəlxalq hüquq normalarına hörmət edilməsini təmin etmək hüququnu müdafiə edir [5, 135-136].

Ancaq Beynəlxalq Ədalət Məhkəməsinin Daimi Palatasının sələfi olan BMT Beynəlxalq Məhkəməsinin Le Qrand və Avena işləri üzrə qərarları bir qədər fərqli mövqedən danışmağa imkan verir. Bu mövqeyə görə, fərd, beynəlxalq hüququn bir çox ilkin normalarının (həm adət, həm də müqavilə normaları) subyektidir və həmin normalar onu həm öz ölkəsinin hökumətindən, həm də xarici ölkənin hökumətindən müdafiə edir.

Qeyd edilənlərlə yanaşı, Beynəlxalq Hüquq Komissiyası Diplomatik müdafiə haqqında Maddələr Layihəsinə 2006-cı il Kommentariyalarında belə bir mövqeyi dəstəkləyir: diplomatik müdafiəni o mənada dövlətin müstəsna hüququ kimi tanıyırlar ki, dövlət diplomatik müdafiəni müstəqil həyata keçirir, çünki, hesab edir ki, onun vətəndaşına vurulmuş ziyan elə dövlətin özünə vurulan ziyandır. Əlbəttə ki, bu mücərrəd bir anlayışdır, yəni vətəndaşa vurulan ziyanla dövlətə vurulan ziyanı bərabərləşdirmək kifayət qədər mübahisəlidir.

Beynəlxalq orqanlar vasitəsi ilə hüquqi və ya fiziki şəxsin hüquqlarının bərpası və dövlətin hüququnun bərpasına yönəlmiş beynəlxalq mübahisənin həllinin praktiki yolları fərqlidir. Sonuncu halda əhəmiyyətli nəticələr baş verir. Məsələn, hər şeydən öncə, dövlət özü hansı fərdin hüquqlarının müdafiə olunacağını müəyyənləşdirir; kompensasiya, hansı ki, diplomatik müdafiənin nəticəsi ola bilər, dövlətə veriləcək və zərərçəkmiş fərdin zərərlərinin kompensasiyası ödənilməyə də bilər; və s.

Diplomatik müdafiə, ilk növbədə, şəxs və ya şəxslər barəsində əcnəbilərin rejiminə riayət etməni təmin edən vasitədir. Əgər əcnəbi həqiqətən olduğu dövlətinin qanunvericiliyini pozmuşdursa, həmin qanun pozuntusu mütləq qaydada araşdırılmalı və hüquqi qiymət verilməlidir. Əgər müdafiənin göstərilməsinin gedişatında aydınlaşsa ki, bu şəxs və ya şəxslər barəsində qəbul edən dövlətin qanunvericiliyi pozulmuşdur, maraqlı dövlət uyğun olan qanunvericiliyə riayət etməni tələb etmək və ehtiyac olduğu halda günahkarların cəzalandırılmasını, zərərçəkmişə kompensasiya-

nın ödənilməsini tələb edə bilər. Bu tədbirlərin rədd edildiyi halda, zərərçəkmiş tərəfin dövləti cavab tədbiri kimi retorsiyalara müraciət edə bilər. Belə ölçülərə nəqliyyat, iqtisadi və mədəni əlaqələrin ixtisarını və s. aid etmək olar.

Lakin onu da qeyd edək ki, xaricdə öz vətəndaşlarının müdafiəsi hüququ tez-tez işğalçılıq müharibələrinin başlanması üçün bəhanə kimi dövlətlər tərəfindən istifadə olunmuşdur.

Bununla birlikdə, diplomatik vasitələrin nəticəsizliyi və xaricdə olan vətəndaşların həyatı və sağlamlığına real təhlükə halında özünümüdafiə kimi silahlı qüvvənin tətbiqi də mümkündür. Məlum olduğu kimi BMT Nizamnaməsinə əsasən əgər təşkilatın üzvünə silahlı hücum olarsa, özünümüdafiə qismində güc tətbiqi mümkündür (md. 51)[128]. Özünümüdafiə ölçüləri yalnız vətəndaşların xilasına yönəlməli və bu hüdudların çərçivələrini aşmaq olmaz.

Bununla əlaqədar olaraq, qeyd etmək istərdik ki, Diplomatik müdafiə haqqında Maddələr Layihəsinin 16-cı maddəsinə əsasən, göstərilən qətnamənin (yəni, 2007-ci il tarixli 62/67 saylı) normaları diplomatik müdafiədən kənar vasitələrin tətbiqi halında beynəlxalq hüquqazidd əməllə vurulmuş ziyanın kompensasiyasının təminatı üçün tətbiq edilmir.

Maddələr Layihəsinin 14.1-ci maddəsinə müvafiq olaraq, dövlət onun vətəndaşlığına və ya milliyyətə malik olan şəxsə zərər vurulmasına görə, hüquqi müdafiənin bütün daxili vasitələrindən istifadə etmədən beynəlxalq tələb irəli sürə bilməz. Maddələr Layihəsinin 15-ci maddəsinə daxili hüquqi müdafiənin bütün əlçatan (mümkün) vasitələrinin tükədilməsi birbaşa tələb kimi irəli sürülür [130].

Məşhur beynəlxalq hüquq alimi L.Oppenheym qeyd edir ki, əgər açıq-aydın müəyyən edilsə ki, işin hallarına görə ali hakimiyyət orqanına müraciət effektiv olmayacaq, məsələn, ali məhkəmə orqanı icra hakimiyyətinin nəzarətindədir və s., o zaman, “yerli vasitələr”in tükədilməməsi iddianın irəli sürülməsi üçün maneə yaratmır [39, 332].

Hüquqi müdafiənin daxili vasitələrinin tükənməsi halında dövlətin məsuliyyətinin yaranması ilə bağlı iki əks mövqe mövcuddur: maddi-hüquqi mövqeyə əsasən müdafiənin daxili vasitələrinin tükənməsi beynəlxalq deliktin

yaranması üçün əsasdır, hansı ki, dövlətin məsuliyyətini yarada bilər; prosessual-hüquqi mövqeyə görə, dövlətin məsuliyyəti hüquqazidd əməlin törədilməsi anında, lakin beynəlxalq planda hüquqların bərpası daxili hüquqi müdafiə vasitələri bitirilməmiş mümkün deyildir.

Əgər "müdafiənin daxili vasitələrinin tükənməsi məsuliyyətin yaranması üçün əsasdır" fikri ilə gedərək birinci mövqeyi əsas götürsək, əlbəttə ki, bu beynəlxalq hüquqi məsuliyyət haqqında ümumi qaydaya ziddiyyət təşkil edir. Çünki məsuliyyətin yaranması üçün hüquqi vasitələrdən istifadə imkanlarının istifadə edilib qurtarmasını gözləmək düzgün olmazdı.

Dövlət və hüquq nəzəriyyəsindən bizə məlum olan ümumi qaydaya görə, hüquq pozuntusu məsuliyyət üçün əsasıdır. Məhz qeyri-qanuni əməlin törədilməsi anında beynəlxalq hüquqi delikt yaranır. Müvafiq olaraq, yuxarıda ifadə edilmiş fikirlər üzrə ikinci mövqe ilə razılaşmaq olar. Bu səbəbdən qəbul etmək lazımdır ki, subyektiv hüququn pozulması deliktin yaranması üçün əsas ola bilər. Pozulmuş hüququn müdafiəsi üçün beynəlxalq vasitələrin tətbiqi imkanı müdafiənin daxili vasitələrinin tükənməsi faktından asılı ola bilər.

Qeyd edilənləri ümumiləşdirərək, belə bir fikir irəli sürmək olar ki, hüquq pozuntusu məsuliyyətin yaranmasının əsasıdır, diplomatik müdafiə hüququnun yaranması başqa hüquqi faktdan asılıdır (yəni pozulmuş hüququn müdafiəsinin daxili vasitələrinin tükənməsi faktından).

Ümumiyyətlə, müdafiənin daxili vasitələrinin tükənməsi zərərçəkmiş şəxsin və məsuliyyətli dövlətin arasında könüllü əlaqənin yoxluğunda tələb olunmur. Y.Brounlinin fikrincə, məsələnin həlli daxili vasitələrin tükənməsi haqqında qaydanın əsasından asılıdır. Əgər bu qaydanın təyinatı beynəlxalq mübahisəyə alternativ vermək üçün nəzərdə tutulursa, o zaman şəxsin və məsuliyyətli dövlətin arasında əlaqə gərək deyildir. Əgər bu qayda əcnəbi tərəfindən risklərin öz üzərinə götürülməsindən və milli yurisdiksiyanın həyata keçirilməsi üçün şəxsi bazanın mövcudluğundan irəli gəlirsə, o zaman könüllü əlaqənin mövcudluğu haqqında tələb (məsələn, daimi və ya müvəqqəti yaşayış) ağlabatandır [47, 477-478]. Prinsip etibarilə belə bir hal da mümkündür ki, əcnəbi hərbi qulluqçunun hərəkətləri

nəticəsində öz ölkəsində zərər çəkən şəxs, başqa dövlətdə öz iddiasının təmin olunması üçün hüquqi müdafiənin effektiv vasitələrini tapa bilər, amma, bununla belə, ondan xarici dövlətdə daxili imkanların məcburi tükənməsini tələb etmək haqsız olardı, çünki bu onun üçün əlavə çətinliklər yaradardı.

Bir qayda olaraq, diplomatik müdafiəni şəxsin vətəndaşı olduğu dövlət həyata keçirə bilər. Qeyd etmək lazımdır ki, diplomatik müdafiənin həyata keçirilməsi vaxtı, vətəndaşlıqla əlaqədar bir çox problemlər yaranır.

Məhz kimin onun vətəndaşı olmasına hər bir dövlət özü qərar verir. Bu, beynəlxalq hüququn ümumtanınmış qaydasıdır və beynəlxalq hüquqi sənədlərdə öz təsbitini tapmışdır. Məsələn, Vətəndaşlıq haqqında qanunların kolliziyası ilə bağlı bəzi məsələləri nizama salan 1930-cu il Haaqa Konvensiyası (m. 1) və Vətəndaşlıq haqqında 1997-ci il Avropa Konvensiyasını (m. 3) qeyd etmək olar.

Bununla belə, vətəndaşlığın əldə edilməsinin əsasları ölkələrdən asılı olaraq fərqlənir, amma onlar beynəlxalq hüquq normalarına uyğun olmalıdır. Xüsusilə də, zərərçəkmiş fiziki şəxsə vətəndaşı olduğu dövlətin diplomatik müdafiəsi göstərilən zaman bu məsələyə diqqət yetirilməlidir. Elə hallar olur ki, vətəndaşlığın əldə edilməsi hüquqazidd yolla həyata keçirilir və bu zaman dövlət həmin şəxsə diplomatik müdafiə göstərmir. Vətəndaşlığın əldə edilməsinin hüquqazidd olmasının sübut edilməsi yükü cavabdeh dövlətin üzərinə düşür.

Diplomatik müdafiə vaxtı effektiv vətəndaşlıq prinsipi xüsusi əhəmiyyət kəsb edir, çünki müdafiə edilən şəxslə dövlət arasında vətəndaşlığın hüquqi əlaqəsi kifayət qədər zəif ola bilər. Görünür ki, effektiv vətəndaşlıq prinsipi adətən ikili vətəndaşlıq zamanı özünü daha çox büruzə verir, çünki, vətəndaşı olduğu dövlətdən kənarda olan şəxslər (bir vətəndaşlığın mövcudluğu halında) diplomatik müdafiədən məhrum ola bilərlər.

Belə olan təqdirdə, effektiv vətəndaşlıq meyarlarını kifayət qədər dəqiq müəyyən etmək lazımdır.

Effektiv vətəndaşlıq haqqında danışmağa imkan verən əlaqənin mövcudluğu məhkəmə və ya arbitraj tərəfindən konkret şəraitin tədqiqatı yolu ilə müəyyən edilir. Hər şeydən əvvəl insanın faktiki olaraq daimi və ya ən çox harda yaşaması və ya

olması nəzərə alınır. Lakin, təkcə bu faktlar qiymətləndirilmir, eyni zamanda, şəxsin daimi gəlirinin (iş yeri, təqaüdü haradan alır və s.) mənbəyi, əmlakının olduğu yer, dövlət xidmətində və ya orduda xidmət etməsi, hansı ölkə ilə daha sıx sosial, ailə bağlılığının olması kimi amillər də nəzərə alınır.

Effektiv vətəndaşlıq prinsipini təsbit edən ən məşhur məhkəmə işləri arasında Nottebom və Kanevaro işləri xüsusilə qeyd edilməlidir. Beynəlxalq hüquqi aktlar arasında bu cəhətdən 1930-cu il Konvensiyasını qeyd etmək olar. Həmin Konvensiyaya əsasən, üçüncü dövlət effektiv vətəndaşlıq prinsipi əsasında fiziki şəxsin məhz hansı dövlətin diplomatik müdafiəsindən istifadə imkanını müəyyən edə bilər [99, 109].

Baxmayaraq ki, effektiv vətəndaşlıq prinsipi ikili vətəndaşlıq hadisələri ilə bağlı işlərin baxılması zamanı beynəlxalq hüquqda böyük rol oynayır, dövlətlərin və məhkəmələrin təcrübəsi kifayət qədər ziddiyyətlidir, ona görə də, hazırda bu sahədə beynəlxalq hüququn formalaşmış adət normasının olmasını qeyd etmək düzgün olmazdı.

Dövlətlər təcrübəsində effektiv vətəndaşlıq prinsipi ilə yanaşı həmçinin növbəti prinsiplərə də üstünlük verilir: daha sonra və ya əvvəl əldə edilmiş vətəndaşlıq prinsipi; maraqlı şəxsin seçiminə görə vətəndaşlıq prinsipi; üçüncü dövlətin hüququna daha yaxın olan dövlətin vətəndaşlığına üstünlük verilməsi prinsipi.

Diplomatik müdafiə haqqında Maddələr Layihəsinin 6-cı maddəsinə qeyd edilir ki, iki və çoxqat vətəndaşlığı olan istənilən şəxsə vətəndaşı olmadığı dövlətə münasibətdə diplomatik müdafiə göstərilə bilər. Bu maddənin 2-ci bəndində isə qeyd edilir ki, şəxsin vətəndaşı olduğu iki və daha çox dövlət diplomatik müdafiəni birgə göstərə bilər [130].

Bu halda, effektiv və əsl əlaqə haqqında tələb nəzərdə tutulmur, çünki iki və daha çox dövlət eyni şəxsin birgə diplomatik müdafiəsini, həmin şəxsin ikiqat və ya çoxsaylı vətəndaşlığı olduğu halda həyata keçirə bilər.

Qeyd etmək lazımdır ki, eyni şəxsin bir neçə dövlət tərəfindən birgə müdafiəsi halında, dövlətlərin hərəkətləri uyğunlaşdırılmalıdır. Əks təqdirdə cavabdeh-dövlət

məhkəmədə iddia qaldıra bilər. Məsələn, dövlətlər fərqli tələblər irəli sürə bilər və yaxud da, eyni tələbi ardıcıl olaraq iki dəfə irəli sürə bilər və s.

Adıçəkilən maddənin 2-ci bəndinin kommentariyasına əsasən iddiaçı-dövlətlər cavabdeh-dövlətə qarşı eyni mübahisə predmeti üzrə bir dəfə iddia qaldıra bilər, yəni iddiaçı-dövlətlərin ayrı-ayrı məhkəmələrə müraciəti və ya ayrı-ayrı vaxtlarda iddia qaldırması inkar olunur. Həmçinin bir iddiaçı-dövlət mübahisə zamanı zərərçəkmişin hüquqlarının bərpasına nail olubsa, ikinci iddiaçı dövlət yenidən iddia qaldıra bilməz.

Zərərçəkmiş şəxsin həm iddiaçı, həm də cavabdeh-dövlətin vətəndaşlığına malik olduğu hallarda isə effektiv və əsl əlaqə prinsipinin tətbiqi məcburi olacaqdır. Diplomatik müdafiə haqqında Maddələr Layihəsinin 7-ci maddəsində qeyd edilir ki, ikili vətəndaşlığı olan şəxsə vətəndaşı olduğu dövlətlərdən biri tərəfindən diplomatik müdafiə o halda göstərilə bilər ki, şəxs zərər vurulan və iddia qaldırılan vaxtlarda diplomatik müdafiəni göstərən dövlətlə effektiv vətəndaşlıq münasibətində olsun.

Dövlətlərin əvvəlki təcrübəsi göstərir ki, şəxsin diplomatik müdafiəsi praktik olaraq icrası mümkün olmayan olurdu, çünki zərərçəkmiş şəxsə vətəndaşı olduğu dövlətə qarşı müdafiə göstərilməsi baş tutmurdu. Belə imtinaya dair məsələlər 1930-cu il tarixli Vətəndaşlıq haqqında qanunların kolliziyası ilə bağlı bəzi məsələləri nizama salan Konvensiyanın 4-cü maddəsində təsbit edilmişdir. Həmin maddədə bilavasitə göstərilir ki, dövlət, digər dövlətin vətəndaşlığına malik olan öz vətəndaşına diplomatik müdafiə göstərmir.

Həmçinin nəzərə almaq lazımdır ki, ikili vətəndaşlığı tanımayan dövlətlər, effektiv vətəndaşlıq prinsipini dövlətlərin suveren bərabərliyi və dövlətin daxili işlərinə müdaxilə prinsipinin pozulması kimi qiymətləndirə bilərlər.

Ancaq, Maddələr Layihəsinin 7-ci maddəsi ikili vətəndaşlığı olan şəxsə diplomatik müdafiənin göstərilməsini inkar etmir. Bu sənəddə dövlətlərin suveren bərabərliyi prinsipi effektiv vətəndaşlıq prinsipinə güzəşt edir, baxmayaraq ki, birinci beynəlxalq hüququn ümumtanınmış prinsipidir.

Beynəlxalq hüquq təcrübəsində, xüsusilə XX əsrin ikinci yarısına qədər, bir neçə dəfə o haqda fikir bildirilirdi ki, bir halda ki, vətəndaşlığı olmayan şəxslər dövlətlə sabit hüquqi əlaqəyə malik deyillər, onlara xaricdə diplomatik müdafiəni

göstərmək düzgün deyildir. Ancaq müasir beynəlxalq hüquqda kimsəni müdafiəsiz saxlama haqqında ideya qəbuledilməzdir. Artıq XX əsrin 50-ci illərindən başlayaraq, tez-tez vətəndaşlığı olmayan şəxslərə diplomatik müdafiənin tətbiqi zərurəti haqqında fikirlər səsləndirilir. Beynəlxalq Hüquq İnstitutunun 1965-ci il qətnaməsində beynəlxalq iddianın irəli sürülməsi imkanı haqqında qeyd edilir. Qətnamədə göstərilir ki, zərərçəkmiş fiziki şəxs ya dövlətin vətəndaşı olduqda, ya da beynəlxalq hüquqa əsasən həmin dövlətin əhalisinə aid edilə bildikdə beynəlxalq iddia qaldırıla bilər [116].

Qeyd edilən məsələ beynəlxalq hüquqda da özünə yer tapa bilmişdir. Konsul funksiyaları haqqında 1967-ci il Avropa Konvensiyasında göstərilir ki, vətəndaşlığı olmayan şəxsin daimi yaşayış yeri olduğu dövlətin konsulu həmin apatridi bu Konvensiyanın 2.1-ci maddəsi əsasında müdafiə edə bilər, bir şərtlə ki, həmin apatrid qəbul edən dövlətin keçmiş vətəndaşı deyildir [117].

Qeyd edilən tendensiyanı nəzərə alaraq, Maddələr Layihəsinin 8-ci maddəsində dövlətin ərazisində qanuni və daimi əsaslarla yaşayan vətəndaşlığı olmayan şəxslər barəsində diplomatik müdafiənin həyata keçirilməsi imkanı nəzərdə tutulur. Belə yaşayış həm zərər vurulması vaxtı, həm də iddiaların rəsmi şəkildə verilməsi vaxtı baş verməlidir.

Maddələr Layihəsinin adıçəkilən 8-ci maddəsində qaçqınlar barəsində də diplomatik müdafiənin həyata keçirilməsinin oxşar şərtləri nəzərdə tutulur. Həmin maddənin 2-ci bəndində qeyd edilir ki, dövlət, beynəlxalq hüquqa uyğun olaraq, onun tərəfindən qaçqın kimi tanınan şəxslərə münasibətdə diplomatik müdafiə həyata keçirə bilər, bir şərtlə ki, həmin şəxs ziyan vurulması və rəsmi şəkildə tələb irəli sürülməsi anında müvafiq dövlətin ərazisində qanuni və daimi əsaslarla yaşayan olsun. Lakin 8-ci maddənin 3-cü bəndində qeyd edilir ki, 2-ci bənddəki müddəalar qaçqının vətəndaşı olduğu dövlətin beynəlxalq hüquqa zidd əməllərinə qarşı tətbiq edilmir [130].

Qeyd etmək lazımdır ki, əgər vətəndaşlar barəsində diplomatik müdafiənin göstərilməsinin müəyyən qədər məcburiliyi etiraf edilirsə, qaçqınlar və vətəndaşlığı

olmayan şəxslər barəsində eyni müdafiənin göstərilməsi dövlətin mülahizəsindən asılıdır.

Fasiləsiz vətəndaşlıq qaydasına uyğun olaraq, barəsində diplomatik müdafiə həyata keçirilən şəxs, həm zərərin vurulması vaxtı, həm də ziyanın kompensasiyası haqqında tələbin rəsmi şəkildə irəli sürülməsi vaxtı müvafiq dövlətin vətəndaşlığına malik olmalıdır. Bu halda "tələb" dedikdə, diplomatik kanallar üzrə tələb irəli sürülməsi, həmçinin məhkəmə orqanlarında iddianın qaldırılması anlaşılır. Adət-hüquqi xarakteri daşıyan bu qayda diplomatik müdafiənin göstərilməsinə marağı olan və bunun üçün kifayət qədər imkanlara malik olan dövlətin himayəsinə keçmək istəyən şəxslərin öz vətəndaşlığını süni şəkildə dəyişdirməsinə yol verməmək üçün nəzərdə tutulmuşdur.

Əgər zərərin vurulmasından sonra şəxs dövlətlərin hüquq varisliyi və ya tələbin irəli sürülməsi ilə bağlı olmayan başqa səbəblər (nikaha girməyə görə, övladlığa götürməyə görə, iddiaçının ölümü və s.) nəticəsində yeni vətəndaşlığı əldə edirsə bu qayda həyata keçirilməyə bilər. Bu halda, diplomatik müdafiəni yeni vətəndaşlıq dövləti həyata keçirə bilər.

Dövlət, əgər zərərin vurulması vaxtı bu şəxs zərəri vurmuş dövlətin vətəndaşlığına malik olmuşsa və ya tələbin irəli sürülməsindən sonra bu şəxsin zərəri vurmuş dövlətin vətəndaşlığını əldə etmiş olduğu hallarda, həmin şəxs barəsində diplomatik müdafiəni həyata keçirə bilməz.

Hüquq ədəbiyyatlarında bu istiqamətdə kifayət qədər tədqiqatlar aparılmışdır. Məsələn, bəzi hüquq ədəbiyyatlarında diplomatik müdafiənin həyata keçirilməsinin növbəti əsas şərtləri belə müəyyənləşdirilir: xarici dövlətin ərazisində olan şəxsə vurulan ziyanın səbəbi olan beynəlxalq hüquqazidd əməlin mövcudluğu; yerləşmə dövlətində hüquqi müdafiənin bütün daxili vasitələrinin tükənməsi; iddiaçı-dövlətlə zərərçəkən şəxs arasında siyasi-hüquqi əlaqənin mövcudluğu. Diplomatik müdafiə dinc vasitələrlə həyata keçirilir və hər bir halda güc tətbiqini inkar edir. Diplomatik müdafiənin göstərilməsi tədbirlərinin konkret siyahısı olmasa da, təcrübədə daha çox danışıqların aparılması, xoşməramlı xidmətlər, vasitəçilik, məhkəmə və ya arbitraj araşdırması, retorsiya, repressaliyə rast gəlinir [1, 11].

Bütövlükdə, diplomatik müdafiənin həyata keçirilməsi əsasən beynəlxalq müqavilə və adət hüququ normaları ilə tənzim edilir. Dövlətlər diplomatik müdafiənin müxtəlif aspektlərinə fərqli şəkildə yanaşırlar. Vətəndaşların diplomatik müdafiəsi institutu hal-hazırda beynəlxalq hüququn müqavilə və adət normalarına əsaslanmağa davam edir. BMT-nin Beynəlxalq Hüquq Komissiyası çərçivəsində diplomatik müdafiə haqqında Maddələr Layihəsinin hazırlaması vaxtı məcəllələşdirmə işindən əlavə, vətəndaşlıq məsələləri ilə bağlı diplomatik müdafiə institutu normalarının proqressiv inkişafı istiqamətində də müsbət irəliləyişə nail olunmuşdur. Vətəndaşlığı olmayan şəxslərin diplomatik müdafiəsinə gəldikdə isə, birmənalı şəkildə qeyd etmək olar ki, artıq bu sahədə beynəlxalq adət normaları kök salmış və daha da möhkəmlənməkdədir.

Sonda qeyd etmək lazımdır ki, 2006-cı ildə BMT Beynəlxalq Hüquq Komissiyası tərəfindən hazırlanmış Diplomatik müdafiə haqqında Maddələr Layihəsi əsasında universal sənədin qəbulu kodifikasiyaya və vətəndaşlıq institutunun beynəlxalq hüquqi tənzimində proqressiv inkişafa imkan yaradacaqdır. Bu da insan hüquqları prizmasından kifayət qədər yüksək qiymətləndirilməlidir.

2.4. Avropa İttifaqında vətəndaşlıq problemlərinin hüquqi tənzimlənməsi

Avropada baş vermiş inteqrasiya proseslərinin kontekstində bəzi hüquq institutları ciddi şəkildə şəklini dəyişmişdir. Aİ üzv-ölkələri üçün sürətli və effektiv həll tələb edən problemlər əsasən bunlardır: öz milli qanunvericiliyini Avropa standartlarına uyğunlaşdırmaq; öz ölkələrində Avropa orqanlarının və təsisatlarının siyasətini həyata keçirmək; və s. Aİ genişlənərək, bu problemlərin həllində yeni yanaşmaları təklif edir, ahəngdar inkişafı və bütün birləşən dövlətlərin qarşılıqlı əməkdaşlığını təmin etməyə çalışır.

Belə gedişatın nümunəsi kimi Lissabon müqaviləsini qeyd etmək olar, hansı ki, Avropa inteqrasiyasının sonrakı dərinləşməsinə yönəlmişdir. Lissabon müqaviləsinin qəbulundan sonra (1 dekabr 2009-cu ildə qüvvəyə minmişdir) ümumilikdə İttifaq üçün bir sıra yeniliklər baş vermişdir. Lissabon müqaviləsinin etdiyi ən əhəmiyyətli dəyişiklik bilavasitə Aİ-nin strukturuna aiddir. Lissabon müqaviləsi Aİ-nin dəyərləri

və hədəflərində də ciddi dəyişikliklər etmişdir. Belə ki, daha əvvəl deklarativ xarakterli qəbul edilən prinsiplər (məsələn, Aİ vətəndaşlarının bütün dünyada müdafiəsi, iqtisadi, sosial və ərazi birliyi, mədəni müxtəliflik və s.) artıq Aİ siyasətinin əsas hədəflərinə çevrilmişdi. Bundan başqa, "daxili bazar"ın yaradılması və növbəti vacib məqsədlərin nailiyyəti də müəyyən edilmişdi: işsizliyin ləğvi və tam məşğulluq, sosial dövlətin əsas xüsusiyyətlərini özündə əks etdirən sosial tərəqqi, sosial təminat və sosial ədalətin formalaşdırılması, ətraf mühitin mühafizəsinin yüksək səviyyədə təşkili, bütün növ diskriminasiya hallarına qarşı mübarizə və s.

Lissabon müqaviləsinin gətirdiyi dəyişikliklər arasında vətəndaşlıq məsələləri də xüsusi yer tuturdu. Aİ vətəndaşları Aİ Parlamentinə və Aİ Şurasına qanunvericiliyin dəyişdirilməsi təklifi ilə bağlı müraciət etmək hüququ əldə etdilər. Bunun üçün bir milyon vətəndaş tərəfindən bu təşəbbüsün dəstəklənməsini təmin etmək lazımdır. Lakin Komissiya, bu sorğunun təmin olunması məsələsinin realizəsi imkanı ilə bağlı yekun qərar verilməsi səlahiyyətini özündə saxlayır. Hələ Lissabon müqaviləsi qəbul edilməzdən öncə, Maastrixt müqaviləsinin müddəaları İttifaqın təsis sənədlərinə, hüquq sisteminə yeniliklər gətirmiş, ümumilikdə Aİ-nin fəaliyyətində dəyişikliklər etmişdir.

Onların arasında əhəmiyyətli yeri Aİ vətəndaşlığı institutunun yaradılması tutur, bu instituta həmçinin vahid ümumavropa vətəndaşlığı da deyilir. Bu məsələyə Aİ-nin yaradılması haqqında Müqavilənin 8-ci maddəsi və həmin Müqaviləyə əlavə kimi Müqavilənin üzv-dövlətin vətəndaşlığı haqqında Bəyannamə həsr etmişdir. Aİ-nin yaradılması haqqında Müqavilənin 8 və 8 d maddələrinin məzmunu 2 oktyabr 1997-ci il tarixli Aİ haqqında Müqaviləyə dəyişikliklər haqqında Amsterdam Müqaviləsi ilə dəyişdirilmişdir. 7 dekabr 2000-ci il tarixli Əsas hüquqlar haqqında Aİ Xartiyasının 41 və 42-ci maddələri də İttifaq vətəndaşlarının hüquqlarını nizamlayır. 2009-cu ildə qüvvəyə minmiş Lissabon müqaviləsi Aİ vətəndaşlığı institutunun mövcudluğunu təsdiq etmiş və möhkəmləndirmişdir. Aİ vətəndaşlığı - beynəlxalq hüququn inkişafı tarixində presedentsiz addımdır. Dünyada mövcud olan heç bir regional təşkilat nə hüquqi, nə də praktiki baxımdan təşkilatın vətəndaşlığı anlayışını tanımamışdır.

Maastrixt müqaviləsi, hər şeydən əvvəl, Aİ vətəndaşlığı prinsipinin özünü elan etdi. Məhz bu səbəbdən Aİ vətəndaşlığını elan etməyə vadar edən ilkin şərtlərin təhlil edilməsini məqsədəuyğun hesab edirik.

Ümumiyyətlə, Avropa birliklərində vətəndaşlığın təyin edilməsi ideyası yeni deyildir. Bu məsələ hələ 1957-ci il Roma müqavilələrinin hazırlığı zamanı aparılmış birliklərin təbiəti haqqında müzakirələrin predmeti idi. Vətəndaşlıq məsələlərinə diqqət 1970-ci illərin sonlarında yenidən meydana çıxmağa başladı, elə həmin vaxtlar ”Avropa vətəndaşları” şüarı məşhurlaşmağa başladı. Ancaq onda bu problemə xüsusi qiymət verilmirdi və gələcəyin işi kimi baxılırdı. Bundan əlavə, Avropa birliklərinin İttifaqa transformasiyası haqqında məsələlərin müzakirəsi mərhələsində vətəndaşlıqla bağlı suallar da müzakirə predmetinə çevrilmişdi. Vətəndaşlıq haqqında məsələyə iqtisadi və siyasi amillərin qarşılıqlı təsirindən doğan və inteqrasiyanın yeni vəziyyətinin simvolu kimi qiymət verilirdi.

Aİ vətəndaşlığı məsələsinə gəldikdə, qeyd edək ki, iki tamamilə təbii və qanunauyğun sual yarana bilər: bu iki anlayış, “vətəndaşlıq” və “Avropa İttifaqı” bir-biri ilə birləşə bilərlərmi, axı Aİ dövlət deyil və faktiki olaraq, yalnız Qərbi Avropa ölkələrinin təşkilatını təcəssüm etdirir və 1992-ci ildə Avropa İttifaqı adını almışdı. Bununla belə, Maastrixt müqaviləsi aydın və birmənalı şəkildə məhz Avropanın suveren dövlətlərini birləşdirən Aİ-nin vətəndaşlığını təsbit edir. Nəticədə beynəlxalq hüquq elmində əvvəl məlum olmayan siyasi-hüquqi fenomen meydana çıxır, yaxud da, bu fenomen dövlətlərarası münasibətlərin bütün sisteminə inteqrasiya proseslərinin artan təsiri, insanın bu sistemdə yeri və rolunun qlobal şəkildə yenidən qurulması ilə bağlı olan tamamilə obyektiv qanunauyğunluqdur. Bu məsələyə aydınlıq gətirilməsi üçün vahid ümumavropa vətəndaşlığının spesifikasını xarakterizə edən Aİ-nin yaradılması haqqında Müqavilənin müvafiq normalarını təhlil etmək zəruridir.

Aİ-nin yaradılması haqqında Müqavilənin 8-ci maddəsi nəzərdə tutur ki, Aİ-nin üzv-dövlətlərindən hər hansının vətəndaşlığına malik olan istənilən şəxs Aİ vətəndaşıdır [65, 573]. Yenə də sual yaranır, belə vətəndaşlığın mövcudluğunu necə müəyyən etmək olar? Çünki, Müqavilənin maddələri bu suala lazımi cavab vermə-diyindən, Müqaviləyə əlavə kimi Üzv-dövlətin vətəndaşlığı haqqında Bəyannamə

qəbul edilmişdi. Mahiyyət etibarilə, Bəyannamə milli hüquqa göndərməni əks etdirir. Orada müəyyən edilir ki, fərdin vətəndaşlığı haqqında məsələ müstəsna olaraq müvafiq üzv-dövlətin hüququ ilə tənzim edilir.

Müvafiq olaraq, onun əldə edilməsi və ya itirilməsinin hər hansı xüsusi proseduru mövcud deyildir. Aİ üzv-dövlətinin vətəndaşlığında istənilən dəyişiklik Aİ çərçivəsində konkret şəxsin vəziyyəti üçün müəyyən nəticələr doğurur. Aİ orqanları üzv-dövlətlərin öz vətəndaşlarının dairəsinin sərbəst şəkildə müəyyən etməsi prinsipinə tərəfdar olduqlarını bildirmişlər.

13 mart 1996-cı ildə Maastrixt müqaviləsinə yenidən baxılması üzrə hökümətlərarası konfransın çağırışı haqqında Avropa Parlamentinin qətnaməsində vurğulanır ki, "Avropa vətəndaşlığı İttifaqa münasibətdə vətəndaşlara yeni hüquq və vəzifələr verir, Aİ dövlətlərinin vətəndaşlığını tamamlayır". Amsterdam müqaviləsi Maastrixt müqaviləsinin 8.1-ci maddəsinə yalnız bu ifadənin ikinci hissəsini daxil etdi: "İttifaq vətəndaşlığı İttifaqın üzv-dövlətlərinin vətəndaşlığını tamamlayır, onu əvəz etmir". Bununla belə, Aİ çərçivəsində vətəndaşlığın daha az və ya çox tənzimlənməsi imkanı qeyri-müəyyən vaxta təxirə salınır. Aİ üzv-dövlətinin vətəndaşlığının itirilməsi vaxtı Aİ vətəndaşlığı da itirilir [41, 76].

Mövcud məhkəmə təcrübəsinə müvafiq olaraq İttifaqın üzv-dövləti Aİ-nin yaradılması haqqında müqavilə ilə nəzərdə tutulmuş əsas hüquqların və azadlıqların reallaşdırılmasının təminatı ilə əlaqədar vətəndaşlıq statusunun tanınması üçün əlavə şərtlərin tətbiqi vasitəsi ilə başqa üzv-dövlət tərəfindən vətəndaşlığın verilməsinin nəticələrini məhdudlaşdıra bilməz [81, 866]. Analoji olaraq, başqa üzv-dövlətin vətəndaşlarına Aİ hüququ ilə təmin olunan hüquq və azadlıqlardan istifadəyə də məhdudiyyət qoyulmur [61, 765].

Vahid ümumavropa vətəndaşlığının spesifik xüsusiyyətlərindən biri onun potensial olaraq dinamik xarakter daşımasıdır. Bu məsələ Aİ-nin yaradılması haqqında Müqavilənin 8e maddəsinin məzmunundan irəli gəlir. Bu maddə Aİ Komissiyasına müntəzəm şəkildə Avropa Parlamentini, Nazirlər Şurasını, həmçinin İqtisadi və Sosial Komitəni vətəndaşlıqla bağlı məsələlər haqqında məlumatlandırmağa öhdəlikləndirir. Zəruri hallarda Nazirlər Şurasına Aİ vətəndaşlarının mövcud

hüquqlarının qorunmasına yönəlmiş müəyyən addımları təşəbbüs etmək səlahiyyəti verilmişdir. Bundan başqa, üzv-dövlətlərə bu sferada uyğun olan müddəaları qəbul etmək tövsiyəsi də verilə bilər. Bu mənada Aİ-nin yaradılması haqqında Müqavilənin müddəaları ilə nəzərdə tutulmuş və vahid ümumavropa vətəndaşlığına həsr edilmiş hüquqların siyahısı statik deyil və çox güman ki, real hüquqi məzmuna malik "Avropa İttifaqı vətəndaşı" anlayışının əsaslandırılması prosesində aralıq mərhələ kimi qiymətləndirilə bilər.

Müəyyən dövlətin vətəndaşlığına məxsusluq şəxsdə yalnız hüquqların yox, həm də müəyyən vəzifələrin mövcudluğunu ehtiva edir. Bu mənada Aİ-nin yaradılması haqqında Müqavilənin 8.2-ci maddəsi aydın şəkildə nəzərdə tutur ki, Aİ vətəndaşları onlara Müqaviləyə uyğun olaraq aid olan vəzifələri yerinə yetirməlidirlər [62, 191]. Ancaq vahid ümumavropa vətəndaşlığına aid olan Müqavilənin müvafiq bölməsi həmin vəzifələrin məzmununu konkretləşdirmir. Əgər nümunə kimi milli vətəndaşlıq institutuna müraciət etsək, qeyd etmək olar ki, vətəndaşın əsas vəzifələrinin sırasına, bir qayda olaraq, hərbi mükəlləfiyyəti, vergilərin ödənilməsini, bəzi ölkələrdə isə seçici kimi seçkilərdə iştirak etməyi aid edirlər. Ancaq, Aİ-yə gəlincə, onun vətəndaşlarının vəzifələrinin nədən ibarət olmasını konkret olaraq qeyd etmək çətindir. Bununla birlikdə, artıq mövcud olan hüquqların dairəsinin genişləndirilməsi imkanı da nəzərdə tutulur. Maastrixt müqaviləsi vəzifələr barəsində analoji normanı təsbit etmir, yəqin ki, bu yanaşma Aİ vətəndaşının hüquqi statusuna müəyyən sabitliyin verilməsi cəhdi ilə izah edilir.

Vahid ümumavropa vətəndaşlığının həqiqi təbiəti və mahiyyətini daha yaxşı anlamaq üçün Aİ vətəndaşına verilmiş hüquqların məzmun və xüsusiyyətləri üzərində dayanmaq məqsədəuyğundur. Onu da qeyd edək ki, həmin hüquqların siyahısı məhduddur. Xüsusilə də, Maastrixt müqaviləsi aydın şəkildə qeyd edir ki, Aİ-nin hər bir vətəndaşı növbəti hüquqlara malikdir: Aİ-nin bütün ərazisi üzrə sərbəst şəkildə yerdəyişmə etmək və orada maneəsiz yaşamaq; seçici kimi seçkilərdə iştirak etmək və yaşadığı ölkənin bələdiyyə və ümumavropa seçkilərində öz namizədliyini irəli sürmək; Aİ xaricində olaraq, diplomatik nümayəndəliklərin və Aİ-nin istənilən üzv-ölkəsinin

konsul missiyalarının müdafiəsindən istifadə etmək; müəyyən edilmiş prosedurlara riayət etməklə petisiya və şikayətlərlə Avropa Parlamentinə müraciət etmək.

Əsas hüquqlar haqqında 7 dekabr 2000-ci il tarixli Aİ Xartiyası İttifaq vətəndaşlarının hüquqlarını tamamlayır və yuxarıda sadalanan hüquqların davamı olaraq növbəti hüquqları da bəyan edir: Avropa birliklərinin presedent hüququnu rəhbər tutaraq yaxşı idarəetmə hüququ; Avropa Parlamentinin, Şuranın və Komissiyanın sənədlərinə çıxış hüququ.

Amsterdam müqaviləsi ilə daxil edilmiş 8d maddəsinə əsasən petisiya ilə müraciət İttifaqının istənilən rəsmi dilində mümkündür və həmin dildə cavablandırılmalıdır.

Maastrixt müqaviləsinə əsasən Aİ-nin hər bir vətəndaşı İttifaqının üzv-dövlətlərinin ərazisində azad hərəkət və daimi yaşamaq hüququna malikdir. Ancaq bu hüququn reallaşdırılması Maastrixt müqaviləsi ilə nəzərdə tutulmuş məhdudiyyətləri və şərtləri nəzərə alaraq həyata keçirilməlidir. Bununla birlikdə, qeyd etmək lazımdır ki, Aİ vətəndaşlığına həsr edilmiş bölmədə belə məhdudiyyətlər və şərtlər müəyyən edilməmişdir və buna görə onları Müqavilənin başqa maddələrində axtarmaq lazımdır. Bu mənada adətən 48.3-cü maddəni rəhbər tuturlar. Həmin maddədə qeyd edilir ki, vətəndaşlar tərəfindən onlara aid olan hüquqların istifadəsində müəyyən məhdudiyyətlərin və şərtlərin tətbiqi ictimai asayiş, ictimai təhlükəsizlik, həmçinin əhalinin sağlamlığı baxımından mümkündür. Qeyd etmək lazımdır ki, 48.3-cü maddə 8a maddəsi ilə müqayisədə Aİ çərçivəsində insanların azad hərəkətinə həsr edilmiş daha ümumi normanı ehtiva edir. Yeri gəlmişkən, insanların azad hərəkəti prinsipi hələ Avropa İqtisadi Birliyinin yaradılması haqqında 1957-ci il tarixli Roma müqaviləsi ilə nəzərdə tutulmuşdur. İstənilən dövlətin vətəndaşlığına məxsusluğun ayrılmaz atributu həmin dövlətdə səsvermə hüququna malik olmaqdır. Bu hüququn həyata keçirilməsi vasitəsilə cəmiyyətin siyasi həyatında bilavasitə iştirak imkanı reallaşır. Maastrixt müqaviləsi bu kontekstdə bələdiyyələr və ümumavropa seçkilərinin keçirilməsində aktiv, həm də passiv seçki hüququnun mövcudluğunu nəzərdə tutur.

Beləcə, Aİ-nin yaradılması haqqında Müqavilənin 8b (1) maddəsi Aİ-nin hər bir vətəndaşına, onun milli vətəndaşlığından asılı olmayaraq, seçici kimi seçkilərdə iştirak etmək və yaşadığı ölkənin bələdiyyə seçkilərində öz namizədliyini irəli

sürmək imkanı verdi [58, 79]. Ona diqqəti yönəltmək lazımdır ki, Aİ səviyyəsində bu hüquq həqiqətən ilk dəfə xülasə edilmişdi, halbuki bir sıra üzv-dövlətlərin milli qanunvericiliyində bu məsələ Maastrixt müqaviləsindən əvvəl mövcud idi. Belə ki, İrlandiyada, Niderlandda və Danimarkada seçici kimi seçkilərdə iştirak etmək və bələdiyyə seçkilərində öz namizədliyini irəli sürmək hüququ bu dövlətlərin ərazisində yaşayan bütün Aİ üzv-dövlətlərinin vətəndaşlarına verilmişdi. Bəzi ölkələr (məsələn, İspaniya və Portuqaliya) belə hüququn əcnəbilərə verilməsinə yalnız qarşılıqlılıq prinsipi əsasında yol verirdilər. Hərçənd, bəzi dövlətlərin (məsələn, Almaniya, Fransa) qanunvericiliyi üçün yuxarıda göstərilən hüquq yenilik idi. Məhz bu maddə Fransa, Almaniya və digər Aİ ölkələrinin konstitusiyalarında Maastrixt müqaviləsinin bəzi müddəaları əsasında dəyişikliyə səbəb olmuşdur.

Aİ-nin yaradılması haqqında Müqavilənin 8b (2) maddəsi Aİ-nin hər bir vətəndaşına, onun milli vətəndaşlığından asılı olmayaraq, seçici kimi seçkilərdə iştirak etmək və yaşadığı ölkədə Avropa Parlamentinə seçkilərdə öz namizədliyini irəli sürmək hüququ verdi. Bu hüquq, yuxarıdakı abzasda baxılmış bələdiyyə seçkilərində iştirak hüququ kimi bəzi Aİ üzv-dövlətlərinin milli qanunvericiliyində Maastrixt müqaviləsinin qəbul edilməsinə qədər mövcud idi. Avropa Parlamentinə seçkilərin keçirilməsi vaxtı Aİ-nin digər üzv-dövlətlərində daimi yaşayan vətəndaşları üçün səsvermə hüququ İrlandiya, Niderland və Belçika qanunvericiliyində artıq mövcud idi. Passiv seçki hüququna münasibətdə vəziyyət bir qədər fərqli idi, bu hüququ bir qayda olaraq, yalnız həmin üzv-dövlətin vətəndaşları istifadə edə bilərdi. İstisna yalnız İtaliya qanunvericiliyində nəzərdə tutulurdu, bu dövlətin qanunlarına görə istisnasız olaraq Aİ-nin bütün üzv-dövlətlərinin vətəndaşları passiv seçki hüququndan istifadə edə bilərdi. Böyük Britaniyada da adekvat norma var idi. Fərq onda idi ki, Böyük Britaniya Avropa parlamentinə seçkilərdə passiv seçki hüququnu öz vətəndaşları ilə yanaşı, İrlandiya vətəndaşlarına da şamil edirdi.

Aİ-nin yaradılması haqqında Müqavilənin 8c maddəsi onun hüdudları xaricində olan Aİ vətəndaşlarına ehtiyac olduğu halda Aİ-nin istənilən üzv-dövlətinin diplomatik nümayəndəliklərindən və konsul missiyalarının müdafiəsindən istifadə etmək hüququ verir[69, 516]. Bu vahid ümumavropa vətəndaşlığının olduqca spesifik

atributudur, hansı ki, ilk dəfə Maastrixt müqaviləsində təsbit edilmişdir. Məsələ burasındadır ki, burada söhbət Aİ tərəfindən yox, məhz üzv-dövlətlər tərəfindən göstərilən diplomatik və konsul müdafiəsindən gedir.

1961-ci il Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasına (m. 6, 46), həmçinin 1963-cü il Konsul əlaqələri haqqında Vyana konvensiyasına (m. 8, 18) uyğun olaraq, olduğu dövlətə məxsusluğu olmayan (və ya vətəndaşı olmayan) üçüncü dövlətin vətəndaşının diplomatik və konsul səviyyəsində müdafiəsini həyata keçirmək mümkündür. Ancaq bu maddələrin müddəaları olma dövlətinin aydın şəkildə ifadə edilmiş ilkin razılığını və ya etirazlarının yoxluğunu nəzərdə tutur. Beləliklə, akkreditə edən dövlət, hər dəfə, nə vaxt ki, üçüncü dövlətin vətəndaşlarının təhlükəsizliyini hədələyən hansısa bir fövqəladə vəziyyət yarandıqca, həmin üçüncü dövlətin xahişi ilə diplomatik müdafiənin göstərilməsinə olma dövlətinin razılığını tələb edəcək. Nəzərə alsaq ki, Yer kürəsində dövlətlərin ümumi sayı iki yüzü keçir, o zaman diplomatik və konsul nümayəndəlikləri tərəfindən müdafiə hüququ olduqca şərti və pis təmin edilmiş qalır.

Aİ qanunvericiliyinə uyğun olaraq üçüncü ölkə vətəndaşlarının hüquqları, xüsusilə mülki hüquq və azadlıqları əhəmiyyətli məhkəmə araşdırması mövzusu olmuşdur. Aİ-nin məqsədlərindən biri azadlıq, təhlükəsizlik və ədalət zonası yaratmaqdır. Bu vəzifənin məqsədi İttifaq vətəndaşlarının və Aİ-yə qanuni daxil olan üçüncü ölkə vətəndaşlarının daxili sərbəst hərəkətini təmin etməkdir. Presedent hüququ, bəzən insan hüquqları anlayışlarından istifadə edərək üçüncü ölkə vətəndaşlarının ailə üzvlərinin hüquqlarını genişləndirmişdir. Bəzi hallarda Aİ, üçüncü ölkələrlə onların vətəndaşlarının İttifaqa daxil olması və məhdud iqtisadi hüquqlardan istifadə edə biləcəyi sazişlər bağlayır. Məsələn Avropa iqtisadi zonası haqqında Saziş, Aİ və Türkiyə arasında 2004-cü il Sazişi və s. qeyd etmək olar [53, 498].

Aİ-nin yaradılması haqqında Müqavilənin 8d maddəsinə müvafiq olaraq, Aİ-nin istənilən vətəndaşı petisiya və şikayətlərlə Müqavilədə müəyyən edilmiş prosedurlara riayət etməklə Avropa Parlamentinə müraciət etmək hüququna malikdir. Ancaq bu Aİ vətəndaşlarının müstəsna hüququ deyil, bu hüquqa istənilən Aİ üzv-dövlətində daimi yaşayan "üçüncü ölkələr"in vətəndaşları və ya qeydiyyatdan keçən

hüquqi şəxsləri də malikdirlər. Aİ vətəndaşlarının petisiya və şikayətlə bağlı müraciət hüququ barəsində qeyd edilən son iki kateqoriya şəxslərin hüquqi vəziyyətindən prinsipial fərqi ondadır ki, bu hüququn realizəsi üçün Aİ vətəndaşlarından Aİ üzv-dövlətində "daimi" yaşama tələb olunmur. Petisiyalarla və şikayətlərlə müraciət etmək hüququ vətəndaşın Avropa Parlamenti ilə münasibətlərindən yaranan faktiki olaraq, iki sərbəst və bir-birindən ayrı hüquqdur.

Qeyd edilən hüquqlardan birincisi hələ Maastrixt müqaviləsinin qəbul edilməsinə qədər Avropa birliklərinin qanunvericiliyinə məlum idi. Xüsusilə də, bu hüquq Avropa Parlamentinin prosedur qaydalarının (Reqlamentinin) 128-130-cu maddələrində öz əksini tapmışdır. Sonradan Aİ-nin yaradılması haqqında Müqavilənin 13, 8d maddələri Avropa Parlamentinin Petisiyalar üzrə Komitəsi tərəfindən vətəndaşların müraciətlərinə baxılması üzrə şərtləri aydın şəkildə qeyd etdi. Birincisi, həll tələb edilən məsələ Avropa Birliklərinin hər hansı fəaliyyəti sferaları çərçivəsində olmalıdır. İkincisi, bu məsələ bilavasitə o şəxsin maraqlarına toxunmalıdır ki, hansı ki, petisiya ilə müraciət edir. Bununla birlikdə, qeyd etmək lazımdır ki, Aİ-nin yaradılması haqqında Müqavilə fərdi, həm də kollektiv petisiyalar vermək imkanını da nəzərdə tutmuşdu.

Aİ vətəndaşlarının petisiyalarla müraciət etmək hüququndan fərqli olaraq, Avropa Parlamentinə şikayətlər vermək hüququ, həm bu hüququn məzmunu nöqteyi-nəzərindən, həm də Avropa Parlamenti Ombudsmanı institutunun meydana çıxması ilə əlaqədar əhəmiyyətli yenilik idi. Aİ-nin yaradılması haqqında Müqaviləyə uyğun olaraq, İttifaqın hər bir vətəndaşı Aİ Ombudsmanına şikayətlə müraciət hüququna malikdir, hansı ki, Avropa Parlamenti tərəfindən təyin olunur. Ombudsmanın fəaliyyəti ona yönəldilən şikayətlərdə göstərilən İttifaqın mövcud hüququnun tətbiqi vaxtı çatışmazlıqların aradan qaldırılmasına yönəlmişdir.

Yalnız qanunverici və ya inzibati xarakterli qeyri-qanuni əməllər yox, həm də qeyri-effektiv və məsuliyyətsiz icra edilən funksiyalar da çatışmazlıqlar siyahısına aiddir. Şəxslər, Ombudsmana ya bilavasitə, ya da Avropa Parlamentinin deputatı vasitəsilə şikayətlə müraciət edə bilərlər. Bu halda şikayətin predmetinin bilavasitə şikayət verən şəxsə toxunması mütləq şərt deyildir. Qeyd edək ki, Ombudsman Aİ

Məhkəməsinin öz səlahiyyətlərinin realizəsi hissəsində birinci instansiya məhkəmələrinin hərəkətlərindən şikayətlərə baxmır. Qeyd etmək lazımdır ki, S.Y.Kaşkin Əsas hüquqlar haqqında Aİ Xartiyasına 43-cü maddənin şərhində yazır ki: "özü-özlüyündə belə orqanın mövcudluğu insan hüquqlarına riayət etmənin və onların müdafiəsinin yüksək səviyyəsinin təminatının əhəmiyyətli zəmanətidir"[43, 126]. Amsterdam müqaviləsi Maastrixt müqaviləsinin 8d maddəsini belə bir müddəa ilə tamamladı: "İttifaqın hər bir vətəndaşı üzv-ölkələrin dövlət dillərindən birində yazılı ərizə ilə İttifaqın istənilən orqanına (Avropa Parlamenti, Şura, Komissiya, Məhkəmə, Hesablama Palatası, İqtisadi və Sosial Komitə, Regionlar Komitəsi, Ombudsman) müraciət etmək və həmin dildə cavab almaq hüququna malikdir".

Əsas hüquqlar haqqında 2000-ci il tarixli Aİ Xartiyasının 41-ci maddəsində təsbit edilən "yaxşı idarəetmə hüququ" konsolidasiya olunmuş hüquq olmaqla, İttifaqın ərazisində qanuni əsaslarla yaşayan vətəndaşların və şəxslərin Aİ orqan və institutlarına müraciət hüququ ilə yanaşı, aşağıdakı hüquqları və halları da ehtiva edir: Aİ-nin orqan və institutları tərəfindən vətəndaşların və şəxslərinin işinə qərəzsiz, ədalətlə və ağlabatan müddətdə baxılmasını; İttifaqın hər bir vətəndaşı və şəxsi, onlara qarşı fərdi xarakterli və əlverişsiz nəticələr doğuran qərarların qəbuluna qədər dinlənilməlidir; İttifaqın vətəndaşları və şəxslərinə toxunan informasiya dosyesinə giriş yalnız məxfilik, peşəkarlıq və kommersiya sirrinin qorunması şəklində onların qanuni maraqlarına riayət etmə şərti ilə mümkündür; İttifaqın vətəndaşları və şəxslərinə Aİ institutları və ya onların əməkdaşları tərəfindən vurulmuş ziyanın ödənilməsi [125].

Əsas hüquqlar haqqında Aİ Xartiyasının 42-ci maddəsi bəyan edir ki, İttifaqın hər bir vətəndaşı və ya Aİ üzv-dövlətində daimi yaşayan şəxs və ya hüquqi ünvana malik olan hüquqi şəxs Avropa Parlamentinin, Şuranın və Komissiyanın sənədlərinə giriş hüququna malikdir. Bu hüquq Aİ-nin yaradılması haqqında Müqavilənin 255-ci maddəsində də təsbit edilmişdir. Avropa Birliyinin yaradılması haqqında Roma Müqaviləsinə əsasən sənədlərə giriş hüququnun tətbiqi vaxtı dövlət və ya şəxsi maraqlarda rəhbər tutulan ümumi prinsiplər və məhdudiyyətlər Şura tərəfindən müəyyən olunur. Beləcə, Şura və Komissiyanın sənədləşməsinə girişin ümumi qayda

və şərtləri 6 dekabr 1993-cü il tarixli Şura və Komissiyanın sənədlərinə ictimaiyyətin girişi barəsində davranış Kodeksi ilə müəyyən edilir.

Aİ vətəndaşlığı üzv-dövlətlərin vətəndaşlarına yeni bir status, o cümlədən İttifaqı boyunca həyata keçirilə bilən bir sıra hüquqlar qazandırsa da, bu konsepsiyanın həyata keçirilməsi üzv-dövlətlərin bəzi qanuni maraqları ilə yanaşı milli siyasət və ya suverenliyini qorumaq istəyi ilə gərginlik yarada bilər. Vətəndaşlıq üçün təhsil Avropa səviyyəsində təhsil islahatlarının prioriteti olaraq qəbul edilir. Bu, vətəndaşların hüquq və vəzifələrinə əsaslanan sosial birliyin bir aləti olaraq görülür. Bundan əlavə, bütün Avropa ölkələrində təhsil siyasətin əsas ölçüsünü təmsil edir. Bütövlükdə, vətəndaşlıq üçün təhsil təhsil sistemini müxtəliflik, plüralizm, insan hüquqları, sosial ədalət, rifah, həmrəylik kimi ümumi dəyərlərin məcrasına aparan bir təhsil məqsədidir.

Aİ vətəndaşlığı haqqında sadalanan müqavilələrin müddəaları kifayət qədər ümumi xarakter daşıyır və qətiyyən əhalinin ayrıca qruplarının (uşaqlar, qadınlar, işsizlər, pensiyaçılar, gənclər, əlillər) hüquqlarını konkretləşdirmir. Hətta Maastrixt müqaviləsi ilə xülasə edilmiş Aİ vətəndaşlarının hüquqlarının siyahısı olduqca məhduddur. O, adətən öz vətəndaşları üçün milli konstitusiyaların nəzərdə tutduğu hüquqların həcminə açıq-aydın şəkildə adekvat deyildir. Bundan başqa, əgər bu hüquqlardan bəziləri həqiqətən ilk dəfə meydana çıxmışdısa, (məsələn, diplomatik nümayəndəliklərin və istənilən üzv-dövlətin konsul missiyalarının müdafiəsindən istifadə etmək hüququ), digər hüquqlar (məsələn, Aİ-nin bütün ərazisi daxilində yerdəyişmə və yaşamaq azadlığı) hələ Maastrixt müqaviləsinin qəbulundan öncə Avropa Birliyinin qanunvericiliyi səviyyəsində mövcud idi.

Beləliklə, vahid ümumavropa vətəndaşlığının yaradılmasına dair fəaliyyət əsasən Avropa çərçivəsində inteqrasiya proseslərinin daha da sürətləndirilməsinə istiqamətlənmişdir. Hazırda Aİ vətəndaşlığı haqqında Maastrixt müqaviləsinin müddəalarının həqiqi mənası bu gün onların bilavasitə məzmununun realizəsinə yox, gələcək perspektivə nəzərdə tutulmuşdur. Bununla əlaqədar olaraq, vahid ümumavropa vətəndaşlığının aşkar potensialını qiymətləndirməmək olmaz.

Bu paraqrafda qeyd edilənlərə yekun vuraraq, belə nəticəyə gəlmək olar ki, Aİ vətəndaşlığı beynəlxalq hüquqi təbiətə malikdir, hansı ki, Aİ üzv-dövlətlərinin milli

vətəndaşlığı ilə bağlı İttifaq vətəndaşlığının subsidiar xarakterinin saxlanılmasında ifadə edilir. Bundan başqa, Aİ vətəndaşlığının təhlili iddia etməyə əsas verir ki, Aİ vətəndaşlarının İttifaq qarşısında hər hansı vəzifələri yoxdur, bu isə bizim fikrimizcə, vətəndaşlıq haqqında klassik yanaşmaya zidd təəssüratı yaradır, yəni vətəndaşlıq həm hüquqların verilməsini, eyni zamanda vəzifələrin icrasını da tələb edən anlayışdır. İddia etmək olar ki, bu hüquqi anlayış milli vətəndaşlıqla müqayisədə üzv-dövlətlərin vətəndaşlarını bəzi əlavə hüquqlarla təmin edir, bu isə həmin şəxslərin hüquq və azadlıqlarının hüquqi təminatlarının daha da genişlənilməsinə imkan yaradır. Son nəticədə isə, bu hal vətəndaşlıq haqqında klassik yanaşmaya, bu sahədə mövcud nəzəriyyələrə, hüququn və insan hüquqlarının ümumi prinsiplərinə, nəhayət mühüm beynəlxalq normalara qətiyyən zidd deyildir.

III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA VƏTƏNDAŞLIQ HÜQUQUNUN İNKİŞAF PROBLEMLƏRİ

3.1. Azərbaycan Respublikasının hüquq sistemində vətəndaşlıq hüququnun formalaşması və əsas xüsusiyyətləri

Müasir dövrdə Respublikamızda mövcud olan vətəndaşlıq institutu haqqında, onun formalaşması, hüquqi əsasları barədə ətraflı fikir irəli sürmək üçün ilk növbədə, onun yaranması tarixi, məzmununun dəyişikliyi, müxtəlif tərəflərinin hüquqi nizama salınmasının sonrakı inkişaf dinamikasına nəzər yetirilməlidir.

Qədim Azərbaycanda ictimai münasibətlərin subyektlərinin hüquqi vəziyyəti onların ölkənin siyasi və sosial həyatında tutduğu mövqe baxımından özünün çoxcəhətliliyi ilə fərqlənirdi. Əhalinin yuxarı təbəqəsini kahinlər, iri torpaq sahibləri olan quldar əyanlar və hərbçilər təşkil edirdi. Azərbaycanda əhalinin böyük bir qrupunu, başlıca olaraq əkinçiliklə, yarımköçəri maldarlıqla və müxtəlif sənət sahələri ilə məşğul olan icma üzvləri təşkil edirdi. İlkin Azərbaycan cəmiyyətində hər bir şəxsin ictimai vəziyyəti onun malik olduğu torpağın, mal-qaranın və qulun miqdarı ilə müəyyən edilirdi.

Azərbaycanda III-IV əsrlərdə, konkret olaraq, Albaniyada əhalinin iki zümrəsi – məbədətrafı torpaqların sakinləri və hiyerodullar - məbəd qulları Strabonun məlumatlarında diqqəti cəlb edir. Hiyerodullar Qədim Yunanıstanda və Yunan müstəmləkələrində məbədlərə mənsub qullar idi. Ön Asiyanın bir çox şəhərlərində hiyerodulların məbədlərdə müxtəlif işlərlə məşğul olmaları və əldə etdikləri vəsaitdən öz sahiblərinə vergi vermələri onların hüquqi vəziyyətində müxtəlifliyin olmasına sübutdur. Hiyerodullar Asiya qitəsinin tərkib hissəsi olan Zaqafqaziyada da mövcud olmuşlar. Albaniyadakı məbəd qulları da hiyerodullar adı altında tarixə bəlli olmuşlar. Tarixi mənbələr və ədəbiyyatlarda onların hüquqi statusu barədə fikir müxtəlifliyi mövcuddur. Bəzi tədqiqatçılar hiyerodulların qul olduqlarını qeyd etdikləri halda, digərləri onların azad icma üzvləri olduğunu güman edirlər[14, 30-31].

İlkin Orta əsrlərdə əsas siniflər kimi formalaşmaqda olan feodal və kəndlilərin hüquqi vəziyyəti sonrakı dövrlərdən əhəmiyyətli dərəcədə fərqlənirdi. Belə vəziyyət,

həm də, Azərbaycanın cənub və şimal hissələrində müəyyən qədər fərqli, əsasən də dini mənsubiyyətlə səciyyələnən ictimai-siyasi şəraitin mövcudluğu ilə bağlı idi.

Azad statusa malik əhali qrupları ilə bərabər, bu dövrdə ev təsərrüfatında, şah mədənlərində, məbəd təsərrüfatında çalışan qullar da mövcud idi. Qulların hüquqi vəziyyəti haqqında Sasani Qanunnaməsində və Avestanın qatlarında çoxsaylı məlumatlara rast gəlinir.

Azərbaycanın şimal hissəsində - Albaniyada xristianlıq yayıldıqdan sonra, ictimai münasibətlərin iştirakçılarının hüquqi statusunda müəyyən dəyişikliklər baş verdi. Albaniyada da qonşu ölkələrdə olduğu kimi feodal iyerarxiyası mövcud idi ki, bu da "Dərəcə Fərmanında" – "Qaxnamak"da öz əksini tapmışdı. Hər bir feodal-azat patronimiyası dərəcələrin bu xüsusi cədvəlində öz qüdrət və mövqeyinə müvafiq ardıcıllıqla qeyd edilirdi. İlk on patronimiya böyük nəsil, qalanları isə kiçik nəsillər sayılırdı [17, 29].

Göründüyü kimi, qədim və ilkin orta əsrlərdə əhali əsasən hakim təbəqə, kəndlilər və qullardan ibarət idi. Müasir anlamda hüquq və azadlıqlar əsasən hakim təbəqəyə məxsus idi, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında da əsas pay sahibləri məhz hakim təbəqə idi. Kəndli və qullar isə demək olar ki, hüquqsuz vəziyyətdə idi.

Ərəblərin Azərbaycana yürüşü və islam dinin Azərbaycanda bərqərar olması ilə islam hüququ və mədəniyyəti formalaşdı. Müsəlman hüququnda insanların üç qrupu haqqında geniş mühakimə yürüdülür: azad müsəlmanlar, müsəlman olmayanlarlar və kölələr. Ümumiyyətlə, İslam hüququnda müsəlman olmayan "zimmilər" və "harbilər" adlanan iki qrupa ayrılırdı. Zimmilər dövlətin müsəlman sayılmayan vətəndaşları hesab olunmaqla xüsusi hüquqlara malik idi. Bunlardan fərqli olaraq əcnəbilər sayılan harbilər yalnız icazə əsasında ölkəyə daxil ola bilərdilər [18, 4].

Bu dövrdə ev köləliyindən geniş istifadə edildiyi üçün müsəlman hüququ qullara, onların hüquqi vəziyyətinə geniş yer verirdi [93, 5-10].

X-XII əsrlərdə Azərbaycanda ictimai münasibətlərin, o cümlədən də mülki hüquq münasibətlərinin iştirakçılarının dairəsi genişlənirdi. Bütün əsas istehsal vasitələri – torpaq, su, suvarma kanalları və s. üzərində tam hökmran olan yuxarı təbəqənin ali və aşağı səviyyələri fərqləndirilirdi. Əməkçi və hüquqları məhdudlaşdırılan əhali qrupları

xırda azad torpaq mülkiyyətçiləri (“əl-dəhakin”, “dehqan”), “əl-əkərə”, “bərzigar”, “müzari” adlandırılan əkinçilər, “yardar”, “uluc” adlanan asılı kəndlilər təşkil edirdilər. İcarəçi kəndlilər, yəni “yardarlar” torpaq sahibindən feodal asılılığında idi və bu bir çox hallarda irsi asılılığa çevrilirdi [2, 189-190].

Azərbaycanda monqolların hökmranlığı dövründə, yəni XIII-XIV əsrlərdə müsəlman ruhaniləri ilə yanaşı, xristian ruhanilərinə də müəyyən imtiyazlar verilmişdi və onlar da vergi immunitetinə malik idi. Yerli feodalların iqtisadi və siyasi təsirinin möhkəmlənməsi tendensiyası xüsusilə Elxani hökmdarlarından olan Qazan xanın hakimiyyəti dövründə müşahidə edilirdi. İri və xırda torpaq sahibləri - “mallak”, “ərbab”, “tünnah” adlandırılırdı və onlar torpaq sahələri ilə yanaşı, ticarət və sənaye müəssisələrinə də sahiblik edirdilər.

Bu dövrdə Azərbaycanda ev köləliyi öz mövcudluğunun saxlamasına rəğmən, qulların hüquqi vəziyyətində müəyyən dəyişikliklər baş verirdi. Qulların heç bir hüququ olmasa da, evləri və ailələri vardı, hətta qullar arasında sənət sahiblərinə də rast gəlinirdi. Feodalın mülkiyyətində olan qullar tədricən təhkimli kəndlilərə çevrilirdi.

XVI-XVIII əsrlərdə Rusiya və Osmanlı imperiyasının işğal etdiyi ərazilərdə yerli əyanlarla yanaşı, yuxarı təbəqəyə həmin dövlətlərin bu ərazilərin idarə edilməsinin tapşırıldığı yüksək rütbəli məmurları, aristokratiya və hərbçiləri də aid edilirdilər. Bu dövrdə həm Səfəvilərdə, ondan sonrakı Nadir şahın dövlətində də əhalinin əksəriyyəti müsəlman idi. Xristian təbəələr, ruhanilər istisna olmaqla, əsasən kəndlərdə rəiyyət və rəncbər, şəhərlərdə isə sənətkar və xırda alverçi kimi çalışırdılar.

Beləliklə, digər ərazilərdə olduğu kimi orta əsrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərdə əhalinin yalnız yuxarı təbəqəsi müasir anlamda desək, dövlətlə siyasi-hüquqi bağlılığa malik idi. Əhalinin əksəriyyət təşkil edən digər təbəqələri isə heç bir siyasi hüquqlara malik deyildi və dövlətin həyatında az da olsa əhəmiyyət kəsb etmirdilər. Bu sırada müəyyən mənada tacir və sənətkarları istisna etmək olar.

Xanlıqlar dövründə Azərbaycanın sosial strukturu istehsal münasibətlərinin, məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə müəyyən edilirdi. İctimai vəziyyətindən, silki mənsubiyyətindən, malik olduqları ərazilərin böyük-kiçikliyindən və

xarakterindən, hərbi dəstələrin sayından və s. dən asılı olaraq, xanlar, sultanlar, məliklər, bəylər, tayfabaşılar, ağalar, şeyxlər, axundlar, qazılar, mollalar və s. ictimai mənsubiyyət nərdivanının müxtəlif pillələrə bölünürdü. Xanlardan vassal asılılığında olan ağalar, sultanlar, məliklər müxtəlif güzəştlərə, habelə torpaq, şəxsi, məhkəmə və vergi immunitetinə malik idilər.

Bu dövrdə öz hüquqi vəziyyətinə görə rəiyyətlərə, rəncbərlərə, elatlara və digər sosial qruplara ayrılan əhali qrupu say etibarilə digərlərini üstələyirdi. Xanlıqlar dövründə əhalinin mövcud sosial qrupları arasında özünəməxsus yer tutan tacir və sənətkarlar əsasən şəhərlərdə məskunlaşmışdılar. Azərbaycan şəhərlərində iki cür sənətkarlara təsadüf edilirdi: sənətkar sexlərinin üzvləri və evdə fərdi əməklə məşğul olan sənətkarlkar [115].

Azərbaycanın Rusiya İmperiyasına daxil edildiyi 1828-ci ildən başlayaraq, Azərbaycan ərazisində yaşayan əhali indiki anlamda vətəndaş anlayışı ilə adlandırılmasa da, faktiki olaraq, həmin hüquqi statusa bənzər mövqedə idi. Çar Rusiyasında vətəndaşlıq anlayışı mövcud deyildi, təbəəlik institutu onu əvəz edirdi. Bu halda qeyd etmək əhəmiyyətlidir ki, təbəəlik haqqında qanunvericilikdə orta əsr feodal hüququnun xüsusiyyətləri öz əksini tapırdı və vətəndaşların hüquq bərabərliyi haqqında heç bir təlimat mövcud deyildi, necə ki, o dövrün qabaqcıl Avropa ölkələrinin qanunvericilik aktlarında rast gəlinirdi.

Rusiya imperiyasının təbəələri bir neçə qrupa bölünmüşdülər, hansılardan ki, hər biri öz hüquqi statusuna malik idi. Birincisi, təbii təbəələr idi – ən hüquqi qorunmuş kateqoriya, hansının ki, tərkibinə, öz növbəsində, zadəganlar, ruhanilər, şəhər (meşşanlar) və kənd (kəndlilər) sakinlər daxil olurdu. İkincisi, əcnəbilər, yəni, qeyri-təbii ruslar və üçüncü qrup Finlandiya sakinləri idi [33, 96].

“Əcnəbilər tərəfindən rus təbəəliyinin qəbul və xitam qaydaları haqqında” 1864-cü il Qanununa əsasən əcnəbi, Rusiya imperiyasının təbəəliyinə qəbul haqqında müraciəti yalnız Rusiya ərazisində beş il yaşadıqdan sonra verə bilərdi. Bununla belə, bu cür müraciəti ərinin razılığı olmadan ərli qadınlar, yəhudilər və dərvişlər edə bilmirdilər. Bu Qanuna görə daxili işlər naziri diskresion səlahiyyətlərə, yəni qanun çərçivəsində şəxsi mülahizə üzrə qərar vermək hüququna malik idi. O, əcnəbilərin

mövcud Qanunun bütün tələblərinə cavab verdiyi hallarda belə, təbəəliyə qəbulundan imtina edə bilirdi [25, 37].

XX əsrin əvvəllərində Azərbaycanda vətəndaşlıq məsələlərinin təhlili daha da aktuallığı ilə diqqəti cəlb edirdi. Bu xüsusən Azərbaycan Xalq Cümhuriyyəti dövründə mühüm əhəmiyyətliliyi ilə fərqlənirdi. 1918-ci il may ayının 28-də Milli Şuranın birinci iclasında Azərbaycanı müstəqil dövlət elan edərək qəbul olunan İstiqlal Bəyannaməsi demokratik respublika idarə üsulunu müəyyən etməklə aşağıdakı müddəaları əks etdirirdi: 1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir. 2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir. 3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir. 4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir. 5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır. 6. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur [108]. Daha sonra, İstiqlal Bəyannaməsində müstəqil Azərbaycan dövlətinin hakimiyyətinin şamil edildiyi ərazinin hüdudları və dövlətin fəaliyyət prinsipləri də müəyyən edilmişdi. Hakimiyyətin xalqa məxsus olması xüsusi qeyd edilməklə, əsas insan hüquqlarının təsbit və təmin edilməsi, bütün xalqların və hər kəsin milli, dini, sinfi, cinsi və s. mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şərait yaradılması və s. vacib məqamlar da İstiqlal Bəyannaməsinin məzmununa daxil idi.

Artıq Azərbaycan Xalq Cümhuriyyəti dövründə rəsmi sənədlərdə Azərbaycan vətəndaşlığı anlayışından istifadə olunurdu. Hətta vətəndaşların siyasi hüquqları da tanınırdı. 1919-cu ilin iyulun 21-də qəbul edilən Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamədə 120 nəfər nümayəndənin bərabər, müstəqil və gizli seçkilər əsasında dövlətin ali nümayəndəlik orqanı olan Müəssislər Məclisinə seçilməsinin hüquqi normaları müəyyən edilmişdi. 10 fəsil və 116 maddədən ibarət Əsasnamə

qadınların seçki hüququnu kişilərlə bərabərləşdirir və bir sıra peşə sahibləri üçün aktiv və passiv seçki hüququnu müəyyən edirdi [12, 322].

11 avqust 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən "Azərbaycan vətəndaşlığı haqqında" Qanun qəbul edildi. Struktur baxımından 4 fəsildən ibarət olan bu Qanun vətəndaşlığın müəyyən edilməsi, əldə edilməsi, itirilməsi ilə bağlı məsələləri ətraflı şəkildə tənzimləyirdi. Azərbaycan tarixində vətəndaşlıq hüququnun formalaşması nöqteyi-nəzərindən ən əlamətdar hadisələrdən biri kimi, adıçəkilən Qanunun 1-ci maddəsini qeyd etmək olar. Məsələ burasındadır ki, məhz bu Qanun ilk dəfə olaraq "Azərbaycan vətəndaşı" ifadəsini ortaya qoydu. Qanunun 1-ci maddəsinə əsasən milli və dini fərqlərə baxmayaraq, özləri və ya valideynləri Azərbaycan ərazisində doğulmuş keçmiş Rusiya imperiyasının bütün təbəələri Azərbaycan vətəndaşları hesab edilirdilər. Qanunun 2-ci bölməsinin 1-ci maddəsində isə qeyd edilirdi ki, birinci bölmənin birinci maddəsində göstərilməyən şəxslər olan Azərbaycan vətəndaşlarından doğulanlar, azərbaycanlıya ərə gəlmiş əcnəbi qadınlar və on yeddi yaşa çatmamış Azərbaycan vətəndaşını övladlığa götürən əcnəbilər Azərbaycan vətəndaşlığı hüququnu əldə edirdilər [114].

Həmin qanunda vətəndaşlıqla bağlı çox vacib digər məqamlar da əks olunmuşdu. Məsələn, xarici vətəndaşa ərə getmiş Azərbaycan vətəndaşı boşandıqda, 17 yaşına çatmamış Azərbaycan vətəndaşının xarici vətəndaşdan doğulmuş övladı, elmi və digər istedadı ilə Azərbaycana xüsusi xidmət göstərmiş və Azərbaycana köçmüş xarici vətəndaş, Azərbaycanda hərbi və mülki xidmətdə olan xarici vətəndaş da Azərbaycan vətəndaşlığı hüququ əldə edirdi. Bundan başqa, göstərilirdi ki, Azərbaycan vətəndaşlığını qəbul edən hər bir şəxs Azərbaycan dövlətinə sədaqət barədə Əsasnamədə müəyyən edilən mətn əsasında and içməli idi. Qanunda vətəndaşlığa önəm verilən xüsusi normalar da mövcud idi (belə ki, şəxs başqa ölkənin vətəndaşlığını qəbul etdikdə o, Azərbaycan vətəndaşlığı hüququnu itirirdi [13, 197]. Qanunda siyasi hüquqlar barədə də xüsusi normalar mövcud idi.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Azərbaycanın SSRİ tərəfindən işğal edildiyindən sonra müstəqil dövlətin vətəndaşlıq institutuna da xitam verildi. 1921-ci il mayın 19-da qəbul edilən Azərbaycan SSR-in ilk Konstitusiyasında

bir sıra insan hüquq və azadlıqları əks olunmuşdu (məsələn, söz və mətbuat azadlığı, yığıncaqlar, mitinqlər, küçə yürüşləri azadlığı, vicdan azadlığı, milli, irqi və dini mənsubiyyətindən asılı olmayaraq bərabərlik hüququ, ictimai təşkilatlarda birləşmək hüququ, pulsuz, ümumi və icbari təhsil hüququ, əmək və istirahət hüququ və s.) [15, 53]. Bundan başqa, Konstitusiya ilə öz vətənində siyasi və dini fəaliyyətinə görə təqib olunan əcnəbilərə Azərbaycan ərazisində sığınacaq hüququ da verilirdi.

1924-cü ildə qəbul edilmiş SSRİ-in birinci Konstitusiyası SSRİ-yə daxil olan ölkələr və muxtar respublikaların vətəndaşlığı ilə birgə vahid ittifaq vətəndaşlığı (SSRİ-in vətəndaşlığı) anlayışını təsbit etdi. Məsələ burasında idi ki, müttəfiq respublikanın hər bir vətəndaşı eyni zamanda Sovet İttifaqının vətəndaşı hesab edilirdi. SSRİ-nin yaranması anından onun ali orqanları əcnəbilər barəsində vətəndaşlıq məsələlərini nizama salmaq hüququnu əldə etdi [118].

Beləliklə, İttifaq Konstitusiyası müttəfiq respublikalarına vətəndaşlıq məsələləri ilə bağlı müstəqil şəkildə qanunlar qəbul etməyə imkan verirdi. Ancaq qeyd etmək lazımdır ki, vətəndaşlığa qəbul, imtina və s. məsələləri nizama salan müttəfiq respublika qanunları qəbul edilməmişdi.

İttifaq vətəndaşlığı haqqında 1924-cü il Qaydalarına uyğun olaraq, ilk dəfə vahid hüquq norması müəyyən edilirdi, hansı ki, şəxsin müttəfiq respublikalarından birinin və SSRİ vətəndaşı kimi tanınması üçün lazım olan əsasları və şərtləri təyin edilirdi. Xüsusilə də, İttifaqın ərazisində olan hər bir şəxs, əgər o, xarici dövlətin vətəndaşlığına məxsusluğunu sübut etməzdisə, SSRİ vətəndaşı kimi tanınırdı.

1927-ci il Konstitusiyası və 29 may 1928-ci ildə qəbul edilmiş Nikah, ailə, qəyyumluq və vətəndaşlıq vəziyyəti aktları haqqında Məcəllədə vətəndaşlıq məsələləri öz əksini tapmışdı. Bu Məcəllənin VI bölməsində vətəndaşların öz ad və soyadlarının dəyişdirilməsi ilə bağlı məsələlər ətraflı olaraq tənzimlənir.

Azərbaycan SSR-in 1937-ci ildə qəbul edilən növbəti Konstitusiyasının 18-ci maddəsində qeyd edilirdi ki, Azərbaycan SSR-in hər bir vətəndaşı SSRİ-nin vətəndaşıdır. Bundan başqa, göstərilirdi ki, bütün başqa müttəfiq respublikaların vətəndaşları Azərbaycan SSR ərazisində Azərbaycan SSR vətəndaşları ilə eyni hüquqa malikdirlər. Azərbaycan Sovet Sosialist Respublikası öz ali hakimiyyət orqanları və

dövlət idarə orqanları vasitəsilə Azərbaycan SSR-in vətəndaşlığı hüququnu vermək səlahiyyətini daşıyırdı. Konstitusiyanın XI fəsli "Vətəndaşların əsas hüquq və vəzifələri" adlanmaqla burada əsas insan hüquq və azadlıqları təsbit edilmişdi.

Azərbaycan SSR-in 21 aprel 1978-ci ildə qəbul edilən növbəti Konstitusiyasında isə ilk dəfə olaraq bir sıra insan hüquqları təsbit edilmişdi. Məsələn, sağlamlığın mühafizəsi hüququ, mənzil hüququ, mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququ, yaradıcılıq azadlığı və s. Daha sonra, həmin Konstitusiyanın 32-ci maddəsində qeyd edilirdi ki, Azərbaycan SSR vətəndaşları mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən, məşğuliyyət növündən və xarakterindən, yaşayış yerindən və digər hallardan asılı olmayaraq qanun qarşısında bərabərdirlər. Azərbaycan SSR vətəndaşlarının hüquq bərabərliyi iqtisadi, siyasi, sosial və mədəni həyatın bütün sahələrində təmin edilir (m. 32) [11]. Bununla belə, o vaxtın ən mürəkkəb məsələlərindən olan sovet vətəndaşlığından çıxma və vətəndaşlıqdan məhrum etmə müstəsna olaraq SSRİ Ali Soveti Rəyasət Heyətinin səlahiyyətində qalmaqda davam edirdi.

Sovet dövründə nəzəriyyəçi-alimlərin əksəriyyəti vətəndaşlığı konkret insanın müəyyən bir dövlətə məxsusluğu kimi qəbul edirdilər. Məsələn, A.A.Qolovko vətəndaşlığa insanın "dövlətin tərkibinə daxil olması" kimi baxır [28, 19]. Birtərəflilik və baxılan məsələnin natamam xarakteristikası belə yanaşmanın çatışmazlığıdır. Dövlətə məxsusluq anlamından vətəndaşlığın təyini vətəndaşı yalnız dövlətin tərkib hissəsi kimi müəyyən edir və vətəndaşla dövlətin arasında münasibətlərin xarakterini nəzərə almır.

Vətəndaşlıq haqqında növbəti Ümumittifaq qanunları 1978 və 1990-cı ildə qəbul edilmişdi. Həmin qanunlara əhəmiyyətli dəyişikliklər daxil edilməmişdi. 1991-ci ilin dekabrında SSRİ-nin dağılmasına qədər vətəndaşlıq məsələlərinin nizama salınması 1977-ci ilin SSRİ Konstitusiyası və digər normativ hüquqi aktlara əsasən həyata keçirilirdi.

Ümumiyyətlə, bir vacib məsələni qeyd edək ki, SSRİ vətəndaşlığını təsbit edən bütün sənədlərdə torpaq hüququ əsas götürülmüşdü, konkret olaraq, ilkin sənədlərdə Rus İmperiyasının təbəələrinin vətəndaş kimi tanınması da qeyd edilir. Məsələn,

SSRİ vətəndaşlığı haqqında 13 avqust 1938-ci il Qanununun 2-ci maddəsində göstərilir ki, a) 7 noyabr 1917-ci ilə keçmiş Rusiya İmperiyasındakı bütün təbəələr və sovet vətəndaşlığı itirməmiş şəxslər; b) qanunla müəyyən edilmiş qaydada sovet vətəndaşlığını əldə etmiş şəxslər SSRİ vətəndaşları hesab olunurlar [20, 164].

SSRİ-nin dağılmasından sonra Azərbaycanda vətəndaşlıq məsələlərinin yeni tarixi başlandı. Azərbaycanın müstəqilliyinin ilk illərində qəbul edilmiş 18 oktyabr 1991-ci il tarixli AR-in dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının 8-ci maddəsində qeyd edilir ki, Azərbaycan xalqı AR-in ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan bütün AR vətəndaşlarından ibarətdir, bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir [3, 2]. Müasir dövrdə Respublikamızda vətəndaşlıq məsələlərini, o cümlədən vətəndaşlığın əldə edilməsi, itirilməsi, ikili vətəndaşlıq, vətəndaşsızlıq və digər halları tənzimləyən bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir.

Beləliklə, vətəndaşlıq hüququnun formalaşması və inkişaf tarixi ilə bağlı qeyd etdiklərimizi yekunlaşdırıb belə qənaətə gəlirik ki, qədim və orta əsrlərdə əhalinin yalnız yuxarı təbəqəsi (quldarlar, feodallar, əyanlar və s.) müəyyən hüquqlara malik idi. Əhalinin digər hissəsi isə heç bir siyasi hüquqlara malik deyildi, daha çox vəzifələr, öhdəliklər daşıyırdılar. Yəni dövlətlə əhali arasında siyahi-hüquqi əlaqə yox səviyyəsində idi. Bu sırada müəyyən mənada tacir və sənətkarları istisna etmək olar.

Azərbaycanın Rusiya İmperiyasına daxil edildiyi 1828-ci ildən başlayaraq, Azərbaycan ərazisində yaşayan əhali İmperiyanın "təbəə"ləri adlanırdı. Ümumilikdə, həmin dövrdə "vətəndaşlıq" terminindən istifadə edilməsə də, faktiki olaraq, əhali həmin hüquqi statusa bənzər mövqedə idi. Lakin, təbəəlik haqqında qanunlarda da orta əsr feodal hüququnun xüsusiyyətləri öz əksini tapırdı və vətəndaşların hüquq bərabərliyi haqqında heç bir qayda mövcud deyildi. Yalnız 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövründə müasir anlamda vətəndaşlıq institutu formalaşmışdı. Artıq Azərbaycan Xalq Cümhuriyyəti dövründə rəsmi sənədlərdə Azərbaycan vətəndaşlığı anlayışından istifadə olunurdu. Hətta vətəndaşların siyasi hüquqları da tanınırdı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən 11 avqust 1919-cu ildə qəbul edilən "Azərbaycan vətəndaşlığı haqqında" Qanun ilk dəfə

olaraq "Azərbaycan vətəndaşı" ifadəsini meydana çıxarmışdı. Məhz bu sənəd Azərbaycan tarixində ilk dəfə olaraq, vətəndaşlığın müəyyən edilməsi, əldə edilməsi, itirilməsi ilə bağlı məsələləri ətraflı şəkildə tənzimləyirdi.

Azərbaycanın Sovet İttifaqı tərkibində olduğu 1921-1991-ci illərdə vətəndaşlıqla bağlı məsələlər əsasən Azərbaycan SSR-nin əsas qanunu olan Konstitusiya ilə tənzimlənirdi. Azərbaycan SSR-nin müxtəlif illərdə (1921, 1925, 1927, 1937, 1978) qəbul edilən konstitusiyalarında vətəndaşların müxtəlif sahələrdə hüquq və azadlıqları genişləndirilmişdi. Lakin dövlət müstəqilliyinin olmaması vətəndaşlıqla bağlı bəzi mühüm məsələlərin də müstəqil şəkildə həll edilməməsinə gətirib çıxarmışdı.

Müasir dövrdə vətəndaşlıqla bağlı qəbul edilən qanunvericiliyin əsas xarakterik xüsusiyyəti isə onun beynəlxalq hüquq normalarına hörmət prinsipi əsasında qurulmasıdır ki, bu da bilavasitə dövlətimizin əsas məqsədinin insan hüquq və azadlıqlarının qorunması ilə bağlı olmasıdır (AR Konstitusiyası, md.12).

3.2. Azərbaycan Respublikasının qanunvericiliyində vətəndaşlıq hüququnun inkişaf problemləri

Daim artan miqrasiya prosesləri səbəbi ilə hər bir dövlət, o cümlədən AR, vətəndaşlıq məsələlərini tənzimləyən yüksək keyfiyyətli bir hüquqi baza yaratmaqda maraqlıdır. Ümumi mənada qeyd etmək lazımdır ki, AR-in vətəndaşlıq haqqında mövcud qanunvericiliyində hələ də bu sahədə münasibətlərin tənzimlənməsi üçün ahəngdar, təkmil bir sistemin formalaşdırılmasına zərurət vardır. Hüquq ədəbiyyatında haqlı olaraq qeyd edilir ki, normativ hüquqi bazanın çatışmazlıqları hüquq normalarının həyata keçirilməsində problemlərə yol açır ki, bu da dövlət siyasətinin məqsədlərinə çatmağı çətinləşdirir və ictimai həyatın digər sahələrinə də mənfi təsir göstərir [38, 8].

AR-in vətəndaşlıq məsələləri ilə bağlı qanunvericilik sistemini AR Konstitusiyası, qanunlar, beynəlxalq müqavilələr və digər normativ hüquqi aktlar təşkil edir. İlk öncə, qeyd edək ki, 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş AR Konstitusiyasının 52-ci maddəsində AR vətəndaşlığının anlayışı müəyyən edilmişdir. Qeyd edilir ki, Azərbaycan dövlətinə mənsub olan,

onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs AR vətəndaşıdır. AR ərazisində və ya AR vətəndaşlarından doğulmuş şəxs AR-in vətəndaşıdır. Valideynlərindən biri AR vətəndaşı olan şəxs AR vətəndaşıdır.

Hüquq elmində vətəndaşlığın şəxs və dövlət arasında qarşılıqlı hüquq və vəzifələrdə ifadə olunan sabit bir hüquqi əlaqə kimi təsbit edilməsi yanaşması geniş yayılmışdır. Vətəndaşlığı bir şəxs və dövlət arasında hüquqi bir əlaqə kimi başa düşmək, bu anlayışın mahiyyətini ən əhatəli şəkildə ortaya qoyur. Bir insanın dövlətlə hüquqi əlaqəsi xüsusi əhəmiyyət kəsb edir. Yalnız müəyyən bir dövlətin vətəndaşı olmaqla bir şəxs bütün hüquq və azadlıqlara, o cümlədən dövlətin siyasi həyatında iştirak etmək, dövlət orqanlarına və yerli özünüidarəetmə orqanlarına seçilmək və seçmək hüququna malik ola bilər, bu da özlərini demokratik mövqe tutan dövlətlər üçün müəyyənedici amildir.

AR Konstitusiyasının qeyd edilən 52-ci maddəsində daha sonra göstərilir ki, AR-in ərazisində və ya AR-in vətəndaşlığından doğulmuş şəxs AR-in vətəndaşıdır. Hər üç anlayış özündə geniş hüquqi məzmun daşıyır. Birinci halda Respublika ərazisində doğulan şəxs heç bir şərt nəzərdə tutulmadan Azərbaycan vətəndaşı sayılır. İkinci halda hansı ərazidə doğulmasından asılı olmayaraq Azərbaycan vətəndaşlarından doğulan şəxs, həmçinin AR-in vətəndaşı sayılır. Üçüncü halda valideynlərindən biri AR-in vətəndaşı olan şəxs Azərbaycan vətəndaşı hesab edilir [4, 14]. AR Konstitusiyanın 53-cü maddəsinin tələblərinə görə isə, AR vətəndaşı AR vətəndaşlığından (onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla) məhrum edilə bilməz. Adıçəkilən maddədə həmçinin göstərilir ki, AR vətəndaşı heç bir halda AR-dən qovula və ya xarici dövlətə verilə bilməz. AR onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan AR vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir. Konstitusiyanın 109-cu maddəsinin 20-ci bəndinə əsasən, vətəndaşlıq məsələlərinin həll edilməsi AR Prezidentinin səlahiyyətlərinə aid edilmişdir [110].

Respublikamızda vətəndaşlıqla bağlı məsələləri tənzimləyən konkret qanunvericilik aktının qəbul edilməsi obyektiv bir zərurətdən irəli gəlmişdir. Belə bir qanunun qəbul edilməsi, ilk növbədə, vətəndaşlıqla bağlı konkret normativ hüquqi

bazanın olmaması, Azərbaycan dövlətçiliyinin daha da gücləndirilməsi zərurəti ilə əlaqələndirilirdi. AR Konstitusiyasının qəbulundan sonra AR-in sosial-iqtisadi inkişafının reallıqlarını və xüsusiyyətlərini nəzərə alaraq, vətəndaşlıq məsələlərinin həllində dövlət maraqları və fərdi hüquqların balanslı şəkildə nizamlayan ayrıca normativ hüquqi aktın qəbuluna zərurət ciddi idi. AR-də vətəndaşlıq məsələlərini tənzimləyən xüsusi qanunvericilik aktı 30 sentyabr 1998-ci il tarixli "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" AR Qanunudur. Bu Qanun vətəndaşlığa dair əsas məsələləri - vətəndaşlığı tənzim edən prinsipləri, AR vətəndaşı olan şəxslərin dairəsini, vətəndaşlığın əldə edilməsi, xitamı, bərpası qaydalarını və s. məsələləri geniş şəkildə əks etdirir.

Qanunda eyni zamanda göstərilir ki, AR vətəndaşlığı onun əldə edilməsi əsaslarından asılı olmayaraq hamı üçün bərabərdir. AR vətəndaşlarının hüquqları, azadlıqları və vəzifələri onların mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən, məşğuliyyət növündən və xarakterindən, yaşayış yerindən, həmin yerdə yaşadığı müddətdən və başqa hallardan asılı olmayaraq bərabərdir. Qanunun 11-ci maddəsində vətəndaşlığın əldə edilməsi əsasları müəyyən edilmişdir. Həmin maddəyə əsasən şəxs AR-in vətəndaşlığını aşağıdakı hallarda əldə edir: 1) AR-in ərazisində (bu Qanunun 12-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla) və ya AR-in vətəndaşından doğulduqda; 2) AR-in vətəndaşlığına qəbul edildikdə; 3) AR-in beynəlxalq müqavilələrində nəzərdə tutulmuş əsaslar olduqda; 4) bu Qanunda nəzərdə tutulmuş başqa əsaslar olduqda. Qanunun 12-ci maddəsində isə qeyd edilir ki, AR-in ərazisində doğulmuş və hər iki valideyni əcnəbi olan uşaq AR-in vətəndaşı hesab edilmir. AR-in ərazisində doğulmuş və valideynlərindən biri əcnəbi, digəri isə vətəndaşlığı olmayan şəxs olan uşaq AR-in vətəndaşı hesab edilmir. AR-in ərazisində doğulmuş və hər iki valideyni vətəndaşlığı olmayan şəxs olan uşaq AR-in vətəndaşıdır. Qeyd edilən 11 və 12-ci maddələrin diqqət çəkən məqamı ondan ibarətdir ki, 2014-cü ilə qədər əcnəbi vətəndaşın AR ərazisində doğulan uşağının AR vətəndaşlığı əldə etməsi ilə bağlı mübahisələr yaranırdı. Məsələ burasındadır ki, Qanunun əvvəlki redaksiyasında qeyd

edilirdi ki, “Vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində doğulmuş uşağı Azərbaycan Respublikasının vətəndaşıdır”, yəni əcnəbilərlə bağlı konkret bir göstəriş yox idi.

Yalnız, 30 may 2014-cü il tarixli 973-IVQD nömrəli AR Qanunu ilə edilən dəyişikliklərdən sonra 12-ci maddənin adı və mətni dəyişdirildi və əcnəbi vətəndaşın AR ərazisində doğulan uşağına vətəndaşlıq verilməməsi da müddəası təsbit edildi.

Vətəndaşlığın əldə edilməsi ilə bağlı vacib məqamlardan biri vətəndaşlığa qəbuldur. AR vətəndaşlığına qəbul zamanı əsas meyarlar ölkə ərazisində daimi yaşama, bir qədər də konkret desək, son beş il ərzində fasiləsiz olaraq qanuni əsaslarla daimi yaşamaq, müstəsna hallar (yəni yüksək nailiyyəti olan şəxslər), AR qarşısında xüsusi xidmətlərin olması və qanunla müəyyən edilən məhdudiyyətlərin olmamasıdır.

Həmin Qanunun AR-in vətəndaşlığına qəbul məsələlərini tənzim edən 14-cü maddəsində qeyd edilir ki, AR-in vətəndaşlığına qəbul edilməsi barədə vəsatət qaldıran şəxs AR-in Konstitusiyası ilə təsbit olunmuş dövlət quruluşunu zorakılıqla dəyişdirməyə, AR-in ərazi bütövlüyünü pozmağa çağırışlar edərsə, dövlət təhlükəsizliyinə, ictimai asayişin qorunmasına, əhalinin sağlamlığına və ya mənəviyyatına zərər vuran fəaliyyət göstərərsə, irqi, dini və milli müstəsnalığı təbliğ edərsə, terrorçuluq fəaliyyəti ilə əlaqəsi olarsa, vətəndaşlığa qəbul haqqında vəsatəti rədd edilir. Sadalanan məhdudiyyətlər vətəndaşlığın bərpası zamanı nəzərə alınır. Lakin qeyd edək ki, bu qayda yalnız 1 oktyabr 2018-ci il tarixli 1267-VQD nömrəli AR Qanunu ilə edilən dəyişiklikdən sonra tətbiq edilmişdir [111].

AR-in vətəndaşlığı haqqında Qanununda əcnəbi üçün istər oturaqlıq, istərsə də dilin öyrənilməsi tələbi beynəlxalq hüquq qaydasına uyğun təsbit edilmişdir. Qanunun 14-cü maddəsində qeyd edilir ki, AR ərazisində son beş il ərzində fasiləsiz olaraq qanuni əsaslarla daimi yaşayan, qanuni gəlir mənbəyi olan, AR Konstitusiyasına və qanunlarına riayət olunması barədə öhdəlik götürən, habelə AR-in dövlət dilini bilməsi haqqında sənəd təqdim edən əcnəbi və vətəndaşlığı olmayan şəxs mənşəyindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dinə

münasibətindən, siyasi və başqa əqidələrindən asılı olmayaraq bu qanuna müvafiq surətdə öz vəsatəti ilə AR vətəndaşlığına qəbul edilə bilər [111].

Vətəndaşlıq məsələlərinə dair AR qanunvericiliyinin təhlili onu deməyə əsas verir ki, vətəndaşlığın əldə edilməsində əsasən "qan hüququ"na üstünlük verilir, lakin vətəndaşlığa qəbul, yəni "naturalizasiya" və beynəlxalq müqaviləyə uyğun halda, yəni optasiya və transfert də mümkündür [9, 297].

AR-də vətəndaşlıq məsələləri ilə bağlı ən çox müzakirə olunan və daim diqqət mərkəzində olan problemlərdən biri ikili vətəndaşlıqla bağlıdır.

Bütövlükdə, konstitusiya hüququndakı mübahisəsiz bir tezis ondan ibarətdir ki, vətəndaşlıq vətəndaşın həm dövlət daxilində, həm də beynəlxalq aləmdə hüquqi statusunun əsasını təşkil edən meyardır. Yalnız vətəndaşlıq yolu ilə dövlətlə fərd arasında sabit və davamlı bir əlaqə yaranır, fərd və dövlətə qarşılıqlı hüquq və vəzifələrindən irəli gələn bütün üstünlüklərdən tam istifadə etmək hüququ verilir. Vətəndaşlıq məsələlərinin tənzimlənməsi prosesinin yaxşılaşdırılması, vətəndaşlıq anlayışının vacib xüsusiyyətlərini ortaya qoyan aydınlıq və normativ konsolidasiya ilə asanlaşdırılır[19, 63-67].

AR-də ikili vətəndaşlıq probleminə yanaşma fərqlidir. İlk növbədə qeyd edək ki, AR qanunvericiliyi ikili vətəndaşlığı qəbul etmir. AR-in vətəndaşlığı haqqında Qanunda qeyd edilir ki, AR-in vətəndaşı olan şəxsin ikili vətəndaşlığı olduqda (AR vətəndaşlığı ilə yanaşı, digər dövlətin (dövlətlərin) vətəndaşı olduqda) həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, AR-in beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya AR-in Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş hallar istisna olmaqla tanınmır [111].

Bu maddənin təhlili onu deməyə əsas verir ki, başqa bir dövlətin də vətəndaşı olan AR vətəndaşı, AR üçün yalnız AR vətəndaşı sayılır. Qanunda diqqət çəkən məqam beynəlxalq müqavilənin mövcudluğuna dair şərtin olmasıdır. İkili vətəndaşlıq məsələsinin daha bir izahı, AR vətəndaşının başqa bir dövlətin vətəndaşlığına malik olmasının açıqlanması ilə əlaqələndirilir. Bundan əlavə, Qanun AR vətəndaşı üçün müvafiq bir razılaşma olduğu halda belə, başqa bir dövlətin vətəndaşlığını əldə etməsi üçün şəxsin buna təşəbbüs göstərməsini təmin etmir.

Buna əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, qanunvericinin ikili vətəndaşlığa münasibəti konkret və aydın deyildir, müəyyən mübahisəli məsələlər qalmaqdadır. Belə ki, AR Konstitusiyasının 53.1-ci maddəsində qeyd edilir ki, AR-in vətəndaşı heç bir halda AR vətəndaşlığından (onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla) məhrum edilə bilməz. Paralel olaraq, AR-in vətəndaşlığı haqqında Qanunun 18.1-ci maddəsində də göstərilir ki, AR vətəndaşının digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi AR vətəndaşlığının itirilməsi üçün əsas hesab edilir. Qanunun 10-cu maddəsi isə ikili vətəndaşlığa yol verən iki istisna hal nəzərdə tutur.

Hesab edirik ki, bu məsələdə kompleks araşdırma və təhlil aparılması və Qanunun 10 və ya 18-ci maddələrində müvafiq düzəlişlər həyata keçirilməlidir.

Xarici ölkələrin və AR qanunvericiliyinin təhlili göstərir ki, eyni vaxtda AR və xarici dövlətin vətəndaşı olan şəxslər üçün iki sahədə hüquqi statusda çətinliklər mövcuddur: 1) insan və vətəndaş hüquqları və azadlıqları institutunun həyata keçirilməsi, xüsusilə seçki hüququ sahəsində; 2) vətəndaşın dövlətlə bağlı vəzifələrini yerinə yetirməsi (vergi; hərbi xidmət və s.).

Daha sonra, “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Qanunun 10-cu maddəsinin 2-ci hissəsində qeyd edilir ki, xarici dövlətin vətəndaşlığını qəbul etmiş AR-in vətəndaşı bir ay müddətində bu barədə müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir. Belə məlumatı verməyən şəxslər AR-in Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. Eyni zamanda, AR Cinayət Məcəlləsinin müvafiq məsələ ilə bağlı ayrıca “Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməməsi” adlı 318-2-ci maddəsi də vardır.

Hesab edirik ki, bu məsələdə cinayət məsuliyyətinə cəlb etməyə ehtiyac yoxdur və qeyd edilən maddələrdə cinayət yox, inzibati məsuliyyətin nəzərdə tutulması daha məqsədəmüvafiq olardı.

Bildiyiniz kimi, cinayətin əsas əlamətlərindən biri onun yüksək ictimai təhlükəsidir. F.N.Sotskov qeyd edir ki, cinayətin ictimai təhlükəsi, bir insanın zərər verə bilməsi və ya zərər vermə təhlükəsi yaratmaqla bağlı obyektiv qabiliyyətində

ifadə edilən, cəzalandırılmaq təhlükəsi ilə həmin əməlin qadağan edilməsində öz hüquqi qiymətini tapan bir əməlin (hərəkət və ya hərəkətsizliyin) daxili xüsusiyyətidir[42, 17]. Göründüyü kimi, əməlin yüksək ictimai təhlükəli olması cinayət məsuliyyətinin əsas elementidir. Tanınmış hüquqşünas alim F.Y.Səməndərov qeyd edir ki, az əhəmiyyətli olduğundan ictimai təhlükəli olmayan, zərər yetirməyən, yaxud belə təhlükə yaratmayan əməl cinayət deyildir [16, 81].

Respublikamızda vətəndaşlıq hüququnun xüsusi əhəmiyyət kəsb edən sferalarından biri vətəndaşlığa xitam verilməsi ilə bağlıdır. Digər hallarla yanaşı, bu proses əsasən iki halda baş verir: vətəndaşlığın itirilməsi və vətəndaşlıqdan çıxma.

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunun 16-cı maddəsi ilə AR vətəndaşlığına növbəti hallarda xitam verilir: 1) AR vətəndaşlığından çıxmaq nəticəsində; 2) AR vətəndaşlığını itirmək nəticəsində; 3) AR-in beynəlxalq müqavilələrində nəzərdə tutulmuş əsaslar olduqda; 4) qanunda nəzərdə tutulmuş digər əsaslar olduqda [111].

Daha sonra, həmin Qanunun 17-ci maddəsində göstərilir ki, AR vətəndaşlığından çıxma bu Qanunla müəyyən edilmiş qaydada şəxsin vəsatəti üzrə həyata keçirilir. Eyni zamanda, həmin maddənin 2-ci hissəsində müəyyən edilmişdir ki, AR vətəndaşlığından çıxmaq barəsində vəsatət qaldıran şəxsin dövlət qarşısında icra edilməmiş öhdəlikləri və ya AR-də hüquqi və fiziki şəxslərin mənafeləri ilə bağlı olan əmlak öhdəlikləri varsa, vətəndaşlıqdan çıxmaq haqqında vəsatəti rədd edilə bilər. Həmin maddənin 3-cü hissəsində isə göstərilir ki, AR vətəndaşlığından çıxmaq haqqında vəsatət qaldıran şəxs müttəhim kimi cinayət məsuliyyətinə cəlb edilmişsə, yaxud onun barəsində qanuni qüvvəyə minmiş və icra edilməli olan məhkəmə hökmü varsa və ya şəxsin AR vətəndaşlığından çıxması AR-in dövlət təhlükəsizliyinə ziddirsə, müvafiq hallar aradan qalxana qədər vətəndaşlıqdan çıxmağa yol verilmir.

Göründüyü kimi, vətəndaşlıqdan çıxmaq hüququ da müəyyən şərtlər gözlənilməklə təmin edilir. Vətəndaşlıqdan çıxma müvafiq şəxsin vəsatəti əsasında səlahiyyətli dövlət orqanının qərarına uyğun baş verir.

Ümumi formada vətəndaşlıqdan özbaşına məhrumetmə beynəlxalq hüquqla qadağan edilir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 15-ci maddəsinin 2-ci

bəndində qeyd edilir ki, heç kim özbaşına vətəndaşlığından və ya vətəndaşlığın dəyişdirilməsindən məhrum edilə bilməz.

Vətəndaşlıqdan məhrumetmə AR qanunvericiliyində birmənalı şəkildə qadağan edilməmişdir. Belə ki, AR Konstitusiyasının 53-cü maddəsinin 1-ci hissəsi bu halda qanunla müəyyən edilmiş itirilmə halları ifadəsini təsbit etmişdir. Həmin hallar isə AR-in vətəndaşlığı haqqında Qanunun 18-ci maddəsində müəyyən edilmişdir.

Qeyd edilən 18-ci maddədə göstərilir ki, şəxsin "könüllü" şəkildə başqa dövlətin vətəndaşlığını əldə etməsi, "könüllü" şəkildə başqa dövlətdə işləməsi və ya hərbi xidmət etməsi AR vətəndaşlığının itirilməsinə əsas verir. Bu maddənin məzmunundan da görünür ki, şəxsin könüllü olaraq, "öz iradəsinə uyğun" hərəkəti müəyyənedici meyar kimi götürülmüşdür. Yəni dövlət şəxsin iradə ifadəsinə müdaxilə etmir.

Lakin bu maddənin 3 və 4-cü bəndləri dövlətin müdaxiləsini nəzərdə tutur. Burada "müdaxilə" əsaslıdır, yəni burada dövlətin təhlükəsizliyi, terror fəaliyyəti, dövlət quruluşunu qorumaq, ekstremist fəaliyyətin qarşısının alınması, silahlı münaqişədə iştirak və məlumatların qəsdən saxtalaşdırması və ya saxta sənəd təqdim edilməsinin qarşısını almaqdan söhbət gedir.

04 dekabr 2015-ci il tarixli 28-VQD nömrəli AR Qanunu ilə edilən dəyişiklikdən sonra, 18-ci maddənin birinci hissəsinə yeni məzmunda 3-1-ci və 3-2-ci bəndlər əlavə edilmişdir. 3-1-ci bənd əsasən terrorla mübarizə ilə bağlı edilmişdir.

Qeyd etmək lazımdır ki, bu istiqamətdə ilk təşəbbüsü ABŞ həyata keçirmişdir. ABŞ hökuməti belə qərara gəlmişdir ki, terrorla məşğul olmuş və ya belə fəaliyyətə dolayı yolla dəstək göstərən şəxslər mütləq şəkildə ölkə vətəndaşlığından çıxarılmalıdır. Bu təşəbbüsə terrorla mübarizə aparan dünyanın bir sıra ölkələri qoşulmuşdur. AR də bu tendensiyadan kənarda qalmamışdır.

AR-in vətəndaşlığı haqqında 1998-ci il tarixli Qanundan başqa, AR vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında 14 iyun 1994-cü il, Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında 11 iyun 1999-cu il, 15 yaşı tamam olmamış AR vətəndaşının fərdi identifikasiya kartı haqqında 17 dekabr 2013-cü il, Vətəndaşların müraciətləri haqqında 30 sentyabr 2015-ci il qanunları da qüvvədədir.

Beləliklə, AR qanunvericiliyində vətəndaşlıq hüququnun mahiyyətini səciyyələndirən xüsusiyyətlər bunlardır: vətəndaşla dövlət arasında siyasi-hüquqi əlaqənin olması; hüquqi münasibətlərin məzmununda tarazlığın gözlənilməsi, yəni şəxsin iradə azadlığı ilə dövlətin əsaslı müdaxiləsi arasındakı balansın pozulmaması; hüquqi münasibətlərin hər zaman rəsmiləşdirilməsi; dövlət və vətəndaş arasındakı münasibətlərin davamlı, müntəzəm və fasiləsiz xüsusiyyətə malik olması; dövlət və vətəndaş arasındakı münasibətlərin AR vətəndaşının ölkə ərazisində olub-olmamasından asılı olmaması; bu münasibətlərin vətəndaşın istəyi və ya qanuni əsaslarla dayandırıla bilməsi.

Bununla yanaşı, vətəndaşlıq institutunun daha effektiv, müasir dövrün tələblərinə uyğun hüquqi tənzimlənməsi ilə əlaqədar olaraq AR-in bu sahədə müvafiq qanunvericiliyində müəyyən çatışmazlıqların mövcudluğunu da qeyd etməklə onun daha da təkmilləşdirilməsi bütövlükdə vətəndaşlıq hüququnun inkişafı baxımından məqsədəuyğun hesab edilməlidir.

3.3. Azərbaycan Respublikasında vətəndaşlıq hüququnun inkişafına beynəlxalq hüquq normalarının təsiri

Digər sahələrdə olduğu kimi, vətəndaşlıq haqqında milli (dövlətdaxili) qanunvericiliyin formalaşmasında da beynəlxalq hüquq normaları mühüm və həlledici rola malikdirlər. Ümumiyyətlə, beynəlxalq və dövlətdaxili hüququn münasibəti qarşılıqlı təsirin bir neçə aspektinə malikdir. Birincisi, milli qanunvericiliyin beynəlxalq hüquq normalarının formallaşması prosesinə, onların məzmununa təsir göstərməsi; ikincisi, daxili hüquq normalarının yaradılmasına, dəyişikliyinə və tətbiqinə beynəlxalq hüquq normalarının təsiri; üçüncüsü, dövlətdaxili münasibətlər sahəsində beynəlxalq hüquq normalarının bilavasitə hərəkəti (təsiri); dördüncüsü, dövlətdaxili və beynəlxalq hüquq normaları arasında kolliziyalar zamanı tətbiq edilməli hüquq normalarının seçilməsi problemləri, hansılar ki, eyni tənzimetmə predmetinə aiddirlər.

İstənilən formada (əksər hallarda - müqavilədə) ifadə edilmiş dövlətlərin arasında uyğunlaşdırma dövlətdaxili normalardan istifadənin lazımi elementidir və

yalnız belə razılaşma beynəlxalq hüquq normalarını yarada bilər. Bütövlükdə isə səlahiyyətli dövlət orqanlarına hüquqlar verən normaları və dövlətin üzərinə müəyyən vəzifələri qoyan normaları seçmək olar.

Birinci varianta, məsələn, Vətəndaşlıq haqqında 1997-ci il Avropa Konvensiyasının 7.1-ci maddəsini aid etmək olar. Həmin maddəyə müvafiq olaraq, iştirakçı-dövlət öz daxili qanunvericiliyində vətəndaşlığın itirilməsini: 1) şəxsin könüllü şəkildə başqa vətəndaşlığı əldə etməsi zamanı dövlətin özünün təşəbbüsü ilə; və 2) vətəndaşlığın əldə edilməsi vaxtı dələduzluq, yanlış informasiyanın verilməsi və ya bəyanat verənə aid olan faktın gizlədilməsi yolu ilə həyata keçirə bilər [72, 76-80]. İkinci varianta münasibətdə Apatridlərin statusu haqqında 1954-cü il Konvensiyasının 3-cü maddəsi qeyd edir ki, Razılaşan dövlətlər vətəndaşlığı olmayan şəxslərə hazırkı Konvensiyanın müddəalarını irqi, dini diskriminasiya olmadan və onların mənşə ölkəsi əlaməti əsas tutulmadan tətbiq edəcəklər [99, 115].

Milli hüququn normalarına, onların məzmununa və tətbiqinə beynəlxalq hüquq normalarının təsiri imkanını nəzərə alaraq, vurğulamaq lazımdır ki, belə təsirin dərəcəsi müxtəlifdir. Bəzi hallarda müqavilələr bilavasitə fiziki şəxslərin hüquqları və vəzifələrini təsbit edir, yəni bilavasitə fərdlərə ünvanlanmışdır. Başqa hallarda beynəlxalq müqavilələr dövlətləri, öz qanunvericiliyini onların müddəalarına uyğunlaşdırmağa öhdəlikləndirir. Məsələn, dövlətlər üçün mühüm beynəlxalq öhdəliklər müəyyən edən İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1965-ci il tarixli Beynəlxalq Konvensiyasının tələbinə əsasən iştirakçı dövlətlər hökumətin milli və yerli miqyasda siyasətinə yenidən baxılması, habelə irqi ayrı-seçkiliyin meydana gəlməsinə, yaxud hər hansı şəkildə möhkəmlənməsinə gətirib çıxaran dövlətdaxili normativ-hüquqi aktların dəyişdirilməsi, yaxud ləğv edilməsi üçün təsirli tədbirlər görməlidir [48, 314].

Bəzən beynəlxalq hüquq normaları dövlətdaxili hüquq aktlarının konkret məzmununu müəyyən edir. 18 dekabr 1979-cu il tarixli Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Konvensiyanın 9-cu maddəsində göstərilir ki, iştirakçı-dövlətlər qadınlara vətəndaşlığın əldə edilməsi, dəyişikliyi və ya saxlanılması barəsində kişilərlə bərabər hüquqlar verir [97, 664].

Təcrübədə milli qanunvericiliyin beynəlxalq müqavilələrlə uyğunluğa gətirilməsinin növbəti formaları istifadə edilir: prinsipial olaraq yeni qanunvericilik aktlarının hazırlanması və qəbulu (Qaçqınlar və məcburi köçkünlər haqqında qanun); əvvəllər qüvvədə olmuş qanunların yeniləri ilə əvəzlənməsi (Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında AR Qanununun müddəaları AR Miqrasiya Məcəlləsinə daxil edilmişdir); qüvvədə olan qanunvericiliyə əhəmiyyətli dərəcədə dəyişikliklər gətirən normativ hüquqi aktların qəbulu.

Elmdə beynəlxalq hüquqla milli hüququn qarşılıqlı əlaqəsi problemi haqqında bir neçə konsepsiya mövcuddur. Birinci dünya müharibəsindən sonra məşhur Avstriya hüquqşünası Hans Kelzen beynəlxalq hüququn primatlığı konsepsiyasının əsaslarını xülasə etmişdir. Bu konsepsiyaya görə, beynəlxalq hüquq başqa qanun-qaydalarla məhdudlaşdırılmamış ali qanun-qayda rolunda çıxış edir və özü daxili hüququn təsiri sferasını müəyyən edir [34, 257].

Beynəlxalq hüquq normalarının milli qanunvericilikdə realizəsi kimi ifadə edilən implementasiya anlayışı *implementation (ingilis mənşəli söz kimi)* sözündən olub icra etmə, yerinə yetirmə mənalarını ifadə edir. Tədqiqatlarda implementasiya geniş mənada beynəlxalq hüquq normalarının icrasını nəzərdə tutan beynəlxalq və dövlətdaxili səviyyədə lazımı şəraitin yaradılması kimi ifadə edilir [106, 146-284] (yəni bu istiqamətdə müvafiq siyasətin formalaşdırılması, hər iki səviyyədə hüquq normalarının qəbul edilməsi, müvafiq təşkilati mexanizmlərin yaradılması və s.). Məsələn, yenə də dövlətlər üçün ciddi beynəlxalq öhdəliklər müəyyən edən 1966-cı il tarixli Mülki və siyasi hüquqları haqqında Beynəlxalq Paktın 2-ci maddəsinə qeyd edilir ki, əgər bu, mövcud qanunvericilik tədbirləri ilə və yaxud digər tədbirlərlə nəzərdə tutulmayıbsa, hazırkı Paktda iştirak edən hər bir dövlət, öz konstitusion prosedurlarına və hazırkı Paktın müddəalarına uyğun olaraq, hazırkı Paktda qəbul edilən hüquqların həyata keçirilməsi üçün zəruri ola biləcək belə qanunvericilik tədbirlərini və digər tədbirləri qəbul etməyi öhdəsinə götürür [63, 881-890]. Bundan başqa, uşaq hüquqlarının müdafiəsində xüsusi rolu olan Uşaq hüquqları haqqında 1989-cu il tarixli Konvensiyanın 4-cü maddəsində qeyd edilir ki, dövlətlər Konvensiyada təsbit edilən hüquqların həyata keçirilməsi üçün bütün növ lazımi

tədbirləri görməlidirlər, dövlətlər iqtisadi və sosial tədbirləri malik olduqları ehtiyatların maksimum çərçivəsində və lazım gəldikdə, beynəlxalq əməkdaşlıq çərçivəsində görürlər.

Beynəlxalq hüquq normalarının digər realizə üsulu olan inkorporasiya isə hüquq ədəbiyyatında beynəlxalq müqavilə normalarının milli qanunvericiliyə daxil edilməsi yolu ilə dövlətin daxili hüququna daxil edilməsi kimi müəyyən edilir [100, 35-41]. AR Konstitusiyasının 148-2 maddəsinin tələblərinə görə, AR-in iştirakçısı olduğu beynəlxalq müqavilələr AR qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. AR Konstitusiyasının 151-ci maddəsi isə beynəlxalq müqavilə normaları ilə milli qanunvericilik arasındakı yarana biləcək kolliziyaların hüquqi həlli əsaslarını müəyyən etmişdir. Ədəbiyyatda haqlı olaraq qyd edilir ki, beynəlxalq müqavilə və milli qanun arasındakı kolliziya *lex posteriori derogat legi priori* prinsipi əsasında həll olunmalıdır. Beynəlxalq müqavilə həm AR üçün qüvvəyə minməzdən qabaq, həm də ondan sonra qəbul olunmuş istənilən normativ-hüquqi aktlara münasibətdə üstünlüyə malikdir [10, 71].

Beynəlxalq hüququn inkişafı və təsirliliyin artırılmasının ən əhəmiyyətli istiqamətlərindən biri onun prinsiplərinin və normaların reallaşdırmasına kömək etməyə yönəlmiş müxtəlif beynəlxalq mexanizmlərin və prosedurların təsbiti və təkmilləşdirilməsidir. İndiyə kimi beynəlxalq arenada qanunvericilik prosesi dövlətlərin öz üzərlərinə götürdükləri öhdəliklərin həyata keçirilməsi proseslərini əhəmiyyətli dərəcədə qabaqlamışdır. Burda qərarların qəbul olunması və onların icrası prosesi arasında əhəmiyyətli fərqlər mövcuddur. Dövlətlərin ərazisində beynəlxalq müqavilənin icrasının təminatı üzrə aparıcı rol dövlətdaxili hüquqa məxsusdur, hansı ki, bu halda müxtəlif hüquqi üsullardan və formalardan istifadə edir.

Qeyd etmək lazımdır ki, vətəndaşlıq məsələlərinin nizama salınması əsasən dövlətdaxili hüquqa aiddir. Bu müddəa beynəlxalq hüquqda da öz əksini tapmışdır. Bu məsələ, 1930-cu il Vətəndaşlıq haqqında qanunların kolliziyası ilə bağlı bəzi məsələləri nizama salan Haaqa Konvensiyası, həmçinin Beynəlxalq Ədalət məhkəməsi Daimi Palatası və BMT Beynəlxalq Məhkəməsinin qərarlar ilə də təsdiq edilmişdir. 1930-cu il Haaqa Konvensiyasının 1-ci maddəsində göstərilir ki, hər bir dövlət kimin onun

vətəndaşı olmasını özü öz qanununa müvafiq olaraq müəyyən edir" [101, 40]. Ancaq bu o demək deyildir ki, vətəndaşlıq məsələlərində dövlətlərin müstəqilliyi beynəlxalq hüququn normalarına əsaslanır. Öz mülahizəsi üzrə daxili məsələləri, xüsusilə də, vətəndaşlıq məsələlərinin nizama salması üzrə dövlətin müstəsna hüququnu ümumi formada müəyyən edən beynəlxalq hüquq normaları ola bilməz. Bu hüquq dövlətin suverenliyindən irəli gəlir. Əgər belə norma müqavilədə varsa, bu zaman həmin norma deklarativ xarakterə malikdir.

Qeyd edilən 1930-cu il Haaqa Konvensiyasında həmçinin göstərilir ki, vətəndaşlıq haqqında qanun yalnız beynəlxalq konvensiyalara, beynəlxalq qaydalara və hüququn ümumtanınmış prinsiplərinə uyğunluğu zamanı başqa dövlətlər tərəfindən tanınır. 1984-cü ildə İnsan Hüquqları üzrə Amerikaarası Məhkəmə təsdiq etdi ki, vətəndaşlığın verilməsi və nizama salınması dövlətin səlahiyyətinə aid olan məsələdir. Ancaq bu prinsip insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüququn tələbləri ilə məhdudlaşdırılmışdır. Hərçənd vətəndaşlıq məsələləri əsasən dövlətdaxili hüquqla həll edilir, bu o demək deyildir ki, dövlətlər, vətəndaşlığın bütün məsələləri üzrə istənilən qərarı qəbul etməyə müstəsna səlahiyyətlidir. Eyni zamanda, suverenlik və dövlətin təhlükəsizliyinə istinadlar əsas insan hüquqlarının inkar və ya onların pozulmasına bəraət kimi xidmət etməməlidir.

Vətəndaşlıq sahəsində milli hüquq üçün beynəlxalq hüququn rolunu qiymətləndirərkən, müəyyən etmək lazımdır ki, vətəndaşlıq məsələlərinin həllinə beynəlxalq hüquq hansı təsiri göstərir. İlk növbədə, o, vətəndaşlıq əldə etmə və vətəndaşlığın itirilməsi prinsiplərinə, dövlətlərin varisliyi şəraitində vətəndaşlığın seçimi qaydaları, çoxqat vətəndaşlığın hüquqi tənzimlənməsi məsələlərinə təsir edir. Müxtəlif dövlətlərdə vətəndaşlığın nizama salınması qaydalarının fərqinə baxmayaraq, onlarda çox oxşarlıq tapmaq olar.

Avropa Şurası çərçivəsində qəbul edilmiş Vətəndaşlıq haqqında 1997-ci il Avropa Konvensiyası onu göstərir ki, bu ümumi xüsusiyyətlər beynəlxalq hüquq səviyyəsində təsbit oluna bilər. Avropa Şurasının üzv-dövlətləri yalnız 1997-ci il Vətəndaşlıq haqqında Avropa Konvensiyasına uyğun olaraq, vətəndaşlıq haqqında qanunların unifikasiyası üzrə öhdəlikləri öz üzərinə götürməklə vətəndaşlığın

dövlətdaxili münasibətləri sahəsinə beynəlxalq hüquq normalarının müdaxilələrinə yol verməmişdir. Düzdür, AR Vətəndaşlıq haqqında 1997-ci il Avropa Konvensiyasına qoşulmamışdır. Buna baxmayaraq, həmin Konvensiyanın vacib müddəaları AR-in vətəndaşlıq haqqında qanunvericiliyinin formalaşmasına öz müsbət töhfəsini vermişdir.

AR Konstitusiyasının digər vacib müddəlarına da diqqət yetirilməsi vacibdir. Belə ki, AR Konstitusiyanın 147-ci maddəsində deyilir ki, AR-in Konstitusiyası AR-də ən yüksək hüquqi qüvvəyə malikdir. AR-in Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir. AR-in Konstitusiyası AR-in qanunvericilik sisteminin əsasıdır. Konstitusiyanın 149-cu maddəsinin müəddəaları da bu zaman xüsusi əhəmiyyət kəsb edir. Belə ki, qeyd edilir ki, qanunlar Konstitusiyaya zidd olmamalıdır. AR Prezidentinin fərmanları AR-in Konstitusiyasına və qanunlarına, AR Nazirlər Kabinetinin qərarları isə AR-in Konstitusiyasına, qanunlarına və AR Prezidentinin fərmanlarına zidd olmamalıdır.

Burada bir vacib istiqamətə də diqqət yetirilməsini məqsədəuyğun hesab edirik. Belə ki, AR Konstitusiyasında beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin qanunvericilik sisteminin tərkibinə daxil olması ilə bağlı norma olmasa da, AR Konstitusiyasının 10-cu maddəsinin müddəaları xüsusi qeyd edilməlidir. Belə ki, həmin maddədə deyilir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

AR Konstitusiyasında “AR-in vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir” müddəasının təsbit edilməsi ölkədə vətəndaşlıq məsələlərinin prioritet istiqamət olmasına bariz nümunədir. Təsadüfi deyil ki, əsas Qanunda sırf vətəndaşlıq məsələsinə iki ayrıca maddə ayrılmışdır: Vətəndaşlıq hüququ adlı 52-ci və Vətəndaşlıq hüququnun təminatı adlı 53-cü maddələr. Bundan başqa, vətəndaşlıq məsələlərinin tənzimlənməsində ayrıca normativ hüquqi akt 30 sentyabr 1998-ci il tarixli AR-in vətəndaşlığı haqqında Qanundur.

Artıq qeyd etdiyimiz kimi, AR vətəndaşlıq məsələlərinə dair bəzi beynəlxalq hüquqi aktlara tərəfdar çıxmışdır. Onların arasında AR-in 31 may 1996-cı ildə

ratifikasiya etdiyi Vətəndaşsızlığın ixtisar edilməsi haqqında 30 avqust 1961-ci il tarixli Konvensiya və Ərli qadının vətəndaşlığı haqqında 29 yanvar 1957-ci il tarixli Konvensiya xüsusilə qeyd edilməlidir. Vətəndaşlıq məsələləri ilə bağlı beynəlxalq hüquq normalarının AR qanunvericiliyinə təsiri məsələsində sual doğuran məqamlardan biri vətəndaşlığın itirilməsi ilə bağlıdır. Söhbət vətəndaşlığın itirilməsi məsələsində beynəlxalq hüquq norması ilə milli hüquq norması arasındakı ziddiyyətdən gedir.

AR-in vətəndaşlığı haqqında Qanunun 18-ci maddəsi "AR vətəndaşlığının itirilməsi" adlanır və həmin maddədə göstərilir ki, vətəndaşlığının itirilməsi zamanı "Vətəndaşsızlığın ixtisar edilməsi haqqında" 1961-ci il 30 avqust tarixli Konvensiyanın müddəaları nəzərə alınır. AR-in vətəndaşlığı haqqında Qanuna 04 dekabr 2015-ci il tarixli 28-VQD nömrəli Qanunla edilmiş dəyişiklikdən sonra vətəndaşlığın itirilməsinin konkret halları sadalanır. Həmin hallar arasında a) AR vətəndaşının xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi və b) AR vətəndaşının dövlətin təhlükəsizliyinə ciddi zərər vuran davranışı halları üzərində xüsusilə dayanmaq istərdik. A bəndində qeyd edilən halla bağlı, məsələn, AR vətəndaşı xarici ölkənin dövlət və bələdiyyə orqanında xidmət edirsə və s. buna bənzər hallarda onu vətəndaşlıqdan çıxarmaq, düzgün deyildir. Bundan başqa, fikrimizcə, B bəndində qeyd edilən "şəxsin dövlətin təhlükəsizliyinə ciddi zərər vuran davranşı" qeyri-müəyyən normadır. Bu ifadənin qanunvericilikdə konkret anlayışı və ya izahı yoxdur. Qanunun bu maddəsindəki hallar, "itirilmə" anlayışından daha çox "vətəndaşlıqdan məhrumetmə" anlayışına yaxındır. Eyni zamanda, bu hallar AR-in də qoşulduğu Vətəndaşsızlığın ixtisar edilməsi haqqında 1961-ci il Konvensiyasına uyğun deyildir. Belə ki, Konvensiyanın 8.1-ci maddəsində qeyd edilir ki, razılığa gələn dövlətin vətəndaşlıqdan məhrum etməsi şəxsi apatridə çevirirsə, həmin dövlət onu vətəndaşlıqdan məhrum etmir[60, 100]. Bundan əlavə, Konvensiyanın 7.3-cü maddəsində qeyd edilir ki, razılığa gələn dövlətin vətəndaşı xaricə getmək, orada qalmaq, qeydiyyata düşməmək, yaxud buna bənzər hər hansı bir əsas nəticəsində vətəndaşlığını itirməyərək apatrid olmur. Halbuki, AR-in vətəndaşlığı haqqında Qanunun 18.2-ci maddəsi Konvensiyanın qeyd edilən maddəsi ilə ziddiyyət təşkil edir.

Düzdür AR Konstitusiyasına edilən son dəyişikliklərdən (11 oktyabr 2016-cı il) sonra "vətəndaşlığın itirilməsi" məsələsinə yol verilməsi Konstitusiyada da təsbit edilmişdir, lakin nəzərə alsaq ki, Qanuna edilən dəyişiklik zamanı AR Konstitusiyasında "heç bir halda AR vətəndaşlığından məhrum edilə bilməz" normasının mövcud olması, hazırda bu məsələ ilə bağlı mübahisə doğurur. Bu səbəbdən hesab edirik ki, AR təcrübəsində vətəndaşlığın itirilməsi məsələsində beynəlxalq hüquq normaları milli qanunvericilikdə düzgün tətbiq edilməmişdir.

Beynəlxalq hüquqi aktların müddəaları nəzərə alınmaqla, AR vətəndaşlıq haqqında qanunvericiliyində AR-in ərazisindən kənarda yaşayan AR vətəndaşlarının Azərbaycan dövləti tərəfindən müdafiəsini nəzərdə tutan belə bir vacib norma təsbit edilmişdir ki, AR dövlət orqanları, xarici dövlətlərdəki və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəlikləri və konsulluqları, habelə onların vəzifəli şəxsləri AR-in ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan AR vətəndaşlarının AR-in tərəfdar çıxdığı beynəlxalq hüquqi sənədlərin, xarici dövlətin qanunvericiliyinə, AR-lə AR vətəndaşlarının yaşadığı dövlət arasında bağlanmış müqavilələrə, habelə beynəlxalq adətlərə uyğun olaraq onlara verilmiş bütün hüquqlardan tam həcmdə istifadə edə bilmələri üçün tədbirlər görməyə, qanunvericiliklə müəyyənləşdirilmiş qaydada onların qanunla qorunan hüquq və mənafelərini müdafiə etməyə, zərurət olduqda isə AR vətəndaşlarının pozulmuş hüquqlarının bərpası üçün tədbirlər görməyə borcludurlar (AR-in vətəndaşlığı haqqında Qanunun 9-cu maddəsi) [111]. Qeyd edilənlər isə diplomatik müdafiə sahəsində mövcud beynəlxalq-hüquqi doktrinlara və beynəlxalq müqavilələrə tam şəkildə uyğundur.

Müasir dövrdə beynəlxalq münasibətlərin rolunun və milli cəmiyyətlərin həyatına onların təsirinin artması ona gətirib çıxarmışdır ki, milli hüquq sistemləri daha çox xarici mühitin tələblərini və beynəlxalq hüquq normalarını nəzərə alaraq təkmilləşir. AR də daxil olmaqla, əksər demokratik ölkələrdə konstitusiya hüququnun yaxınlaşması, ilk növbədə ən əhəmiyyətli sfera olan insan hüquqları sahəsində baş verir. Milli hüquqda vətəndaşlıq hüququ da daxil olmaqla, insan hüquq və azadlıqlarının inkişafında əhəmiyyətli rol məhz beynəlxalq hüquqa məxsusdur.

Vətəndaşlığın nizama salınması məsələlərində beynəlxalq hüququn ümumtanınmış prinsipləri, adət normaların və beynəlxalq hüququn bu sferada xüsusi prinsiplərinin əhəmiyyətini də vurğulamaq lazımdır. Bundan başqa, az olsa belə vətəndaşlığa aid olan beynəlxalq hüququn adət normalarının mövcudluğunu inkar etmək olmaz. Vətəndaşlıq məsələləri barəsində beynəlxalq hüquq təcrübəsi kifayət qədər ziddiyyətli olduğundan konkret qəbul edilən və ya hamı tərəfindən tanınan normaların formalaşdırılması mürəkkəb məsələdir. Vətəndaşlıq məsələləri üzrə xüsusi prinsip və ya normaları xülasə etmək cəhdi dövlətlərin daxili işlərinə müdaxilə hallarına gətirib çıxara bilər, çünki bu vətəndaşlıq məsələlərinin nizama salınması ilə bağlı dövlətlərin səlahiyyətlərini məhdudlaşdırır. Məsələn, dövlət, başqa dövlətin vətəndaşlığının əldə edilməsi və ya itirilməsi məsələlərini nizama salmaq hüquqlarına malik deyildir. Ona görə vətəndaşlığın əsas prinsipləri, vətəndaşlıq institutunun məzmunu haqqında məsələlər olduqca əhəmiyyətli xarakterə malikdir.

Respublikamızda vətəndaşlıq hüququnun inkişafına beynəlxalq hüquq normalarının təsiri ilə bağlı məsələləri tədqiq edərkən ikitərəfli müqavilələrə də diqqət yetirilməlidir. Bu sferada ilk öncə, Aİ ilə bağlanmış sənədlərə diqqət yetirilməsini məqsədəuyğun hesab edirik. 2013-cü il noyabrın 29-da Vilnüs şəhərində "Azərbaycan Respublikası və Avropa İttifaqı arasında vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında" Saziş imzalanmışdı. Sazişin məqsədi məqsədi İttifaq və AR vətəndaşlarına hər 180 gün ərzində 90 gündən artıq olmayan müddətə nəzərdə tutulmuş qalma üçün vizaların rəsmiləşdirilməsini qarşılılıq prinsipi əsasında sadələşdirməkdir [112].

"Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında" 2014-cü il fevralın 28-də Brüssel şəhərində imzalanmış Saziş qeyri-qanuni immiqrasiya ilə daha səmərəli mübarizə aparmaq məqsədi ilə öz aralarında əməkdaşlığı gücləndirmək, AR-in və ya Aİ üzv-dövlətlərinin birinin ərazisinə daxil olmaq, orada qalmaq və ya yaşamaqla bağlı şərtlərə əməl etməyən və ya bu şərtləri artıq yerinə yetirməyən şəxslərin müəyyən edilməsinin, təhlükəsiz və nizamlı şəkildə qayıtmalarının qarşılılıq əsasında tez və səmərəli prosedurlarını qurmaq məqsədi daşıyır [113].

AR müxtəlif dövlətlərlə vətəndaşlıq məsələlərinə dair növbəti istiqamətlərdə ikitərəfli müqavilə və sazişlər imzalamışdır: vətəndaşların vizasız gediş gəlişi (Qazaxıstan, Özbəkistan, Türkmənistan, Macarıstan, Ukrayna, Rusiya, Tacikistan və s.), diplomatik və xidməti pasportlara malik olan vətəndaşların vizasız gediş-gəlişi (Argentina, Mərakeş, İordaniya, Koreya, İndoneziya, Meksika, Sloveniya, Fransa, Vyetnam, Avstriya, İspaniya və s.), pensiya təminatı (Moldova, Rusiya və s.), əmək fəaliyyəti və sosial müdafiə (Qazaxıstan, Ukrayna, Moldova, Belarus və s.), və s.

Bütövlükdə, insan hüquqlarını əhatə edən digər sahələrdə olduğu kimi, vətəndaşlıq məsələlərinin tənzimlənməsi zamanı da beynəlxalq hüququn dövlətdaxili hüquq üzərində primatlığının tanınması daim bu sferanın təkmilləşməsini və ciddi tənzimetmə mexanizmlərinin tətbiqini nəzərdə tutur. Bu proses həm normayaradıcılıq mərhələsində, həmçinin hüquq tətbiqi mərhələsində bir-birilə ilə qarşılıqlı əlaqədə həyata keçirilməlidir. Beləliklə, vətəndaşlıq məsələləri sahəsində beynəlxalq hüquq normalarının dövlətdaxili realizəsi həm normativ-hüquqi, həmçinin institusional səviyyədə aparılmaqla daim təkmilləşməli, qəbul edilən bütün normativ hüquqi aktlar tam şəkildə insan hüquq və azadlıqları ruhunda əks olunmalıdır. Hər bir dövlət orqanının real fəaliyyətində isə insan hüquq və azadlıqlarının müdafiəsi prioritet məsələ olmaqla problem sahələrdə işlək və çevik əlavə milli mexanizmlərin yaradılması da həyata keçirilməlidir. Qeyd edilənlər isə son olaraq vətəndaşlıq hüququnun təmin edilməsinə gətirib çıxaracaqdır.

NƏTİCƏ

Dissertasiya tədqiqatı aşağıdakı bir sıra istiqamətlərdə ümumi və mühüm nəticələr çıxarmağa imkan verir.

İlk növbədə, problem üzrə insan hüquqları amili ön plana çəkilməlidir. Qeyd etmək lazımdır ki, insan hüquqlarının təmin edilməsi bütün dövlətlər qarşısında dayanan əsas problemlərdən və öhdəliklərdəndir. Dövlətlərin bu sahədəki öhdəlikləri ciddidir, müvafiq dövlətdaxili tədbirlərin görülməsini tələb edir, hətta son dövrlərdə digər yaxın sahələri də öz təsirinə daxil etmişdir. Belə sahələrdən biri də vətəndaşlıq məsələlərinin hüquqi tənzimlənməsidir. Vətəndaşlıq məsələlərinə qeyd edilən prizmadan baxılması isə vətəndaşlıq hüququ kimi insan hüququnun formalaşmasına və inkişafına həlledici təsir etmişdir.

Vətəndaşlıq, şəxsin hüquqi statusunun təyini üçün əsasdır, onun hər hansı dövlətin daxilində, həm də beynəlxalq cəmiyyətdə hüquqlarının və vəzifələrin kompleksinin müəyyənliyi üçün vacib şərtdir. Bu yalnız şəxsiyyətin hüquqi statusunun tədqiqatı üçün yox, həm də vətəndaşlıq institutu üzrə dövlətlərin daxili qanunvericiliyinin beynəlxalq hüquq normaları ilə uyğunluğa gətirilməsi problemlərinin həlli üzrə yeni mexanizmlərin hazırlanması üçün də prinsipial əhəmiyyətə malikdir. Vətəndaşlıq, hər şeydən əvvəl, bu fiziki şəxslə dövlət arasında möhkəm siyasi-hüquqi əlaqədir, hansı ki, vətəndaşlara dövlət müstəqilliyinin təsirinin ilkin şərti kimi xidmət edir. XX əsrin ortalarınadək vətəndaşlıq institutu sırf milli hüququn normaları ilə tənzim edilirdi, lakin sonradan beynəlxalq əməkdaşlıqla vətəndaşlığın məzmunu və insan hüquqlarının müdafiəsinə beynəlxalq hüquq ciddi təsir göstərməyə başladı, nəhayət bu sahədə əsas elementləri tənzim etməyə başladı. Bu proses hazırda beynəlxalq hüququn primatlığı istiqamətində inkişaf etməkdədir.

Dövlətdaxili sistemdə vətəndaşlığı nizama salan normaların mövcud məcmusu əsasən konstitusiya hüququnun və insan hüquqlarının tərkib hissəsidir. Beynəlxalq hüquqda vətəndaşlıq institutu "əhalinin beynəlxalq hüquqi vəziyyətini" göstərən ümumsistem institutunun tərkib hissəsini təşkil edir. Vətəndaşlığın məzmununa beynəlxalq hüququn təsiri adətən iki formada görünür: beynəlxalq hüquq normaları bilavasitə fiziki şəxslərin hüquq və vəzifələrini təsbit edir, başqa sözlə desək birbaşa

fərdlərə ünvanlanmışdır; beynəlxalq hüquq normaları dövlətləri məcbur edir ki, vətəndaşlıq məsələlərinə dair öz milli qanunvericiliyini müvafiq beynəlxalq hüquq normalarına uyğunlaşdırsın.

BMT, Avropa Şurası və başqa beynəlxalq təşkilatlar çərçivəsində dövlətlərin aktiv əməkdaşlığı nəticəsində, o cümlədən qəbul edilmiş mühüm beynəlxalq müqavilələrlə vətəndaşlığın ümumi prinsipləri formalaşmış və inkişaf etmişdir. Belə prinsiplər arasında hər kəsin vətəndaşlıq əldə etməsi, vətəndaşsızlıq hallarının aradan qaldırılması, vətəndaşlıqdan özbaşına məhrum etmənin yolverilməzliyi kimi prinsiplər xüsusilə vurğulanmalıdır. Belə rəhbər başlanğıcların mövcudluğu şəraitində dövlətlər vətəndaşlıq institutu ilə bağlı çərçivələrini təyin edə bilirlər.

Müasir dövrdə "Avropa İttifaqı vətəndaşlığı" anlayışı hüquq ədəbiyyatlarında geniş müzakirə obyektinə çevrilmişdir. Aİ vətəndaşlığının növbəti spesifik xüsusiyyətlərini isə belə ifadə etmək olar: Aİ vətəndaşlığını milli vətəndaşlıqla bərabərləşdirmək mümkün deyildir, çünki İttifaq vətəndaşlığı üçün subsidiar xarakter xasdır; Aİ vətəndaşlığı üzv-dövlətlərin vətəndaşlarına bəzi əlavə hüquqlar verir; indiyə qədər Aİ vətəndaşlarının vəzifələrinin aydın şəkildə təsbit edilmiş siyahısı yoxdur, bu isə vətəndaşın hüquqi statusununun ümumhüquqi anlayışına zidd təəssürat yaratsa da, onun məzmununa heç bir mənfi təsir etməməlidir; Aİ vətəndaşlığı İttifaqın bütün ərazisi üzrə şəxsiyyətin hərəkətinin loyal qaydasının qurulmasına imkan yaradır.

İnsan hüquqları sferasında bütün beynəlxalq müqavilələr onun iştirakçısı olduğu dövlətlərin həmin müqavilə üzrə öhdəliklərinin icrası üzrə müddəaları müəyyən edir. Həmin müddəaların yerinə yetirilməsi zamanı AR müxtəlif metodlardan istifadə etməklə qarşılıqlı əlaqəni təmin edə bilmişdir. Bu cəhətdən AR Konstitusiyasının 10, 12, 148 və 151-ci maddələrinin müddəaları xüsusi qeyd edilməlidir. AR Konstitusiyasının 12-ci maddəsinin 2-ci hissəsində ifadə edilən "bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir" ifadəsi isə bütövlükdə beynəlxalq hüquqa münasibətdə və insan hüquqlarının təmin edilməsində, o cümlədən AR-in beynəlxalq öhdəliklərinin icrasında xüsusi çəkiyə, nəhayət digər

dövlətlər praktikasında isə tətbiq edilmə nümunəsinə malikdir.

Vətəndaşlıq problemlərinin (bipatrizm, apatrizm və s.) yaranmasında əhəmiyyətli rolu vətəndaşlığın əldə edilməsi və itirilməsi qaydaları haqqında dövlətlərin qanunvericilikləri arasındakı fərqlər oynayır. Məsələn, "qan hüququ" və "torpaq hüququ" arasında kolliziyaların mövcudluğu, həmçinin naturalizasiya haqqında fikir ayrılıqları və s. qeyd etmək olar. Bundan başqa, ikili vətəndaşlığın və vətəndaşsızlığın yaranmasının səbəblərinə dövlətlərin yurisdiksiyasının dəyişməsinə gətirib çıxaran kifayət qədər tənzimlənməmiş ərazi dəyişiklikləri, əhalinin miqrasiyası, qaçqınların axınını və s. aid etmək lazımdır.

İkili vətəndaşlığın müəyyən mənfi nəticələr doğura bilməsinə baxmayaraq, bütün dünyada inteqrasiya proseslərinin güclənməsi ilə əlaqədar Avropa ölkələrinin əksəriyyətində ikili vətəndaşlıq institutunu həvəsləndirməyə doğru tendensiya inkişaf edir. Paralel olaraq, bu sahədə meydana çıxan problemlər də uğurla həll edilir.

Vətəndaşsızlığın yaranması və ixtisarı probleminə gəlincə, hər bir dövlətin vətəndaşlıqla bağlı qanunvericiliyində vətəndaşlıq üzrə beynəlxalq hüquqi prinsiplərin (ilk növbədə vətəndaşlığın əldə edilməsi və itirilməsi) daxil edilməsinə, dövlətlərin daxili qanunvericiliyində vahid standartların nəzərə alınmasına, beynəlxalq və milli hüquq normaları arasında sıx qarşılıqlı əlaqəyə nail olunmasına çalışmaq lazımdır. Dövlətlərin qanunvericiliklərinə vətəndaşlığı olmayan şəxslərin vətəndaşlığa götürülməsinin sadələşdirilmiş qaydasını nəzərdə tutan müddəaları da daxil etmək lazımdır.

Hazırda vətəndaşlıq institutuna münasibətdə dövlətlərin yeni beynəlxalq hüquqi öhdəliyi formalaşır - dövlətlərin hüquq varisliyi halında fərdləri heç bir halda vətəndaşlığı olmayan şəxs statusunda saxlamamaq. BMT Baş Məclisinin Altıncı Komitəsində 2006-cı ildə "Dövlətlərin hüquq varisliyi halında vətəndaşlıq məsələləri" üzrə aparılan müzakirələr, eyni zamanda Avropa Şurası çərçivəsində toplanmış təcrübə bu sferada universal səviyyədə yeni beynəlxalq konvensiyanın qəbul edilməsinə imkan yaradacaqdır. İstənilən halda şəxsin iradə azadlığı nəzərə alınmalıdır, dövlətlər isə vətəndaşsızlıq hallarının aradan qaldırılması səbəbi ilə fərdləri məcburi qaydada vətəndaşlıq qəbul etməyə sövq etməməlidir.

Tədqiqatla yuxarıda qeyd edilmiş ümumiləşmiş fikirlərdən əlavə, apardığımız araşdırmaların yekunu olaraq, aşağıdakı mühüm və xüsusi nəticələri (təklifləri) də irəli sürürük:

1. Vətəndaşlıq - insanın xüsusi siyasi-hüquqi vəziyyətidir, hansı ki, onunla dövlət arasında ümumi, fasiləsiz və möhkəm əlaqəni təşkil edir, nəticədə şəxs beynəlxalq və milli hüquqla müəyyən edilmiş bütün hüquq və azadlıqlardan istifadə etmək imkanı əldə edir, həmçinin müəyyən vəzifələri də daşıyır. Dövlətdaxili vətəndaşlıq hüququ ilə yanaşı, vətəndaşlığın beynəlxalq hüquqi institutu da mövcuddur, hansının ki, normaları dövlətdaxili hüququn normaları ilə müqayisədə prioritetə malikdir. Burada mühüm məqam vətəndaşlıq məsələlərinin tənzimlənməsində insan hüquqları amilinin əsas rol oynamasıdır. Bu səbəbdən vətəndaşlıq məsələləri ilə bağlı dövlətlərin milli qanunvericiliklərində dəyişikliklər edilməsi zamanı bir qayda olaraq beynəlxalq hüquq normalarına xüsusi önəm verilməli, eyni zamanda, həm ikitərəfli, həm də çoxtərəfli əsasda beynəlxalq əməkdaşlıq dərinləşdirilməlidir.

2. Dövlətlərin qanunvericiliklərinə ikili vətəndaşlıq məsələlərinin tənzimlənməsi ilə bağlı müddəaların daxil edilməsi təklif edilir. Bu konkret olaraq insan hüquqlarının təmin edilməsi ilə bərabər, hər bir şəxsin vətəndaşlığı olduğu dövlət qarşısında öhdəliklərinin icrasına, nəhayət diplomatik müdafiə ilə əlaqədar məsələlərin hüquqi tənzimlənməsinə də xidmət edəcəkdir. Bu sahədə ikitərəfli əməkdaşlıq çərçivəsində tənzimetmədən regional və universal tənzimetməyə keçid üzrə beynəlxalq müqavilələrin imzalanması da zəruri hesab edilməlidir. Bu zaman mühüm əsas kimi yeni tendensiyalarla vətəndaş-dövlət münasibətlərinin inkişafı amili xüsusi qeyd edilməlidir.

3. Bütün hüquq və azadlıqlardan tam şəkildə istifadə olunması üçün beynəlxalq müqavilələrin bağlanması yolu ilə dövlətlər tərəfindən vətəndaşsızlığın ixtisarına istiqamətlənmiş real təşəbbüslər göstərilməlidir, çünki bu problem bir dövlətin çərçivəsindən kənara çıxır, beynəlxalq hüquq aspektinə malikdir, nəhayət insan hüquqlarının təminatında əlavə problemlər və çətinliklər yaradır. Belə ki, ümumi şəkildə vətəndaşsızlıq konkret olaraq mühüm insan hüququ olan vətəndaşlıq

hüququnun mövcud olmamasıdır.

4. İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının, konkret olaraq vətəndaşlıq məsələlərini tənzimləyən beynəlxalq hüquq normalarının realizəsi bir qayda olaraq dövlətdaxili hüquq vasitəsilə həyata keçirilir. Beynəlxalq hüquq normaların realizəsi üsul və vasitələrinin seçilməsi dövlətlərin daxili səlahiyyətində olmaqla beynəlxalq hüququn əsas prinsiplərindən olan dövlətlərin suveren bərabərliyi prinsipindən irəli gəlir. Ancaq bununla bərabər inkişaf etmiş dövlətlər praktikasına müraciət edilməsi məqsədəmüvafiq hesab edilməlidir. Bütövlükdə isə, vətəndaşlıq məsələlərinin tənzimlənməsi zamanı beynəlxalq və dövlətdaxili hüquq normalarının nəzərə alındığı kompleks yanaşma əsas götürülməli, son nəticədə beynəlxalq hüquq normalarının primatlığı təmin edilməlidir. Qeyd edilən xüsusiyyətlər isə dövlətlərin qanunvericiliklərinin daha da yaxınlaşmasının əsasını təşkil edir.

5. Vətəndaşlıq məsələləri sahəsində beynəlxalq hüquq normalarının dövlətdaxili realizəsi həm normativ-hüquqi, həmçinin institusional səviyyədə aparılmaqla daim təkmilləşməli, qəbul edilən bütün normativ hüquqi aktlar tam şəkildə insan hüquq və azadlıqları ruhunda əks olunmalı, nəhayət, hər bir dövlət orqanının fəaliyyətində insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində işlək və çevik əlavə milli mexanizmlərin yaradılması, ictimai nəzarət institutlarının, demokratik idarəçiliyinin yeni formalarının və s. təsis edilməsi də həyata keçirilməlidir. Qeyd edilənlər isə vətəndaşlıq hüququ ilə əlaqədar məsələlərin tənzimlənməsinə birbaşa təsir edən əsas istiqamətlərdən və elementlərdəndir.

6. İnsan hüquq və azadlıqlarının, o cümlədən layiqli həyat səviyyəsinin təmin edilməsini konstitusion qaydada müəyyən edən AR Konstitusiyası və milli qanunvericiliyi beynəlxalq hüquq normalarına hörmət prinsipi üzərində qurulmuşdur. AR mühüm beynəlxalq təşkilatların üzvü olmaqla bərabər insan hüquqları sahəsində də kifayət qədər beynəlxalq müqavilələrin iştirakçısıdır. AR-in ümumi mənada beynəlxalq hüquqa belə ciddi münasibəti onun bu sahədə milli qanunverciliyinin daha da təkmilləşdirilməsini müəyyən edir və əsaslandırır. Nəhayət, dövlətimiz qarşısında bu sahədə beynəlxalq fəaliyyətin daha da genişləndirilməsini (yeni beynəlxalq təşkilatlara

üzvlük, digər beynəlxalq sənədlərə qoşulmaq, beynəlxalq məhkəmə təcrübəsini tətbiq etmək) də irəli sürür.

7. Vətəndaşlıq hüququnun tarixi, nəzəri, beynəlxalq və milli-hüquqi əsaslarının müqayisəli şəkildə təhlili bu sahədə AR qanunvericiliyinin də bir sıra vacib istiqamətlərdə daha da təkmilləşdirilməsini zəruri edir. Bu hallara xüsusi olaraq vətəndaşlığın itirilməsi, vətəndaşsızlıq hallarının ixtisarı, diplomatik müdafiə ilə əlaqədar münasibətlər aid edilməlidir. Eyni zamanda, gələcəkdə ikili (çox) vətəndaşlıq üzrə münasibətlərin tənzim və tətbiq edilmə imkanları da nəzərdən keçirilməlidir. Bu sahədə isə dünya dövlətlərinin təcrübəsinin öyrənilməsi zəruri hesab edilməlidir.

8. AR təcrübəsində beynəlxalq məhkəmə (xüsusən İnsan Hüquqları üzrə Avropa Məhkəməsi) presedentlərinin, o cümlədən beynəlxalq təşkilatların və insan hüquqları sahəsində komitələrin qərarlarının tətbiqi vətəndaşlıq üzrə münasibətlərin tənzimlənməsinə mühüm töhfələr verə və məhkəmə təcrübəsinin daha da təkmilləşdirilməsinə gətirib çıxara bilər. Bu sahədə isə inkişaf etmiş dövlətlər təcrübəsinin ətraflı şəkildə öyrənilməsi, nəhayət hüquqtətbiqetmə üzrə müvafiq istiqamətlərdə təkmilləşdirilmələrin aparılması zəruri hesab edilməlidir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində

1. Ağayeva, V.N. Müasir beynəlxalq hüquqda diplomatik müdafiə. Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2015. – 32 s
2. Aşurbəyliş, S.B. Şirvanşahlar dövləti / S.B.Aşurbəyli. Bakı: Əbilov, Zeynalov və oğulları Nəşriyyat, 2006. – 650 s.
3. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı // 18 oktyabr 1991-ci ildə qəbul edilmişdir. Bakı: Qanun, 1991, - 14 s.
4. Dəmirov, A.H. Azərbaycan Respublikasının Konstitusiyasi və Hüququn Əsasları. Dərs vəsaiti. / A.H.Dəmirov, Ş.N.İsmayılov, Q.F.Hüseynov. Bakı: Mütərcim, 2010. – 196 s.
5. Əliyev, Ə.İ. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusunun beynəlxalq-hüquqi tənzimlənməsi: nəzəriyyə və praktika / Ə.İ.Əliyev. Bakı: Şirvannəşr, 2007. – 600 s.
6. Əliyev, Ə.İ. İnsan hüquqları. Dərslik / Ə.İ.Əliyev. Bakı: Hüquq Ədəbiyyatı Nəşriyyatı, 2013. – 508 s.
7. Əliyev, Ə.İ. İnsan hüquqları. Dərslik / Ə.İ.Əliyev. Bakı: Nurlar, 2019, – 352 s.
8. Əliyev, S.S. Azərbaycan Respublikasının vətəndaşlıq haqqında qanunvericiliyi və beynəlxalq hüquq. Hüquq elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2009, – 24 s.
9. Əsgərov, Z.A. Konstitusiya hüququ. Dərslik / Z.Əsgərov. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011. – 760 s.
10. Hüseynov, L. Beynəlxalq Hüquq. Dərslik / L.Hüseynov. Bakı: Hüquq Ədəbiyyatı Nəşriyyatı, 2002. – 420 s.
11. İsayev, A. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası. Əsas qanunu: 1978-ci il aprelin 21-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasından qəbul edilmişdir. / A.İsayev. Bakı: Azərnəşr, 1987.

12. İsmayılov, X. Azərbaycanın hüquq tarixi / X.İsmayılov. Bakı: Elm və Təhsil, 2015. – 572 s.
13. Mahmudov, Y. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 cilddə] / Y.Mahmudov. Bakı: Lider Nəşriyyatı, c. 1, 2004. – 440 s.
14. Məlikova, M. Qədim dövrlərdə və erkən orta əsrlərdə Azərbaycanın dövlət və hüququ / M.Məlikova, X.İsmayılov. Bakı: Hüquq ədəbiyyatı, 2001. – 183 s.
15. Məmmədova, N.T. Azərbaycan Respublikası konstitusiyalarının inkişaf tarixi // Bakı: Qanun, 2017. № 05 (271), – s. 53-61.
16. Səməndərov, F.Y. Cinayət hüququ. Ümumi hissə / F.Y.Səməndərov. Bakı: Digesta Nəşriyyatı, 2013. – 720 s.
17. Vəlixanlı, N. Azərbaycan Tarixi. III-XIII əsrin I rübü.: [7 cilddə] / N.Vəlixanlı. Bakı: Elm Nəşriyyatı, c. 2, 2007. – 608 s.

Türk dilində

18. Tekinalp, G. Türk Yabancılar Hukuku. İstanbul: Beta basim yayim, 1992. – 262 s.

Rus dilində

19. Алиева, М.Н. Актуальные проблемы гражданства в свете развития норм национального и международного права // Юридический вестник ДГУ, Издательство Дагестанский государственный университет, 2017, № 27, – с. 63- 67.
20. Бабурин, С. Территория государства: правовые и геополитические проблемы. Москва: Изд-во. Московского университета, 1997. – 477 с.
21. Бендевский, Т. Международное частное право. М.: 2005. – 445 с.
22. Бондарчук, Р.Ч. Международно-правовое и внутригосударственное регулирование двойного (множественного) гражданства //Актуальные проблемы конституционного и международного права. Сборник научных трудов, 2007, – с. 53-65.
23. Боярс, Ю.Р. Гражданство в международном и внутреннем праве. Рига: 1981. – 126 с.
24. Броунли, Я. Международное право (в двух книгах). Книга вторая. М.: Прогресс, 1977. – 540 с.

25. Ворошилова, О.Н. Нормативное обеспечение института гражданства в Российской Федерации // Вестник Омского университета. Серия «Право». 2015. № 1 (42). – с. 36–42
26. Глобальные трансформации: политика, экономика, культура / Д.Хелд и др.; пер. с англ. В.В.Сапова и др. М.: 2004. – 576 с.
27. Головакин, А.В. Гражданство РФ — новый правовой статус. М.: Лаборатория книги, 2012. – 250 с.
28. Головко, А.А. Человек, личность, гражданин. Минск: 1982. – 80 с.
29. Давудова, Д.К. Актуальные проблемы института гражданства в Российской Федерации. Актуальные вопросы юридических наук // Материалы междунар. науч.конф. Челябинск: 2012, – с. 16-18.
30. Златопольский, Д.Л. Государственное устройство СССР. М.: Госюриздат, 1960. – 300 с.
31. Исмаилов, Р.Р. Институт гражданства Азербайджанской Республики. Учебное пособие. Баку: Изд-во Бакинского Университета, 2004, – 147 с.
32. Краткое изложение решений, консультативных заключений и постановлени Международного Суда. 1948-1991. – Дело Ноттебома (Предварительно возражение) Решени о 18 ноябр 1953 года Организаци Объединенных Наций. – Нью-Йорк: – 1993.
33. Кутафин, О.Е. Российское гражданство. М.: Юрист, 2003, – 587 с.
34. Лукашук, И.И. Международное право. Общая часть. М.: Волтерс Клувер, 2007. – 432 с.
35. Международное право / Отв. ред. А.Л.Ковалев, СВ.Черниченко. М.: ТК Велби, Изд-во Омега-Л, 2008. – 831 с.
36. Межпарламентская Ассамблея государств-участников СНГ // Информационный бюллетень, 1993, № 2, – с. 20-21.
37. Михайлова, Е.В. Двойное гражданство в Российской Федерации: проблемы и пути решения (на примере зарубежных стран) // Вопросы совершенствования правоохранительной деятельности органов внутренних

дел. Межвузовский сборник научных трудов аспирантов и соискателей. Ч. 1. М.: 2004, – с. 72.

38. Непомнящая, А.А. Проблемы института гражданства в Российской Федерации // Вестник Омской юридической академии, 2013, № 1 (20), – с. 7-10.
39. Оппенгейм, Л. Международное право. Т. 1. Полутом 1. М.: 1948. – 407 с.
40. Остапец, О.Г. Новеллы законодательства о гражданстве: за и против // Актуальные проблемы российского права, 2016, № 3 (64), – с. 56-62.
41. Рачков, И.В. Правовая регламентация гражданства Европейского союза // Государство и право, 1999, № 8, – с. 76-80.
42. Сотсков, Ф.Н. Общественная опасность деяния в уголовном праве России: / автореф. дис. … канд. юрид. наук. М., 2009. – 28 с.
43. Хартия Европейского Союза об основных правах: Комментарий / Под. ред. С.Ю.Кашкина. М.: Юриспруденция, 2001. – 208 с.

İngilis dilində

44. Aleinikoff, A. Citizenship Today: Global Perspectives and Practices. – New York: Brookings Institution Press, 2010. - 424 p.
45. Alfred, B. Multiple Nationality And International Law. – Boston: Martinus Nijhoff Publishers, 2007. – 626 p.
46. Alice, E. Nationality and Statelessness under International Law. Cambridge: Cambridge University Press, 2014. – 306 p.
47. Brownlie, I. Principles of Public International Law. Oxford: Clarendon Press, 1977. – 974 p.
48. Ciampi, A. Reference Materials on International Law. Giuffrè Editore, 2011. – 622 p.
49. Close, P. Citizenship, Europe and Change. Springer, 2016. – 335 p.
50. Clodhna, M. Immigration, Integration and the Law: The Intersection of Domestic, EU and International Legal Regimes. Abingdon: Routledge, 2016. – 326 p.

51. Collection of International Instruments and Legal Texts Concerning Refugees and Others of Concern to UNHCR. United Nations Publications, 2007, -1896 p.
52. Conway, H. Understanding International Law. John Wiley & Sons, 2009. – 488 p.
53. Cygan, A. Citizenship of the European Union. The International and Comparative Law Quarterly // – Apr 2013, Vol.62(2), – pp.492-501.
54. Demaine, E. Beyond Communitarianism: Citizenship, Politics and Education. Springer, 1996. – 226 p.
55. Dina, P. The Significance of the institution of the european citizenship in the international law // Challenges of the Knowledge Society, – 01 May 2012, Vol. 2, – pp. 737-741.
56. Donner, R. The Regulation of Nationality in International Law. Transnational Publishers, 1994. – 433 p.
57. Draft Articles on Diplomatic Protection with commentaries. adopted by the International Law Commission at its fifty-eighth session, in 2006, and submitted to the General Assembly as a part of the Commission's report covering the work of that session (A/61/10).
58. European Integration and Constitutional Law. Council of Europe, 2001. – 197 p.
59. Evans, M. International Law. – Oxford: Oxford University Press, 2014. – 873 p.
60. Evans, M. Blackstone's International Law Documents. 14 th Edition. Oxford: Oxford University Press, 2019. – 608 p.
61. Great Britain: Immigration Appeal Tribunal. Immigration Appeals: Selected Reports of Decisions of the House of Lords, the Court of Appeal, the Court of Session and the High Court and Selected Reported Determinations of the Immigration Appeal Tribunal and the Asylum and Immigration Tribunal ("AIT"). – The Stationery Office, 2005, – p. 765.
62. Helen F. Text, Cases and Materials on Public Law and Human Rights. Abingdon: Routledge, 2013. – 1144 p.

63. International Human Rights and Humanitarian Law. Treaties, Cases and Analysis / F.F. Martin, S.J. Schnably, R.J. Wilson, S.J. Simon, V.M. Tushnet. New-York: Cambridge University Press, 2006. – 1010 p.
64. Janis, M.W. Individuals as Subjects of International Law // Cornell International Law Journal, 1984, Volume 17. Issue 1, – p. 61-78.
65. John A. Major International Treaties of the Twentieth Century: A History and Guide with Texts, Volume 1. Taylor & Francis, 2000. – 1016 p.
66. Kesby, A. The Right to Have Rights: Citizenship, Humanity, and International Law. Oxford: Oxford University Press, 2012. – 164 p.
67. Lara D. “Kant": The Metaphysics of Morals. Revised edition. Cambridge: Cambridge University Press, 2017. – 308 p.
68. Latvian Human Rights Office: Activity report for the 2nd quarter of 1996 (01.04.1996 -30.06.1996). Riga: LV 1011. p. 11.
69. Lewis S. The Annual Register 2000, Volume 242. Gale Research International Limited, 2001. – 635 p.
70. Maftei J. Some aspects of citizenship from the perspective of international law // European Integration Realities and Perspectives proceedings, 2015, Vol.10, – pp. 225-233.
71. Magnette P. Citizenship: The History of an Idea. ECPR Press, 2005. – 220 p.
72. Mantu S. Contingent Citizenship: The Law and Practice of Citizenship Deprivation in International, European and National Perspectives. Leiden: Boston: Brill/Nijhoff, 2014. – 394 p.
73. Mark W. Toward a Bioregional State: A Series of Letters about Political Theory and Formal Institutional Design in the Era of Sustainability. Univerce incorporation, 2005. – 388 p.
74. Marshall T. Citizenship and Social Class. In J. Manza, & M.Sauder, Inequality and Society. New York: 2009, – pp. 148-154.
75. Martindale H. International Law Digest (Argentina - Venezuela). Law-Digests: Selected International Conventions. London WC2A 1EL, England, 1995, – p. 5.

76. Mische A. Projecting Democracy: The Formation of Citizenship Across Youth Networks in Brazil // Citizenship, Identity an Social History, 1996, – p. 32-34.
77. Nicole S. Citizenship, Belonging, and Nation-States in the Twenty-First Century. Palgrave Macmillan US, – 2016. – 257 p.
78. Osler A. Citizenship and Language Learning: International Perspectives. Trentham Books, 2005. – 147 p.
79. Osmańczyk E. Encyclopedia of the United Nations and International Agreements: Third edition, Volume 3, N to S. London: Taylor & Francis, 2003. – 2941 p.
80. Pancer M. The Psychology of Citizenship and Civic Engagement. Oxford: Oxford University Press, 2015. – 211 p.
81. Paul C. EU Law: Text, Cases, and Materials. Oxford: Oxford University Press, 2015. 1– 198 p.
82. Paulina T. Human Rights or Citizenship? CRC Press, 2010. – 168 p.
83. Permanent Court of International Justice/Fifth (Ordinary) Session. The Mavrommatis Palestine Concessions. Greece v. Britain. Judgment. File E.c. III /Docket V.I /Judgment No. 2//30 August 1924.
84. Peter N. Popular Efficacy in the Democratic Era: A Reexamination of Electoral Accountability in the United States, 1828-2000. Princeton University Press, 2013. – 272 p.
85. Peter S. Dual citizenship as human right // International Journal of Constitutional Law, January 2010, Volume 8, Issue 1, – p. 111–130.
86. Plender R. Basic Documents on International Migration Law: Third Revised Edition. Boston: Martinus Nijhoff Publishers, 2007. – 850 p.
87. Rainer B. Eva Ersbøll, Kees Groenendijk, Harald Waldrauch. Acquisition and Loss of Nationality: Comparative Analyses - Policies and Trends in 15 European Countries. Amsterdam: Amsterdam University Press, 2006. – 499 p.
88. Rhoda E. Howard-Hassmann, Margaret Walton-Roberts. The Human Right to Citizenship: A Slippery Concept. University of Pennsylvania Press, 2015. – 328 p.
89. Richard K. Aristotle: Political Philosophy. Oxford: Oxford University Press, 2002. – 520 p.

90. Robin M. Mobilizing the Information Society: Strategies for Growth and Opportunity. Oxford: Oxford University Press, 2000. – 516 p.
91. Satzewich V. Transnational Identities and Practices in Canada. UBC Press, 2006. – 360 p.
92. Scerri A. Greening Citizenship: Sustainable Development, the State and Ideology. Palgrave Macmillan, 2012. – 235 p.
93. Shaun M. Slavery in the Islamic Middle East. Markus Wiener Publishers. 1999. – 128 p.
94. Smith R. Text and Materials on International Human Rights. Thied edition, New York: Routledge, 2013. – 616 p.
95. Spanish Yearbook of International Law 2001-2002: Vol. 8. Asociación Española de Profesores de Derecho Internacional Relaciones Internacionales. Martinus Nijhoff Publishers, 2004. – 540 p.
96. Stephen C. Citizenship and Migration: Globalization and the Politics of Belonging. Psychology Press, 2000. – 258 p.
97. Stromquist N. Women in the Third World: An Encyclopedia of Contemporary Issues. New York: Routledge, 2013. – 720 p.
98. Turp D. Dual Nationality in International, European and Constitutional Law // Europa Ethnica, 2016, Vol.73(1/2), – pp.5-7.
99. Vermeulen G. Essential Texts on European and International Asylum and Migration Law And Policy. Antwerpen: Maklu Publishing, 2017. – 1345 p.
100. Virginia L. International Labour Conventions and National Law: The Effectiveness of the Automatic Incorporation of Treaties in National Legal Systems. Springer, 2013. – 191 p.
101. Vonk O. Dual Nationality in the European Union: A Study on Changing Norms in Public and Private International Law and in the Municipal Laws of Four EU Member States. – Leiden: Martinus Nijhoff Publishers, 2012, – 366 p.
102. Watts A. The International Law Commission 1949-1998: Volume One: The Treaties. Oxford: Oxford University Press, 1999. – 2186 p.

103. Weis P. Nationality and Statelessness in International Law. Leiden: BRILL, 1979. – 337 p.
104. Weissbrodt D. The Human Rights of Stateless Persons // Human Rights Quarterly, 2006, N 28, – pp. 245-276.
105. Weissbrodt D. The Human Rights of Non-citizens. Oxford: Oxford University Press, 2008. – 257 p.
106. William L. Governance for Sustainable Development: The Challenge of Adapting Form to Function. Edward Elgar Publishing, 2004. – 400 p.
107. Savenco I. Brèves Considérations Concernant le Lien entre la Citoyenneté Nationale et la Citoyenneté Européenne/Brief Considerations Regarding the link between the National Citizenship and European Citizenship // Acta Universitatis Danubius. Juridica, 2006, Vol 2, No 1, – pp. 167-174.
108. Azərbaycan xəbər portalı: [Elektron resurs].
URL: https://azerbaijan.az/portal/History/HistDocs/Documents/04.pdf
109. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi - Normativ hüquqi aktların vahid internet elektron bazası: [Elektron resurs].
URL: http://e-qanun.az/framework/3187
110. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi - Normativ hüquqi aktların vahid internet elektron bazası: [Elektron resurs].
URL: http://www.e-qanun.az/framework/897
111. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi - Normativ hüquqi aktların vahid internet elektron bazası: [Elektron resurs].
URL: http://e-qanun.az/framework/40380
112. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi - Normativ hüquqi aktların vahid internet elektron bazası: [Elektron resurs].
URL: http://www.e-qanun.az/framework/27472
113. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi - Normativ hüquqi aktların vahid internet elektron bazası: [Elektron resurs].
URL: http://www.e-qanun.az/alpidata/framework/data/27/f_27934.htm

114. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının rəsmi internet səhifəsi: [Elektron resurs].
URL: https://barassociation.az/frompress/63
115. Tarixinfo az xəbər portalı: [Elektron resurs].
URL: https://tarix.info/azerbaycan-tarixi/feodalizm-dovru/352-az601rbaycan-xanl305qlar305.html
116. Beynəlxalq Hüquq İnstitunun rəsmi səhifəsi: [Elektron resurs].
URL: https://www.idi-iil.org/app/uploads/2017/06/1965_var_01_en.pdf
117. Avropa Şurasının rəsmi internet səhifəsi: [Elektron resurs].
URL: https://rm.coe.int/1680072311
118. Lomonosov adına Moskva Dövlət Universitetinin rəsmi internet səhifəsi: [Elektron resurs].
URL: https://www.hist.msu.ru/ER/Etext/cnst1924.htm
119. BMT-nin rəsmi internet səhifəsi: [Elektron resurs].
URL: https://www.un.org/en/universal-declaration-human-rights/
120. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının rəsmi internet səhifəsi: [Elektron resurs].
URL: https://www.refworld.org/docid/3ae6b3b00.html
121. BMT-nin Qaçqınlar Agentliyinin rəsmi internet səhifəsi: [Elektron resurs].
URL: https://www.unhcr.org/ibelong/wp-content/uploads/1954-Convention-relating-to-the-Status-of-Stateless-Persons_ENG.pdf
122. Avropa Şurasının rəsmi internet səhifəsi: [Elektron resurs].
URL:https://www.coe.int/en/web/conventions/full-list/-/conventions/rms/0900001680077972
123. My lawyer in Italy şirkətinin rəsmi səhifəsi: [Elektron resurs].
URL: https://www.mylawyerinitaly.com/wp-content/uploads/2017/11/Law-n.-555-of-1912-1.pdf
124. Yaponiya Ədliyyə Nazirliyinin rəsmi internet səhifəsi: [Elektron resurs].
URL: https://www.moj.go.jp/ENGLISH/information/tnl-01.html
125. Avropa Parlamentinin rəsmi internet səhifəsi: [Elektron resurs].

URL: https://www.europarl.europa.eu/charter/pdf/text_en.pdf

126. BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığının rəsmi internet səhifəsi: [Elektron resurs].

URL: https://www.ohchr.org/Documents/ProfessionalInterest/ccpr.pdf

127. Avropa Şurasının Müqavilə Seriyası [Elektron resurs].

URL:http://www.worldlii.org/int/other/COETS/1967/1.html

128. BMT-nin Hüquqi İşlər İdarəsinin rəsmi internet səhifəsi: [Elektron resurs].

URL: http://legal.un.org/repertory/art51.shtml

129. BMT-nin Hüquqi İşlər İdarəsinin rəsmi internet səhifəsi: [Elektron resurs].

URL: https://legal.un.org/ilc/texts/instruments/english/conventions/6_1_1961.pdf

130. BMT-nin Hüquqi İşlər İdarəsinin rəsmi internet səhifəsi: [Elektron resurs].

URL: http://legal.un.org/ilc/texts/instruments/english/draft_articles/9_8_2006.pdf

131. BMT-nin rəsmi internet səhifəsi: [Elektron resurs].

URL: https://treaties.un.org/doc/Publication/UNTS/LON/Volume%20179/v179.pdf

132. «Российская газета» rəsmi internet səhifəsi: [Elektron resurs].

URL: https://rg.ru/2014/02/06/vibor-site.html